# Rafiq Yusifoğlu

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

X cild



Rafiq Yusifoğlu



# SEÇİLMİŞ ƏSƏRLƏRİ

X cild

Bakı-2023

Redaktor:

**Zahid Xəlil**

Rafiq Yusifoğlu. Seçilmiş əsərləri, X cild. Bakı, ADPU nəşriyyatı, 2023. – 512 səh.

Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, görkəmli şair, ədəbiyyatşünas, “Qızıl kəlmə”, “Qızıl qələm”, “Vətən”, “Araz”, “İlin ən yaxşı kitabı” və s. mükafatların laureatı, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlunun “Seçilmiş əsərləri”nin onuncu cildinə onun “Qızılı məıktublar” (2013), “Sabahın sorağında” (2016), “Bulud fayton” (2017), “Nağıl qapısı” (2018), “Yollar” (2006) kitablarındakı uşaq şeirləri daxil edilmişdir.

$© \frac{19474647}{1957(H)2023}$ - Qrifli nəşr

**© Rafiq Yusifoğlu**

# “Qızılı məktublar” kitabından

## ŞƏRƏFİM, ŞANIM - AZƏRBAYCANIM

### AZƏRBAYCAN DAĞLARI

Hansı yana baxırsan,
Görünür uca dağlar.
Onların sinəsindən
Çağlayır buz bulaqlar.

Şəlalələr şığıyır
Üzü dərəyə sarı.
Gün altında bərq vurur
Zirvənin bəyaz qarı.

Bu Kəpəzdi, o Şahdağ,
Bu Qoşqardı, o Murov.
Gecənin ayazında
Hər yan bağlayıb qırov.

Yurdumuzun dağları
Biri-birindən uca.
Baxanda fərəhlənir,
Adam istəyir uça.

Yaşıl donlu yamaclar
Gül-çiçəklə doludur.
Bu dağlar yurdumuzun
Ucalıq simvoludur.

# AZƏRBAYCANIM

Doğma vətənim,
Necə əzizsən!
Biz ləpələrik,
Sənsə dənizsən.

Dağların uca,
Göllərin dərin.
Aranın isti,
Yaylağın sərin.

Güllərin bəyaz,
Qırmızı, sarı…
Çayların axır
Xəzərə sarı…

Çəmənlərin var,
Meşələrin var,
Nə qədər gözəl
Guşələrin var.

Hər an sən mənim
Ürəyimdəsən.
Bircə yol mənə
Ürəyim desən,

Göyə ucalar
Şərəfim, şanım.
Sən mənim qanım,
Sən mənim canım,
Azərbaycanım!
Azərbaycanım!

**03.07.2013**

## DOĞMA BAKI

Günəş qalxanda Xəzərdən
Sənə baxdım səhər-səhər.
Qəlbim sevincdən titrədi,
Ulu Bakı, qədim şəhər.

Sahildəki gül-çiçəklər
Gülümsəyib ətir saçdı.
Elə bil ki, Qız qalası
Keçmişindən söhbət açdı.

Doğma Bakı, bizim azad
Yurdumuzdan güc alırsan.
Gündən-günə boy atırsan,
Gündən-günə ucalırsan.

Bizim odlar diyarının
Qəlbinin közü səndədi.
Yaraşıqlı bir şəhərsən,
Dünyanın gözü səndədi…

**25.02.2012**

## BAKIM MƏNİM

Nə gözəlsən, Bakım mənim!
Müqəddəsim, pakım mənim!

Nur verirsən gözlərimə,
Yaraşıqsan Xəzərimə.

Sahildə ucalan dağsan,
El yanında üzü ağsan.

Göz oxşayır axşam-səhər,
Gözəldi İçərişəhər.

Qala qapısı qoşadır,
Qız qalası tamaşadır.

Şəfəq saçır işıqların,
Bəxtəvərdi uşaqların.

Sən şəhərlər şəhərisən,
Ömrümüzün səhərisən…

**25.02.2012**

## BİZİM ŞƏHƏR

Gün çıxanda səhər-səhər,
Gözəl olur bizim şəhər.

Üzə gülür xiyabanlar,
Gör nə qədər xiyaban var!

Şəhərlər şəhəri Bakım,
Mənim müqəddəsim, pakım

Gözəlləşir ildən-ilə,
Adı düşüb dildən-dilə.

Ay aman, nə çox uşaq var!
Parkda oynayır uşaqlar.

Qoy gedib mən də dincəlim,
Ancaq dayanmır dinc əlim.

Gah top atır, gah saç dartır.
Günbəgün dostlarım artır.

Başlayıram zarafata,
Karuseldə minib ata,

Çapıb getdim gələcəyə,
Darıxmayın, gələcəyəm!

**2007**

## BİZİM KƏND

Bu kənd axar-baxarlıdı,
Adı isə Baharlıdı.

Bildin nədir axar-baxar? –
Çaylar axar, insan baxar.

Hər yan gözəl, hər yan qəşəng,
Çiçək dərib hördüm çələng.

Günəş göydə şəfəq saçır,
Quşlar qanadlanıb uçur.

Başı qarlı dağlara bax,
Oynayan uşaqlara bax!

Yamaca yaraşır sürü,
Hərdən çoban iti hürür.

O yanda otlayır naxır,
Çobanlar dayanıb baxır.

Bu camışdı, o inəkdi,
Qaşqa buzov nə qəşəngdi!

Qoyuna bax, quzuya bax,
Qəlbimdəki arzuya bax:

Kaş dayıma oxşayaydım,
Mən də kənddə yaşayaydım.

**2007**

## BƏNÖVŞƏ GÖLÜ

Bir göl var burda, –
Bənövşə gölü.
Sahillərində
Bənövşə gülür.

Ona baxanda
Sevinir ürək.
Bu göl dağların
Qoynunda çiçək.

Xəfif meh əsdi,
Sular oynadı.
Bənövşə gölü
Sanki aynadı.

Sığınıbdır o,
Dağın köksünə.
Ağaclar suda
Baxır əksinə.

Qoynunda üzür
Ördəklər, qazlar.
Sahillərində
Oğlanlar, qızlar.

Bu gölün adı
Bənövşə gölü.
Demə neyləyir
Bənövşə gölü?

Suyundan gəlir
Bənövşə ətri.
Onunçün belə
Əzizdi xətri.

Hey cilvələnir
Təpə üstündə,
Meşə içində.
Faydalıdır o,
İnsan üçün də,
Meşə üçün də…

**04.08.2004**
**Qusar**

***

Torpağın mənə
Əzizdir, Vətən! –
Bir yamacdadır
Bizim kəndimiz.
Hər səhər dağa
Dırmanıram mən,
Orda günəşlə
Görüşürük biz…

**05. 08. 2004**
**Qusar**

## NABRANA GƏL

Heç məhəl də qoymadıq
Nə çovğun, nə borana.
Maşınlara doluşub,
Yola düşdük Nabrana.

Dəniz gəl-gəl deyirdi,
Meşə gəl-gəl deyirdi.
Bu yerlərin havası
Canımıza xeyirdi.

Qorxma tutqun havadan,
Daldalanma sən gedib.
Göydən bulud çəkildi,
Əsən külək səngidi.

Dənizin sahilində
Gör nə qədər ağac var!
Külək layla çaldıqca,
Mürgüləyir ağaclar.

Özünə yoldaş tapıb
Burda təklər, yalqızlar.
Dalğaların qoynunda
Çimir oğlanlar, qızlar.

Dost, sən də məhəl qoyma
Nə çovğun, nə borana.
İlin bütün fəslində
Nabrana gəl, Nabrana!…

**15.08.2005**
**Nabran**

## MƏNZƏRƏ

Günəş çıxır üfüqdən,
Göz qamaşır şəfəqdən.

Hər yan qərq olur zərə,
Bax Göygölə, Xəzərə.

Zirvələrdə qar gülür,
Budaqlarda bar gülür.

Nəğmə deyir turaclar,
Gəl-gəl deyir yamaclar.

Gör nə qədər uşaq var,
Çiçək dərir uşaqlar.

Gün batanda ay doğur,
Nurlandırır ay dağı.

Yoxsa bizə, ay nənə,
Layla çalır Ay nənə?!

**10.03.2010**

## ÜZÜ DAĞLARA SARI

Yamanca xatırladır
Sıra dağlar hasarı.
Maşınımız şütüyür
Üzü dağlara sarı.
Geri dönməyim gəlmir,
Məni dağlara sarı!
Bu Şahbuz, o Kolanı,
Bu Vayxır, o Biçənək.
Tanrı özü yar olsun
Buranı yurd seçənə!

Yemşan çiçəklərinin
Ətri dörd yanı tutub.
Sanki örtüb başına
Dağlar bəyaz buludu.

Çiçəklərin, güllərin
Neçə cürə rəngi var.
Batabat yaylağında
Gözəllik çələngi var…

**26.06.2011**
**Naxçıvan**

## ZOR BULAQ

Dağ başında qara bax,
Çalma kimi ağarır.
Dağ döşündəki çeşmə
Gəl-gəl deyir, çağırır.

Gecə-gündüz çağlayır,
Bu necə gur bulaqdı!
Adı da Zor bulaqdı,
Özü də zor bulaqdı!

Dağlar, düzlər məst olub
Bu bulağın payından.
İllərcə axıb, axıb,
Göl yaranıb suyundan.

**26.06.2011**
**Naxçıvan**

## ÜZƏN ADALAR

Batabatın qoynunda
İki üzən ada var.
Səhər ayrılır, axşam
Birləşir bu adalar.

Qaranlıqdan çəkinib,
Dəcəlliyi atırlar.
Gecələr bir-biriylə
Qucaqlaşıb yatırlar…

**26.06.2011**
**Naxçıvan**

## BATABATDA

Günəş dağda bathabatda,
Qəlbim əsir Batabatda…

Elə bil gün zərrələnir,
Ayna gölə zər ələnir.

Şəfəq saçır hər damla su,
Nurdur onun hər damlası.

Dağın otu, çölün gülü,
İçim gülür, çölüm gülür.

Sanki batmışam mən zərə,
Könül açır bu mənzərə…

Gözlərimə getmir çimir,
Bu göldə Günəş, Ay çimir…

**22.06.2011**
**Naxçıvan**

## ATA YURDU,
## ANA YURDU

Qürbət cənnətə dönsə də,
İgid çətin ata yurdu!
Müqəddəsdi ata yurdu.

İgid gərək harda olsa,
Xatırlaya, ana yurdu.
Unudulmaz ana yurdu…

**2011**

## ZİRVƏDƏN
## BAXANDA

Üzüyüxarı qalxdıqca
Sanki qaralır nəfəsim.
Dizlərimə təpər verir
Zirvədən baxmaq həvəsi.

Dörd tərəfə boylandıqca
Həyəcandan əsir ürək.
Elə bil ki, sıralanıb
Dağlar dəvə karvanı tək.

Baxanda qəlbim tirtrəyir
Bu ilahi mənzərəyə.
Qayadan süzülən sular
Çağlayıb axır dərəyə.

Sellər sizi yormadımı? –
Bir nəfəs dərin, dərələr!
Dağları biri-birindən
Ayıran dərin dərələr.

Dizlərim sözümə baxmır,
Gözlərimdə şimşək çaxır.
Zirvədən bir yol baxanda
Canımın ağrısı çıxır.

Gərək arzu qanadında
Özünü də ucaldasan.
Ordan baxanda görəsən
Sən hamıdan ucadasan.

Adamın gözləri gülür,
Yaşıl don geyir yamaclar.
Sığınıb nəhəng dağlara
Otlar, çiçəklər, ağaclar.

Ürəyimə gəl-gəl deyən
İnam, iman işığıdı.
Zirvədən baxanda gördüm
Hər şey məndən aşağıdı…

**28.07.2011**
**Tovuz, Yanıqlı**

## GÖZƏLLİK VADİSİ

Bu kəndin adı Əsrik,
Bu çayın adı Əsrik.
Gözəlliyin önündə
Yarpaq kimi əsirik.

Yol boyunca ağaclar
Dönüb yaşıl hasara.
Dağlara söykənibdir
Qayalar sıra-sıra…

Nağıl dünyasındayam,
Məni sevinc çulğayır.
Hər qayanın dibindən
Bir buz bulaq çağlayır.

Biz qalxdıqca yuxarı,
Çay şütüyür aşağı.
Ruhumu ovsunlayır
Nur bulağın işığı,
Gur bulağın işığı…

Yaşıl bir abidədir
Ağacların hərəsi.
Gözəllik vadisidi
Bizim Əsrik dərəsi…

**28.07.2011**
**Tovuz, Əsrik**

## ZƏYƏM ÇAYININ NƏĞMƏSİ

– Suyun durulsun deyə
Sənə zəy səpim, Zəyəm.
– Neyləyirəm zəyi mən,
Elə mən özüm zəyəm.

Dağların göz yaşından
Təmizəm, dupduruyam.
Bulaqlar çağlayırsa,
Çox çətin ki, quruyam.

Bu Xınna dərəsinə
Yaraşığam, bəzəyəm.
Gərək sahillərimi
Xınalayam, bəzəyəm.

Hey nəğmə oxuyuram
Mən yanıqlı-yanıqlı.
Yüz illərdir o səsə
Qulaq asır Yanıqlı…

**29.07.2011**
**Tovuz, Yanıqlı**

## QIZILQAZMA

Qızılqazma kəndinin
Başında göy kişnədi.
Havasının yanında
Qızıl-gümüş heç nədi.

Qızılqazma kəndində
Çox yaxındı göy yerə.
Gecələr elə bil ki,
Ulduzlar enir yerə.

Qızılqazma kəndində
Arabir göy gurlayır.
Şəfəq saçan ulduzlar
Qızıl kimi parlayır…

**15.07.2013**

## QAŞQA DAĞ

A Qaşqa dağ, Qaşqa dağ,
Tökmə belə qaş-qabaq.
Onsuz da yatmır mənim
Ürəyimə başqa dağ…

Göylərə boylananda
Gözümdən yuxu qaçıb.
İldırım düşüb, sənin
Alnında şırım açıb.

Ancaq dostum, bunları
Özünə dərd eləmə.
Belə yaraşıqlı dağ
Görməmişəm hələ mən.

Xızı meşələrinin
Bəzəyisən, Qaşqa dağ.
Gözəllik adasına
Bənzəyirsən, Qaşqa dağ…

**14.07.2013**
**Xızı**

## GƏZMƏK, GÖRMƏK HƏVƏSİ

Yoxdur bizim vətənin
Bu dünyada əvəzi.
Qəlbimi tərk eləmir
Gəzmək, görmək həvəsi.

Zəminin ortasında
Közə dönüb lalələr.
Zirvədən enə-enə
Saz çalır şəlalələr.

Yamaclarda, düzlərdə
Günəş xalı toxuyur.
Gözəlliyi görəndə
Qəlbim nəğmə oxuyur.

Çiçək ətri gətirir
Əsən səhər rüzgarı.
Qəlbimə nur çiləyir
Zirvənin bəyaz qarı.

Çiçəklərdən dad alıb
Bu yerlərin qaymağı.
Şırıldayan bulaqlar
Olub şəfa qaynağı.

İndi yaman kövrəlib
Daşa dönən ürəyim.
Göyə meydan oxuyur
Quşa dönən ürəyim…

Sərindi, səfalıdı
Bu yerlərin havası.
İnsana zaval yoxdu
Təmizdisə hava, su…

**18.07.2010**
**Qusar**

## ANASI YOXDU

Mən anamla qonaq getdim
Güllü, çiçəkli dağlara.
Zümrüd donlu meşələrə,
Sərin sulu bulaqlara.

Durubdur dinməz, söyləməz,
Bu dağ elə bil naxoşdu.
Anamın əlindən tutub,
Dağlara baxmaq nə xoşdu!

Anasız bu gözəlliyin,
Həyatın mənası yoxdu.
Mənə qibtəylə baxırlar,
Dağların anası yoxdu…

**01.08.2005**

## BU YOL LƏZƏYƏ GEDİR

Bu yol Ləzəyə gedir,
Üzü quzeyə gedir.
Dağlar verib baş-başa,
Söykək olub daş daşa.

Yamaclarda çiçəklər
Sayrışır ulduz kimi.
Çağlayan çeşmələrin
Suyu sərin, buz kimi.

Hər bulaqdan bir ovuc
Su içməsən, ar olar.
Burda nağıl danışır
Çiçəklərə arılar…

İki dağın üstündə
Şəlalələr üz-üzə.
Dəyişən mənzərələr
Biri-birindən gözəl…

Bu yol Ləzəyə gedir,
Üzü quzeyə gedir…

**11. 08. 2004**
**Ləzə**

## QURU ÇAY

– Quru çay, Quru çay,
Şərəfini qoru, çay!
Ya dağdan su tap gətir,
Ya bir yolluq quru, çay!

– Ələ salmısan məni? –
Gözümdən yayınmaz tük.
Hünərin çatırsa, gəl
Yatağımda bir ev tik.

– Zarafat eləyirdim,
Sən incimə sözümdən.
Dağların şıltaqlığı
Yayınarmı gözümdən?!

Yatağın dərin olsun,
Quru çay, ay Quru çay,
Qəflətən gələn seldən
Sahilləri qoru, çay!

**07. 08. 2004**
**Qusar**

## VƏLVƏLƏ ÇAY

Daşan zaman Vəlvələ,
Düşür yaman vəlvələ.

Onun daşı, çınqılı,
Həm iri, həm cınqılı.

Dağdan gələn suyundan
Bağlar, bostanlar içir.

Yaşıl bir cığır salır
Bu çay hayandan keçir.

Qoymurlar yerdə qala
Çınqılını, daşını.

Evlər ucaltmaq üçün
Maşın-maşın daşınır.

Yaratsa da vəlvələ,
Dostumuzdu Vəlvələ.

**10.07.2005**
**Quba**

## QUDYAL ÇAY

Kükrəyir, aşıb-daşır,
Qudyala bax, Qudyala.
Dərələrə tələsir,
Dağlardan düşüb yola.

Qopub Tufan dağından
Çağlayır tufan kimi.
Bitkilərin canında
Suyu axır qan kimi.

Laylasıyla uyuyur
Dağlar, düzlər, yamaclar.
Nəğməsindən məst olur
Meşədəki ağaclar.

Üzü dənizə sarı
Elə bil ki, at çapır.
Xəzərə qovuşanda
Uyuyur, dinclik tapır…

**17.12.2006**
**Quba**

## GÜLLƏR DARIXIB

Heç vaxt ərimir
Zirvələrdə qar.
Ay ata, məni
Dağlara apar!

Yazda təbiət
Min büsat qurur.
Yamacda güllər
Sanki bərq vurur.

Deyirəm ki, kaş
Quş olam mən də.
Kəpənəklərə
Qoşulam mən də.

Tutub dörd yanı
Bənövşə ətri.
Güllər darıxıb,
Əlimdən ötrü…

**04.07.2013**

## SÜBH

Elə ki göydən
Günəş zər ələr,
Səpilər yerə
Nurlu zərrələr.

Şəfəqlər altda
Sevinər, gülər,
Gözləri nəmli
Çiçəklər, güllər.

Dağlardan əsən
Səhər yelləri,
Öpüb oyadar
Yatan gülləri.

Gün nurlandırar
Çəməni, düzü.
Şehli güllərin
Qamaşar gözü…

**04.07.2013**

## LÖVHƏ

Bu gölün dövrəsində
Uca dağlar, yamaclar…
Suda özünə baxıb,
Qürrələnir qayalar,
Qürrələnir ağaclar.

Kölgələr qorxutmayır
Suda üzən balığı.
Göl ağaclara baxıb,
Unudur tənhalığı…

Tanrı bu gözəlliyi
Yurduma pay göndərib.
Düşən əkslər bu gölü
Laləzara döndərib…

**2012**

# MÖCÜZƏLƏR DİYARI

## GÖRƏSƏN NƏYƏ GÖRƏ

Mən səmaya baxıram,
Oy, nə qədər bulud var!
Görəsən nəyə görə
Dolur qara buludlar?

Hey tutulub-açılır
Nə üçün göyün üzü?
Nə üçün quşlar uçur,
Niyə balıqlar üzür?

Elə bil ki, çəməndə
Yağış xalı toxuyur.
Görəsən nəyə görə
Bülbül nəğmə oxuyur?

Nəyə görə göbələk
Başına tutub çətir?
Niyə çiçək çəməndə,
Ağac meşədə bitir?

Niyə böcəklər uçur?
Niyə çiçəklər açır?
Niyə ay solğun ziya,
Günəş odlu nur saçır?

Görəsən nəyə görə
Yarpaq açılır, solur?
Görəsən nəyə görə
Dünya boşalır, dolur?

Görəsən nəyə görə
Göydə çaxır şimşəklər?
Görəsən nəyə görə
Əsir soyuq küləklər?

Gecə səmaya baxdım,
Göylər çiçək-çiçəkdi.
Görən bu qədər ulduz
Kimə, nəyə gərəkdi?

Nə üçün aran isti,
Yaylaq isə sərindi?
Nə üçün dağlar uca,
Dərələrsə dərindi?

Görəsən nəyə görə
Çaylar dənizə axır?
Dünya bir möcüzədi,
Başımdan tüstü qalxır.

Cavabını gözləyən
Gör nə qədər sual var!
Məni rahat buraxmır
Bu cavabsız suallar…

**02.04.2011**

## YER KÜRƏSİ

Allahın yaratdığı
Möcüzədi bu kürə.
Onu yada salanda
Adam gedir fikirə.

Elə ki günəş çıxır,
Dərə-təpə nurlanır.
Yer özünə yer tapmır,
Ora-bura fırlanır.

Arzular qönçə-qönçə,
Arzular puçur-puçur.
Yer nəhəng bir quş kimi
Havada uçur, uçur…

Heç bilmirəm yer nədi,
Heç bilmirəm göy nədi.
Biz yerdə yaşayırıq,
Yerin özü göydədi…

**24.06. 2013**

## YUPİTER

Uçuşan planetlər
Kainatı bəzəyir.
Yupiter bizim Yerin
Qalxanına bənzəyir.

O olmasa kim tutar
Göydən gələn daşları?
Yeri aşsüzən edər
Meteor yağışları…

**17.03.2012**

## AY ÇAY, HARDAN GƏLİRSƏN?

– Ay çay,
hardan gəlirsən?
– Şahdağın ətəyindən.
Qapqara buludların
Gözündən,
bəbəyindən…
Hər yan meşə,
çəmənlik,
Hər yan gözəl
mənzərə…
– Ay çay,
hara gedirsən?
– Xəzərə! Xəzərə!

**07.08.2013**
**Qusar**

## YAY VƏ QIŞ

Elə ki yurdumuza
Qonaq gəlir isti yay,
Bütün pəncərələri
Biz açırıq taybatay.

Qapını, pəncərəni
Bağlayıb yaxşı-yaxşı,
Buraxmaq istəmirik
Biz evə soyuq qışı.

Sevilmək istəyirsən,
Kimsəyə soyuq olma!
Mehriban ol, isti ol,
Qapı dalında qalma!

**17.06.2013**

## QIŞ UZUNU

Gedib qış yuxusuna,
Nə çovğun, nə qar görür.
Arılar qış uzunu
Yuxuda bahar görür…

**2013**

## QIŞIN SON SÖZÜ

Bozardaraq üzünü,
Qış dedi son sözünü.

Çölü-düzü ağartdı,
Çovğun oldu ağ atlı.

Çapdı o baş-bu başa,
Zəhməti çıxdı boşa.

Günəş gülümsəyən tək,
Ağaclar açdı çiçək.

Çovğuna verildi son,
Çöllər geydi yaşıl don…

**19-20.03.2010**

## QIŞDI BU

Qışdı, qışdı, qışdı bu,
Bir ağ, nəhəng quşdu bu.

Uçub gəlib uzaqdan,
Qırdı bizi sazaqdan…

Elə ki yerə qondu,
Göllərdə sular dondu.

Dünya oldu ağappaq,
Gözəlləşdi dərə, dağ…

Qışdı, qışdı, qışdı bu,
Yaz gələndə uçdu bu…

**2008**

## BAHARIN GƏLİŞİ

Düzlərdə qar əridi,
Qış dağlara çəkildi.
Yerdən novruzgülülər
Baş qaldırdı, dikəldi.

Mürgülü bənövşələr
Yuxusundan oyandı.
Budaqlarda yarpaqlar
Yaşıl işıq tək yandı.

Sevinərək "Yaz gəlib!" –
Deyirdi ağacdələn.
Meşənin qapısını
Döyürdü ağacdələn!

– Aç, aç qapılarını,
Sevimli bahar gəlir!
Gözün aydın, ay meşə,
Budaqlara bar gəlir!
Təzə qonaqlar gəlir,
Sevimli bahar gəlir…

**20.11.2011**

## AŞMAQ İSTƏYƏN QOVAQ

Aşmaq istəyən qovaq,
Səni həyətdən qovaq?

İşlər bir az şuluqdu,
Bizi qoyma pis günə.
Aşıb düşə bilərsən
Adamların üstünə.

Belə etsən, ay qovaq,
Mütləq səndən küsərik.
Möhkəm dayan yerində,
Yoxsa səni kəsərik!

**15.11.2011**

## NƏHƏNG QUŞ

Durub gendən baxıram,
Bu quş bənzəyir dağa.
Göydə uça bilsə də,
Qona bilməz budağa…

Hey yarır buludları,
Uçuşundan qalmır o.
Nəhəng qanadları var,
Ancaq qanad çalmır o.

Aşağı enəndə də
Sıxmaz qanadlarını.
Heç yerdə duranda da
Yığmaz qanadlarını.

Yaydan ayrılan ox tək
Yerdən qalxıb süzər o.
Səma okeanında
Balina tək üzər o.

İşıqları bərq vurur,
Bir uçan səyyarədi.
O, adi bir quş deyil,
Gözəl bir təyyarədi…

**04.04.2012**

## SÜRÜŞƏN YARPAQLAR

Yarpaqlar tökülməmiş
Yağan qar örtüb yeri.
Elə bil ki, tərs düşüb
Payızla qışın yeri.

Bu ilki qışın rəngi
Deyil təkcə ağ, qara.
Sarı-sarı yarpaqlar
Naxış salıb ağ qara.

Yel əsir, bu lövhəyə
Hamı baxıb gülüşür.
Uçan yarpaqlar sanki
Qar üstündə sürüşür…

**04.04.2012**

***

– Buludlar karvan çəkib,
Hara gedir, ay qağa?
– Gedirlər başqa yerin
Buludları olmağa…

**03. 08. 2004**
**Qusar**

## GÜNƏŞ VƏ DƏNİZ

Yayda günəş həmişə
Boylanırdı Xəzərdən.
Sudan ayrılmağını
Buraxmırdım nəzərdən.

Havalar soyuyubdur,
Dəniz kimsəsiz qalıb.
Sakitcə baxır mənə,
Elə bil gözü dolub.

Günəş qorxur üşüyə,
Dönübdür öz yolundan.
O, daha dənizdən yox,
Çıxır dağın dalından…

**03. 12. 2002**

## GÜNƏBAXAN

Günəş günəbaxanın
Qəlbində eşq oyadır.
Günəşə çatsın deyə
Günəbaxan boy atır.

Onu bəxtiyar edib
Ürəyinin atəşi.
Harda gizlənsə belə
Tapacaq o, günəşi.

**16. 07. 2001**

## DAĞ VƏ DƏRƏ

Mən gedirəm dağ aşağı,
Enə bilməz dağ aşağı.
Aranda necə qalacaq
Heç bilmirəm dağ uşağı?!

Yolumu gözləyir dərə,
Enirəm gül dərə-dərə.
Dağ səsləyir öz dostunu:
– Dərə! Dərə!

Dərə susur, göy gurlayır,
İldırımlar çaxıb gedir.
Dağın göz yaşı dərənin
Sinəsindən axıb gedir…

**29. 08. 2004**

## BİR QOM ÇİÇƏK

Dağda güllərdən dərib,
Mən taxmışdım yaxama.
Bir kəpənək uzaqdan
Uçub gəldi yaxına.

Qonub güllərin üstə,
Kəpənək məzələndi.
Elə bil ki, köksümdə
Ürəyim təzələndi…

**11. 08. 2004**
**Ləzə**

## QARAQANIQ

Bənzəsəm də kəkotuya,
Elə bilmə kəkotuyam.

Neçə dərdin dərmanıyam, –
Belə dedi qaraqanıq.
Çayımızı çox içənin
Damarında qara qanıq.

Qədərində içsən əgər,
Bil, məndən şəfa taparsan.
Peşman olmazsan, sən bizi
Dərib şəhərə aparsan…

**03. 08. 2004**
**Qusar**

## TƏNHA ADA

Dənizin ortasında
Darıxır tənha ada.
Ona görə sevinir
Görəndə bircə adam.

O, gələn qonaqların
Öpür qədəmlərindən.
Tək qalanda darıxır,
Köks ötürür dərindən.

Əli sahilə çatmır,
Sular kəsib aranı.
Onun göz yaşlarından
Bu dənizlər yaranıb…

Yamanca kövrək olub
Yaşının bu çağında.
Bir gəmiyə bənzəyir
Dalğalar qucağında.

Nə yanına gələn var,
Diqqətlə bax sən ona! –
Nə üzüb gedə bilir
Adamların yanına…

Suların dövrəsində
Qəlbi tutulur oda.
Bizdən ötrü darıxır
Dənizdə tənha ada…

**02.05.2013**

## MƏN YAĞIŞAM

Mən yağışam, yağışam,
Bulud mənim evimdi.
Qonaq getdim çəmənə,
Çöllər-düzlər sevindi…

Torpağa hopan zaman
Elə bilmə itirəm.
Günəş gülümsəyəndə,
Çiçək olub bitirəm.

Yağanda çevrilirəm
Yerin yaraşığına.
Üzünüzdə təbəssüm
Bənzər göy qurşağına.

Göyü bulud aldımı,
Başlama yır-yığışa.
Bir də çətin qayıdıb,
Öz evimə yığışam:
Mən yağışam, yağışam…

**04.07.2013**

## YAĞIŞ

Geyib duman çuxasını
Meşələrdə gəzər yağış.
Budaqların kirpiyinə
Mirvarilər düzər yağış.

Gündüz bilməz, gecə bilməz,
Bostan bilməz, küçə bilməz,
İslatmasa, keçə bilməz,
Canımızı üzər yağış.

Toz-torpağı təmiz "dərər",
Ağacları çimizdirər,
Çiçəkləri əmizdirər,
Bir anaya bənzər yağış…

**09. 08. 2004**
**Qusar**

***

Gecə-gündüz
Yağır yağış.
Edib yeri
Yağır yağış.
Çöldə qalsan
İslanarsan,
Çarə yoxdu,
Evə yığış…

***

Üç gün yağdı
Sərasər,
Düşdü yaman
Sərhasər…

Yaş-yaş geyinmək olmaz,
Qurusun paltar gərək.
Yer də yoxdu şəriddə, –
Bəs hara paltar sərək?

Hamısı su içində,
Biz hər şeyi unutduq.
Axır ki, günəş çıxdı,
Paltarları qurutduq…

**06. 08. 2004**
**Qusar**

***

Yağış yağır:
– Tap, tap…
Nə deyir o? –
Tap, tap!

İndicə sel
gələcək,
Min atını
çap, çap!

**27.04.2013**

## YERİYƏN GÖBƏLƏKLƏR

Yağış yağır şırhaşır,
Sevincim aşıb-daşır.

Ay aman, küçəmizdə
Nə qədər göbələk var!
Onlar hara gedirlər
Düzülüb qatar-qatar?

Göy, qara, ağ, qıpmızı –
Necə rəngbərəngdilər!
Belə göbələk olar? –
Elə bil çiçəkdilər.

Yağışın gücünə bax,
Küçələri bəzərmiş!
Heç belə də iş olar,
Göbələk də gəzərmiş!…

Bu qəribə mənzərə
Mənə sevinc gətirdi.
Bunlar göbələk deyil,
Hərəsi bir çətirdi…

Yağış yağır şırhaşır,
Sevincim aşıb-daşır.

**20.11.2011**

# İNCİÇİÇƏYİ

– Qönçələyirsən
Gələn zaman yaz.
Yarpağın yaşıl,
Çiçəyin bəyaz.

Hardan almısan,
İnciçiçəyi,
Bu qədər gözəl
İncə ləçəyi?

Göz oxşayırsan,
Sanki incisən.
Niyə bu qədər
Zərif, incəsən?!

Qorxmursan səni
Keçi, mal yeyə?
Arılar səndən
Çəkmir bal niyə?...

İnciçiçəyi
Sanki qımışdı,
Təbəssümündən
Gözüm qamaşdı:

– Bənzəsəm də mən
Dürrə, inciyə,
Məni incidən,
Özü inciyər.

Heyvan dəlidi
Məni otlaya? –
Zəhrim onu yaxar,
Odlayar…

Qoruyur məni
Hər axşam-səhər
Ləçəklərimdə
Gizlənən zəhər…

– Məndən nə küs, nə
İnci, çiçəyim!
İncələr duyar
İncə çiçəyi!
İnciçiçəyi!
İnciçiçəyi!

**03.05.2013**

## KÜLƏK

Mən küləyəm, küləyəm,
Uçuram eldən-elə.
Salamlar aparıram
Çiçəkdən, güldən gülə.

İstəyirəm bağların
Məhsulunu artıram.
Bu çiçəyin tozunu
O çiçəyə qatıram.

Gur saçlarda darağam,
Ciyərdə nəfəsəm mən.
Hava dəyişsin deyə
Gərək hər gün əsəm mən.

Yelpikləyib, havadan
İstini götürürəm.
Dağdakı sərinliyi
Arana gətirirəm.

Hey əsirəm, əsirəm,
Sanma ki, boş dururam.
Sulara sığal çəkib,
Dənizi coşdururam.

Zoğları qurumuşlar
Tir-tir əsir qorxudan.
Meşəni silkələyib,
Oyadıram yuxudan.

Nurlandırır yolumu
Göylərdə çaxan şimşək.
Qabağıma qatıram
Buludları çoban tək.

Çəmənlərə, çöllərə
Hey yağış daşıyıram.
Əsməsəm, ölərəm mən,
Əsirəm, yaşayıram…

Köhnə dağılmalıdı, –
Toz eləyən mənəm, mən.
Dünyanın havasını
Təzələyən mənəm, mən…

Görmədiyim yerləri
Görməyə tələsirəm.
Gəzirəm bu dünyanı,
Gözəlliyə əsirəm, –
Hey əsirəm, əsirəm…

**16.07.2010**

## KÜLƏK VƏ BUDAQ

Mer-meyvə dərmək üçün
Girmişəm bizim bağa.
Ağac elə hündürdü,
Əlim çatmır budağa.

Arılar vızıldaşır,
Yatan güllər oyanır.
Gün işığı altında
Ərik çıraq tək yanır.

Budağa bax, budağa,
Deyir balaca Kərəm:
– Külək əyir ki, onun
Üstündən meyvə dərəm…

**18.07.2010**
**Qusar**

## DOSTUM KÜLƏK

Mənə dostumsan deyib,
Hey yanımda əsirsən.
Dostunu tapmısansa,
Bəs hara tələsirsən?

Hara gəldi gedirsən,
Öz yolunu azırsan.
Yaxama əl atmağa
Sən həmişə hazırsan.

Mən səninlə neyləyim,
Hər şey çıxıb huşumdan.
Fürsət düşsə, qaparsan
Papağımı başımdan.

Ay külək, bu nə işdi,
Toz-torpağın göz tökər…
Heç dost da öz dostunun
Papağına göz dikər?!

**03.07.2013**

## HAYANDA YATIR KÜLƏK

– Bir deyin, biz də bilək,
Hayanda yatır külək?!

– Yarpaqların ucunda,
Çiçkələrin ovcunda.

Sıldırımın boynunda,
Dərələrin qoynunda.

Dənizlərin üzündə,
Dünyanın o üzündə…

– Bəsdi yatdığı, dursun,
Dənizlərə baş vursun!

Dalğaları oyatsın,
Ləpələri oynatsın.

Titrəsin bənövşələr,
Uğuldasın meşələr.

O, bizə nəfəs olsun,
Yer rahat nəfəs alsın!

**24.07.2013**

## DİBÇƏK GÜLLƏRİ

Pəncərəyə qoysaq da,
Elə bil qəfəsdədi.
Bu güllərin içindən
Boylanan həvəs nədi?

Pəncərəni açanda
Güllərin üzü gülər.
Sanki hava udanda
Havalanır bu güllər.

Bayırda quşlar ötür,
Vızıldayır böcəklər.
Çıxıb qaçmaq istəyir
Pəncərədən çiçəklər…

**22.08.2013**
**Marmaris**

## HARDA GİZLƏNİR

Göy üzü hərdən təmiz,
Hərdən buludlu olur.
Hərdən adamların da
Gözü bulud tək dolur…

Gecə yağış yağanda
Hava da təmizlənir.
Görən bu qədər bulud
Qaçıb harda gizlənir?

**22.08.2013**
**Marmaris**

## AĞAC KÖLGƏSİ

Yay gəlcək alov saçır
Günəşin qaynar gözü.
Köksünü qalxan edib,
Ağac qoruyur bizi.

Qızmar günəş altında
Dayanar, çıxmaz səsi.
Öz üstünə düşmür ha
Ağacın öz kölgəsi…

**29.05.2007**

## XIZIDA PAYIZIN İLK GÜNÜ

Payızın ilk günündə
Sanki düşdüm tilsimə.
Duman gəlib başladı
Dağda "təhvil-təslimə"…

Saralmış yarpaqların
Bənzəri var ulduza.
Meşə istər-istəməz
Könül verdi payıza.

Başdan-başa sehrdi,
Möcüzədi bu torpaq.
Bir yanda novruzgülü,
Bir yanda sarı yarpaq…

Yazın elçisi güllər
Payızla qol-boyundu?! –
Külək əsdi, ağaclar
Paltarını soyundu.

Bu meşələr, bu dağlar
Yaman gəldi xoşuma.
Yarpaqlar şabaş kimi
Səpələndi başıma…

**21-22.09.2013**

## QIZILI MƏKTUBLAR

Bu çayın sularında
Gör nə qədər yarpaq var!
Elə bil məktublardı
Bu qızılı yarpaqlar.

Baxan kimi bilirsən:
Bu çay meşədən gəlir.
Gözəl ağaclar bitən
Dilbər guşədən gəlir.

Bu çayın sularını
Qızıl xəzəl bəzəyir.
Bu çay dağlardan gələn
Poçtalyona bənzəyir.

Daşlara çırpılanda
Köksünü ötürür o.
Meşənin məktubunu
Dənizə gətirir o…

**17.09.2013**

## SIRSIRA

Hər tərəfi qar aldı,
Ocağımız qaraldı.
Elə bil marıqdaydı,
Bircə anda sırsıra,
Odunların üstünə
Düzüldü sıra-sıra…

**1984**

## HƏYƏCAN

Pəyələr sıra-sıra,
Bayır sazaq, sırsıra.
Qara Çoban qışqırdı:
– Heyvanları qış qırdı.
Qarla örtülüb kövşən,
Ala qoyun, az gövşə!
– Tez elə, tap ot, ələf,
Yoxsa olarıq tələf.

## TEZ BÖYÜ

Yaz gəlsin, iyun olsun,
Quzular qoyun olsun.
Mənim körpə çobanım,
Tez böyü, toyun olsun.

## BÖYÜK ARZUYA GEDƏN YOL

Böyük arzuya gedən yol
Məni səsləyər, haraylar.
Xırda kərpiclər olmasa,
Ucalmaz böyük saraylar.

Çeşmələrin duruluğu
Dağdan keçər, daşdan keçər.
Böyük arzuya gedən yol
Kiçik-kiçik işdən keçər...

**1992**

## BAYRAQ MEYDANINDA

Bayraq meydanına
Gəlib axın-axın,
Göylərə baş çəkən
Bayrağıma baxın!

Azadlıq nuruna
Bürünür o bayraq,
Hansı yandan baxsan,
Görünür o bayraq.

Xəzər ona baxıb,
Dalğalanır, coşur.
O, mənim yurduma
Gör necə yaraşır!

Burda bulaq kimi
Durulanır insan.
Bayraq meydanında
Qürurlanır insan.

Bu üçrəngli bayraq
Şərəfim, şanımdır.
Hər yandan görünən
Azərbaycanımdır…

## MÜQƏDDƏS TORPAĞA SÖYKƏN

Əllərimiz qana batıb,
Dost, bizimki keçib daha.
Müqəddəs torpağa söykən,
Torpaq güllə keçirmir ha!

Ya azadlıq, ya da ölüm
Yolunu seçmək yaxşıdı.
Vətəndən köçməkdəndisə,
Dünyadan köçmək yaxşıdı.

İnsan oğlu yağılarla
Döyüşdükcə mətinləşir.
Torpaq qanla yoğrulduqca
Doğmalaşır, vətənləşir…

Üstümüzə yağı gəlsə,
Dağlar bizə səngər olar.
Gərək bütün Azərbaycan
Ucdantutma əsgər ola!

**1992**

## YARALI ƏSGƏR

Həkimlər döyüşçüyə
Sağlamlıq diləyiblər.
Bu əsgərin qolunu
Körpə tək bələyiblər.

Ağ tənzifin içində
Qızıl bulaq çağlayır.
Bu sarğı bəndə dönüb,
Axan qanı saxlayır.

Çəkilibdir tarıma,
Yaranı sıxır, əzir.
Zoqquldayan barmaqlar
Yuxuda tətik gəzir.

O yaralı əllərin
Bələyi açılacaq.
Naxələf düşmənlərin
Arzusu puç olacaq…

**1992**

## QARABAĞIM YENƏ GERİ DÖNƏCƏK

Kim xəyanət eləyibsə Ağdama,
Gərək onun gözlərinə ağ dama!

Füzulini verən əllər qurusun,
Cəbrayılda toy məclisi qurulsun!

Qarabağın nə dağı, nə aranı? –
Üzdü bizi ayrılığın boranı.

Hər tərəfi çiskin, duman alıbdır,
Dağlarımın gözü yolda qalıbdır.

Düşmənlərin od-ocağı sönəcək,
Qarabağım yenə geri dönəcək…

**2000**

## LAÇINIM

Niyə düşdü gözlərimiz işıqdan?
Yaxşı kimi ayrı düşdük Aşıqdan.
Sənsiz anam, bacım yolar saçını,
Ulu yurdum, qibləgahım, Laçınım…

Torpağında bircə dam-daş qalmadı,
Həkərinin gözündə yaş qalmadı, –
Selə dönüb minnətinə qaçanım,
Dağ döşündə qəribsəyən Laçınım.

Yurdum yağı pəncəsində əsirdi,
Qəlbim dözür bu hicrana, nə sirdi?
Nə durmuşuq, gözləyirik haçanı?
Bəs kim xilas eləyəcək Laçını?

Yol gözləyir Yaxşı Sarı Aşıqla,
Səni görsəm, könlüm dolar işıqla,
Şəfəq kimi qəlbimə nur saçanım,
Ulu yurdum, qibləgahım, Laçınım…

Ayrı oba deyil mənim gərəyim,
Həsrətindən çat-çat olan ürəyim
Sənə doğru uçum-uçum uçunur,
Laçınım! Laçınım! Laçınım!

## MUROVUM

Murovum, Murovum,
Bir ovun, bir ovun!
Yaxınkən uzaqsan,
Ancaq üzü ağsan.
Qalıbmı görəsən
Qoynunda izimiz?
Sənə üz tutmağa
Gələrmi üzümüz?
Murovum, Murovum,
Bir ovun, bir ovun!
Çəkirsən hər gün ah,
Bizdəmi hər günah?!

**1997**

## ZƏNGILANIN GÖZÜ QALIB YOLLARDA

Yandırmaqdı
Yağıların peşəsi,
Salamatmı
Görən çinar meşəsi?
Bəsitçayım
İçin-için ağlayır,
Oxçuçayın
Suları göz dağlayır.

Axı niyə
Olduq belə qarabaxt?
O yerlərə
Dönəcəyik biz nə vaxt?
Bizim üçün
Qəribsəyib yollar da,
Zəngilanın
Gözü qalıb yollarda…

**2000**

## TƏZƏ BAYATILAR

Bayatı, ay bayatı,
Olmaz sözün boyatı.
Bir əsgər olacağam
Mən böyüyüb, boy atıb.

Adım gəzəcək dildə,
Dərdim axacaq seldə.
Qıratlar kişnəyəcək
Çardaxlı Çənlibeldə.

Əliboş dönmə ovdan,
Qorxma qardan, qırovdan.
Bizsiz yaman darıxıb,
Xəbər gətir Murovdan.

Daldalan daşın altda,
Bərk yağışda, gürşadda.
Sonra çim Həkəridə,
Sonra çim Bərgüşadda.

Güldən çələng hörəcəm,
Mən o günü görəcəm.
Çıxıb Cıdır düzünə
Xarıbülbül dərəcəm...

**1998**

## MƏKTƏBLİ ŞƏRQİSİ

Azərbaycan oğluyuq,
Azərbaycan qızıyıq.
Vətənin göylərində
Yanan dan ulduzuyuq.

Gülüstana çevrilsin
Yurdumuzun çölləri.
Yolumuza göz dikib
Azərbaycan elləri.

Qollarını bizimçün
Gen aç, ay ana məktəb!
Bizim yollarımıza
Nur saç, ay ana məktəb!

İnsan oğlu özünə
Şərəfli bir yol seçir.
Bütün zəfər yolları
Sənin qoynundan keçir…

İsti nəfəsimizlə
Ərisin buzlar gərək.
Bu vətənə layiqli
Oğullar, qızlar gərək.

Sən bizi aydın, nurlu
Səhərlərə hazırla!
Sən bizi el yolunda
Səfərlərə hazırla!
Sən bizi uğurlara,
Zəfərlərə hazırla!

Qollarını bizimçün
Gen aç, ay ana məktəb!
Bizim yollarımıza
Nur saç, ay ana məktəb!

İnsan oğlu özünə
Şərəfli bir yol seçir.
Bütün zəfər yolları
Sənin qoynundan keçir…

## MÜƏLLİM QƏLƏMİ

Müəllimin qələmi
İş görməyə tələsir.
Minaaxtaran kimi
Sətirlər üstə gəzir.

Yaxşı cümlə görəndə
Qanad çalan quş olur.
Hər səhv tapanda, sanki
Bir minaya tuş olur.

Tez kağıza qırmızı
İşarələr düzülür.
Yaralanmış qələmdən
Elə bil qan süzülür…

**1991**

# HEÇ BELƏ DƏ İŞ OLAR

## BÜLBÜL

Bülbül öz nəğməsiylə
Sevənləri səslədi.
Paxıllıqdan yananlar
Ona nifrət bəslədi.

Gölməçənin içində
Qurbağa quruldadı.
Boğazını yırtaraq,
Boz qarğa qarıldadı.

Axır ki, yoruldular,
Səslərini kəsdilər.
Nəğməkar quşcığazda
Ayrı nöqsan gəzdilər.

"Həmişə belə getməz,
İşi yaman fırıqdı.
Səsinə aldanmayın,
Onun zatı qırıqdı."–

Qarğa bütün quşlara
Bülbülü çox pislədi:
– Adı bülbül olsa da,
Nəsli sərçə nəslidi…

**28.01.2006**

## BÖYÜRTKƏNLİKDƏ

Gözəlliyi görəndə
Adamın gülür gözü.
Oy, böyürtkən kolları
Götürüb dağı, düzü.

Nur saçan gilələrin
Ulduzlar tək sanı var.
Hər kolun meyvəsinin
Öz dadı, öz tamı var.

Gün dəydikcə, böyürtkən
Şirinlənir, ballanır.
Kolların qulağından
Muncuq kimi sallanır.

Kökəlmisən yamanca,
Bu boyda adam olar?!
Hər koldan bir böyürtkən
Yesən, qarnın dam olar…

**16.08.2005**
**Qusar**

## QARINQULU

Baxmır ağına, bozuna,
Nə gəldi basır ağzına.

Həkim deyir: – Sənin mədən,
Çevrilib olacaq mədən…

Orda hər şey tapılacaq,
Qismətin əzab olacaq…

**2005**

## OĞLUMUN SUALI

Meşənin ortasında
Nəyə görə, ay ata,
İri ağaclar qoymur
Xırdaları boy ata?!

Yırğalayıb başını
Atası belə deyir:
– Xırdaca balıqları
İri balıqlar yeyir…

**2003**

## ANONİM

Tısbağadan anonim
Yazdılar ki, kefi var.
Arvadının, qızının,
Oğlunun öz evi var…

## ÇAŞBAŞ QALAN BALIQLAR

Bala balıq üzəndə
Ana balığı ötüb,
Söylədi: – Bu sahildə
Nə qədər qamış bitib!

Ana balıq hirsləndi:
– Az ürəyimi üzün!
Sahil təhlükəlidi,
Mənim dalımca üzün!

Qorxan balalarını
Ana balıq ovudur:
– Bunlar qamış deyil ha,
Balıqçı tilovudur…

**25.06.2013**

## ŞİMŞƏK ÇAXANDA

Oğlum gülə-gülə deyir:
– Gəlin dalda yerə qaçaq.
Göyün qarnı quruldayır,
İndicə yağış yağacaq…

**2003**

## ARI VƏ MİLÇƏK

Milçək dedi arıya,
Gəl oxu bir ariya!

Milçəyin yoxdu arı,
Neyləsin yazıq arı?!

Söylədi yaman acam,
Uçub getdi yamaca.

Çiçəklərdən bal çəkdi,
Milçək ondan əl çəkdi!

**27. 07. 2003**

## ÇƏTİR TUTAN QARABALA

Yaxında kölgəlik yox,
Göylərdən od tökülür.
Çətirli adamlara
Bu qız nə üçün gülür?

Soruşanda deyir ki,
Bir ora bax, ay xala! –
Zənci çətirlə gəzir,
Bəlkə qorxur qarala?!

**04.07.2013**

## XORUZ İLİ GƏLƏN ZAMAN

Biləndə ki, xoruz ili
yaxınlaşır,
Ötənləri, keçənləri
Xoruz andı.
Qohum-qardaş səs verdi
onun səsinə,
Ququldaşdı toyuq-cücə,
xor uzandı.
Lümək beçə önə verdi
öz döşünü,
Saymazyana ququldadı,
xoruzlandı.
Bu hərəkət ona yaman
yer elədi, –
Bu nankoru tərs-tərs süzüb,
Xoruz yandı.

**2004**

## YUXU

– Gözümdən tökülür yuxum.
– Hara tökülür, qoy yığım…

**2003**

## AC TOYUĞUN YUXUSU

Hava olsa da soyuq,
Sevinirdi çil toyuq.

Göylərdən yer üzünə
“Qarğıdalı” yağırdı.
Ac toyuğun yuxusu
Deyəsən çin çıxırdı…

Dostlarını səsləyib,
Həyətə yığmışdı o.
Bilmirdi heç neyləsin,
Özündən çıxmışdı o.

Peşman idi deyəsən
Danışıb dindiyinə.
Heç nə, heç nə keçmirdi
Toyuğun dimdiyinə.

Aldanmışdı yamanca,
Boş olurmuş quş başı.
Göydən qarğıdalı yox,
Qar yağırmış quşbaşı…

**02. 03. 2005**

## QURBAĞA VƏ QARĞA

– Qarğa, qarğa, ay qarğa,
Uçub getmə uzağa!
Hünərin var sən də gir
Gölməçəyə, batlağa.

– Ay qurbağa, qurbağa,
Məni qoyursan lağa?
Onda sən də uçub qon
Yanımdakı budağa!

Gülüşdü sağsağanlar:
– Ha-ha-ha!
– Ha-ha-ha!
Qurbağanın deməyə
Sözü qalmadı daha.
Özünü saldı lığa…

**12.11.2011**

## ZƏNGLİ SAAT

Pərdədə yatan
nəğməni
Mizrab dəysə,
Sim oyadar.
Dostum,
zəngli saat yatıb,
Durğuz onu, –
Yoxsa bizi
kim oyadar?

## NOĞUL

Şaxta baba əyləşib
Yolkamızın dibində.
Qışın soyuğu, qarı
Noğul olub cibində

Yolkanın ucu
İynə-iynədi.
Batdı əlimə,
Yaram göynədi.

Ağladım hönkür-hönkür,
Mən qabağa yeridim.
Şaxta baba bir ovuc
Noğul verdi, kiridim…

***

Gir bulud arxasına,
Nə xəbərdi, ay Günüm?!
Yerdə kölgəlik yoxdu,
Qaralmasın Aygünüm…

**24.03.2013**

## SƏRÇƏCİK

Çox elədi
Sərçə: – Cik!
Adı qaldı
Sərçəcik…

**27.04.2013**

## SƏRÇƏNİN QONAQLIĞI

Sərçəyə bax, sərçəyə,
Gəlib bizim küçəyə!

Bir tikə çörək tapıb,
Cikkildəyir, çığırır.
Elə bil ki, quşları
Qonaqlığa çağırır.

Səs eşidən sərçələr
Uçuşdular, gəldilər.
Bircə qırıq çörəyi
Neçə yerə böldülər.

Sərçəciyin aclığı
Quşların nə vecinə!
Hərə bir dimdik vurdu,
Ona qalmadı heç nə…

**27.11.2011**

## LAYLA ÇALAN SƏRÇƏLƏR

Sərçələrin səsindən
Başım, qulağım gedir.
Səhər açılmamışdan
Hamısı cik-cik edir.

Kişləyirəm, bir zəvzək
Uçub yenə qayıdır.
Layla çalmaq istəyir,
Ancaq məni oyadır…

**07.11. 2011**

## MEYMUN GÖZƏLLİK SALONUNDA

Meymun hər gün bəzənir
Gözəllik salonunda.
Gözəlliyi pozulub
Bu gözəl salonun da…

Öz əksinə baxaraq
Bu qara meymun çaşıb.
Qışqırır ki, ay haray,
Hər tərəf meymunlaşıb…

**2013**

## NƏYƏ GÖRƏ

– Görəsən indiyəcən
İncidib balıq kimi?
Nəyə görə deyirlər
Lal olun balıq kimi?!

– Bu söz havayı deyil,
Bir düşün yaxşı-yaxşı.
Adam az danışanda
Ağrımaz onun başı…

– Susmağa məcbur edən
Nədir görən balığı?
– Danışanda ağzına
Duzlu su dolar axı!

**15.10.2011**

## OD QİYMƏTİNƏ,
## SU QİYMƏTİNƏ

– Göyü satırıq
Su qiymətinə,
Suyu alırıq
Od qiymətinə…
– Başa düşmədim,
Ay Qiymət nənə,
Su qiyməti nə?
Od qiyməti nə?
– Bilmirsən məgər,
Bahadır bala? –
Su qiyməti çox
ucuz deməkdir,
Od qiyməti çox
bahadır, bala!

**02.05.2013**

## ULDUZDAN
## BAXANDA

Şəfəq saçan işıqlar
Yerdə, göydə görünər.
Ulduzdan baxsan əgər
Yer də göydə görünər…

Ay babalar, siz mənə
Bir cavab verin, – dedi.
Ulduzlar niyə göydə
Yer elə yerindədi?!

**24.09.2011**

## İLAN VƏ KƏPƏNƏK

İlan dedi: – Kəpənək,
Pis baxma buyruğuma.
Uç mənim əvəzimdən
Salam de quyruğuma…

**30.06.2013**

## QUZU VƏ BUZOV

– Buzov, ay Buzov!
– Nədir, ay Quzu?
– Xəstələnərsən,
Yalama buzu!

– Belə buz olar,
Quzu, ay Quzu? –
Seçə bilmirsən
Duz ilə buzu?!

Sən də mənim tək
Yalasan duzu,
Başında bitər
Quzu buynuzu…

***

Eşidib Arzu,
Gülür: – Ay quzu.
Yalasan duzu,
Bitər buynuzun…

**2008**

## CEYRAN VƏ CÜYÜR

– Ceyran nədir,
Cüyür nə? –
Soruşdum Bənövşədən.
– Ceyran düzdə yaşayır,
Cüyür isə meşədə…

**2008**

## CEYRAN

Qoruqda rahat gəzir,
Ceyrana bax, ceyrana.
Duruşuna heyranam,
Baxışına heyranam.

Onu kim tuta bilər? –
Dağlarda yelə dönər.
Ona kim çata bilər? –
Dərədə selə dönər.

Baxanda gözlər gülür,
Gör necə qəşəngdi o.
Çöllərə bəzəkdi o,
Düzlərə bəzəkdi o…

**16.01.2008**

## QUZUM

Quzum, ay quzum,
Mənim yalqızım!
Həyətdən çıxıb,
Getmə uzağa.
Tuş gələrsən ha,
Sən yalquzağa!

**2008**

## YUVA

Özüm də çaşıb qalmışam,
Soyuyan kimi havalar,
Sahibləri uçub gedir,
Boş qalır bütün yuvalar.

Soyuqdan qorunmaq üçün
Canlıya yurd-yuva gərək.
Bəs qışda yuvalar niyə
Boş qalır, söyləyin görək?!

Budaqda gecələməyə
Ehtiyac yoxdu heç indi.
Yuva yaşamaq üçün yox,
Bala çıxarmaq üçündü…

**01.08.2007**

## YAXŞI İŞLƏR

Səni tərk eləməsin
Qurub-tikmək həvəsi.
Zərrəcə yaxşılığın
Əvəzi var, əvəzi…

Zərrəcə pislik etsən,
Əzabını dadarsan.
Əməlin təmiz olsa,
Muradına çatarsan.

Ürəyinin başında
Saf duyğuları qoru!
Qəlbini gülşən edər
Zərrəcə iman nuru.

Necə sınağa çəkir
Ulu Tanrı gör bizi? –
Yaxşı işlər – Cənnətə
Gedən yolun körpüsü…

**05.10.2008**

## İKİ ŞƏHƏR

Metroya girən zaman
Eşitdim ki, Xatından:
– Baba, iki şəhər var –
Biri yerin üstündə,
Biri yerin altında…

**13.02.2008**

## AĞ ŞƏHƏR

Qış ona bəzək vurub,
Nə gözəldi bax şəhər?!
Qar yağıb,Qara şəhər
Dönüb olub
Ağ şəhər…

**13.02.2008**

# YARADAN ƏLLƏR

Kərpic qaldırar,
Divar hörər əl.
Ağac sulayar,
Meyvə dərər əl.

Qaya partladıb,
Yollar düzəldər.
Dənizdə polad
Qollar düzəldər.

Çaylar önündə
Bəndlər yaradar.
Şəhərlər salar,
Kəndlər yaradar.

Qumsal səhrada
Meşə salar o,
Neçə zavodu
İşə salar o.

Gah həyat verər
Yüz cür maşına,
Gah sığal çəkər
Körpə başına.

Gülüstan olsun
Səhralar, çöllər!
Qoy yorulmasın
Yaradan əllər…

# SARA, FATEH, FATİMƏ

## BABALIQ ERASI

Qəlbimdə nə qədər
Dilək var, arzu var.
Çox şükür, İlahi,
Çin olur arzular.

Dünyaya göz açıb
Təptəzə bir çiçək.
Qanadım yox uçam,
Olmuşam sevincək.

Nəğməyə çevrilib,
Bir həzin qığıltı.
Bu dünya elə bil
Bir şirin nağıldı…

Nəfəsi qəlbimdə
Təzə hiss oyadıb.
İçimdə yepyeni
Arzular boy atıb.

Köksümdə çırpınan
Ürəyim yuxalıb.
Elə bil dünyanın
İşığı çoxalıb…

Sevdalı köksümdə
Ulduzlar sayrışır.
Təzə bəxt ulduzu
Göylərə yaraşır!

Qış fəsli içimdə
Yaz ətri duyuldu.
Nəvəli ömrümün
Təməli qoyuldu.

Deyəsən göz tutur
Könlümün yarası.
Başlanır ömrümün
Babalıq erası…

**01.02.2006**

## BABALARIN OYUNCAĞI

Saçların bəmbəyaz qarı
Nur saçan işıq kimidi.
Ürəklərinə dəyməyin,
Qocalar uşaq kimidi.

İnsan yaşa dolan kimi
Onu üzür nəvə dərdi.
Qocaların oyuncağı
Şirin-şəkər nəvələrdi.

Ay övladlar, siz onların
İstəyini alqışlayın.
Babalara, nənələrə
Çoxlu nəvə bağışlayın!

**07.02.2006**

## NƏVƏM SARA

Uzaq-uzaq üfüqlərdən
Buludları yara-yara,
Ömrümüzə, günümüzə
Xoş gəlmisən, nəvəm Sara!

Elə bil ki, ürəyimi
Sevinclərə bələmisən.
Çevrilmişəm bəxtəvərə,
Məni baba eləmisən.
Təbrik üçün qohum-qardaş
Dayanıblar sıra-sıra,
Sara, Sara!

Onlara təzə dost gəlib,
Sevinir bütün uşaqlar.
Nəfəsində, qığıltında
Elə bil nur var, işıq var.
Gəlişinlə əriyibdir
İçimdə qırov, sırsıra,
Sara, Sara!

Dodaqların gül ləçəyi,
Əllərin bapbalacadı.
Ağlayanda tufan qopur,
Səsin səsimdən ucadı.
Sən ki varsan, ürəyimi
Qəm buludu çətin sara,
Sara, Sara!

**09.02.2006**

## NƏVƏMƏ QUZU KƏSƏRƏM

Nəvəmə quzu kəsərəm,
Körpə quzu tək mələyir.
Öz səsiylə evimizə
Gecə-gündüz nur ələyir.

Nəvəmə quzu kəsərəm,
Baxmır heç kəsin sözünə.
O gələndən evdə hamı
Həsrətdi yuxu üzünə.

Nəvəmə quzu kəsərəm,
Evin sükutunu pozub.
Anasının, atasının
Kirpiklərindən qor asıb.

Qışqırıb nərə çəkəndə
Bənzəyir Sara xatuna.
Atası qaçıb başını
Soxur yastığın altına.

Nəvəmə yüyrük asaram
Qızılgülün butasından.
Çıxır mənim hayıfımı
Anasından, atasından…

**18.02.2006**

## SARA BALA

Sara balam,
Sara balam!
Dur gəl mənə
Sarı, balam!
Gülüşünlə ürəyimin
Yarasını sarı, bala.
Sara bala, Sara bala!
Dur boynuma sarıl, bala!
Gündən-günə şirinləşib,
Çevrilmisən sarı bala.

**03.06.2006**

## SARA YATIR

Uzanıb çarpayısında
Mışıl-mışıl Sara yatır.
Oyanıb məni görəndə
Sevincindən əl-qol atır.

Az qalır ki, qanad açıb,
Uça mənim qucağıma.
Heç kəs su ələyə bilməz
Mənim halal ocağıma.

**03.06.2006**

## KÖRPƏ GÜNƏŞ

Elə bil ki, evimizə
Şəfəq saçan günəş gəlib.
Həsrət buludu sayrışan
Üzümüzə gülüş gəlib.

Dönüb işıq adasına
Nəvəm yatan kiçik beşik.
O güləndə elə bil ki,
Nura bələnir ev-eşik.

Nənəsi gizlədə bilmir
Sevincini, heyrətini –
Təbəssümü əridibdir
Qəlbimizin zülmətini.

**03.06.2006**

## ŞÜKÜR SƏNƏ

Şükür sənə, ulu Tanrı,
Məni baba eləmisən.
Şükür sənə, ulu Tanrı,
Ömrümə nur ələmisən.

O gələndən içimdəki
Əzablara qan uddurub.
Bütün özgə sevgiləri
Sara balam unutdurub.

**03.06.2006**

## SARA GƏLİB

Sara gəlib, Sara gəlib,
İlk dəfə Qusara gəlib.

Kefi kökdü, gülür üzü,
Babasını gəzir gözü.

Ona bir söz deyir hərə,
Uzaq yolu gəlib, görə

Elvinanı, Sevili o,
Əl-qol atır, sevinir o.

Əl uzadıb yarpaq tutur,
Meşə havasını udur.

Öpür onu sübhün mehi,
Kirpiyində səhər şehi.

Sara gəlib, Sara gəlib,
Bir gör hardan hara gəlib?

İstilərdən zara gəlib,
Tez durub Qusara gəlib.

Uşaqlar hay-haray salır:
Sara gəlib, Sara gəlib!…

**21.08.2006**

## SÖYLƏ NƏ VAXT

Söylə nə vaxt məktəbə
Gedəcəyəm, anacan?
Bilmirəm gələcəkdir
Gözlədiyim an haçan?

**2006**

## HEYVANLARIN SAHİBİ

Evimzdə nə qədər
Tısbağa var, ilan var.
Zürafəyə, meymuna
Baxıb heyran olan var.

Bu maral, o da cüyür,
Bu kərgədan, o, fildir.
Buralara dadanıb
Bu heyvanlar bir ildir.

Divanımız üstündə
Dönüb hər heyvan xana.
Ancaq bizim evimiz
Deyil ki, heyvanxana.

Həm pişiyim, həm itim,
Həm quzum, həm dəvəmdi –
Bu qədər heyanların
Sahibkarı nəvəmdi…

**2006**

## BİR CÜT DÜYÜ

Hələ aş yeyə bilmir,
Bapbalaca boyu var.
Ancaq onun ağzında
Bir cüt qoşa düyü var.

Yox-yox, bu düyü deyil, –
Dişi çıxıb Saranın.
Oyuncağı gəmirir,
İşı çıxıb Saranın.

**2006**

## SARANIN DİŞLƏRİ

"Çapan-çapan" deyəndə
Sara əl çalır, gülür.
Hamımızın üzünə
Elə bil nur tökülür.

Təbəssümü, gülüşü
Gəl-gəl deyir, çağırır.
Ağzındakı dişləri
Sədəf kimi ağarır…

**2006**

## SARANIN İLK TƏZƏ İLİ

Gözəl tablo çəkən qışın
Öz fırçası, qələmi var.
Bu il gələn təzə ilin
Tamam başqa aləmi var.

Bilməsə də heç köhnənin
Fərqi nədir təzə ilə,
Babasının qucağında
Nəvəm keçdi təzə ilə.

Sənin gözlərin yol çəkir,
Boylanırsan hara, bala?
Ömrünün ilk təzə ili
Mübarəkdi, Sara bala!

**01.01.2007**

## BABASININ BALASI

Sara bala kiçikdi,
Danışa bilmir hələ.
Bəs bu balaca şeytan
Nə vaxt gələcək dilə?

Nə ata deyə bilir,
Nə ana deyə bilir
Nə nənə deyə bilir.
Təkcə ağlayır, gülür.

Mən də çaşıb qalmışam,
Bunun sehri nədədi?
Onun söylədiyi söz
Bir baba, bir dədədi…

Nəvəmə quzu kəsim,
Bir heyrət qalasıdı.
Hamı yanıb tökülsün,
O baba balasıdı…

**20.01.2007**

## SARANIN ÇƏKMƏLƏRİ

Saranın çəkməsinin
Üstündə göz şəkli var.
O, ayaq atan zaman
Gözlər qabağa baxar.

Zığlı, palçıqlı yollar
Çəkmələri bezdirər.
Onlar baxmasa əgər
Qızı necə gəzdirər?!

**21.01.2007**

## SARANIN KİTABLARI

Çoxlu kitablarım var,
Biri-birindən qəşəng.
Şəkilləri al-əlvan,
Şəkilləri rəngbərəng.

Onu vərəqləyəndə
Üzümə nur saçılır.
Biri-birindən gözəl
Mənzərələr açılır.

Oy, o kimdir çəkilib
Bir ağac kölgəsinə?
Elə bil ki, düşürsən
Nağıllar ölkəsinə.

Mən hələ balacayam,
Sözləri seçmir gözüm.
Böyüyəndə onları
Oxuyacam mən özüm.

Düyməsini basıram,
Kitabımın səsi var.
Buratino oxuyr, –
Heç səndə beləsi var?!

**28.01.2007**

## SARA DARIXIB

Anası Londona uçub,
Sara xəyallara dalıb.
Bu qız yamanca darıxıb,
Gözləri qapıda qalıb.

Nənəsi pərvanə kimi
Dönsə də onun başına,
Hər şeydən çox atasıyla
Gəzmək gəlsə də xoşuna,

Saranın eyni açılmır,
Anasını gəzir gözü.
Onu ovundura bilmir
Babanın söhbəti, sözü.

Nazıyla oynasaq belə
O yenə qəmli görünür.
Heç kəs, heç kəs verə bilməz
Bircə ananın yerini.

Sara bala, Sara bala,
Yenə gözlərin güləcək.
Darıxma, üç-dörd günəcən
Anan qayıdıb gələcək…

**01.05.2007**

## BABANIN İŞ OTAĞINDA

Heç vaxt Fəzilə nənənin
Giley düşmürdü dilindən.
Evdə tərpənmək olmurdu
Kağız-kuğuzun əlindən.

İndi ayrı bir büsat var
Babanın iş otağında.
Nənə özündən razıdı,
Təbəssüm var dodağında.

Evdə bərk hazırlıq gedir,
Dolma bişib, yağa düşüb.
Eşidib nəvəsi gəlir,
Baba əl-ayağa düşüb.

Səliqə-səhman yaradır,
Hey vurnuxur ora-bura.
Yığır kağız-dəftərini,
Qorxur ki, nəvəsi cıra.

Daha burda kağız-kuğuz
Səpilməyib dörd tərəfə.
Adam gözünə inanmır,
Kitablar qoyulub rəfə.

Geyişir Saranın əli,
Geyişir Saranın dişi.
Bir günə görüb nənənin
İllər boyu aciz qalıb,
Görə bilmədiyi işi…

**19.05.2007**

## MƏNİM KRESLOM

Üstündə əyləşən kimi
Heç nə, heç nə düşməz yada.
Mənim kreslomdan rahat
Kreslo yoxdu dünyada.

Yupyumşaq, ipisti qucaq
Heç zaman açılmaz yada.
Bu kreslonun üstündə
Otura bilməz hər adam.

Saçlarıma sığal çəkir,
Çox mehriban bir adamdı.
Qucağında əyləşirəm, –
Mənim kreslom babamdı…

**29.05.2007**

## BABAM ŞİPŞİRİN OLUB

Babam bilir ki, konfet
Gəlir mənim xoşuma.
Şokoladlı əlimi
Sürtmüşəm üst-başına.

Elə bil ki, anamın
Üstünü alıb duman.
Üzümə tərs-tərs baxır,
Acığı tutub yaman.

Məni gözaltı süzüb,
Gülür bizim usta da.
Babam şipşirin olub,
Anam dönüb istota…

**2007**

## SARA NABRANDA DİNCƏLİR

Saranın çox xoşu gəlir
Qızılgülün butasından.
Şəhərdə bircə addım da
Ayrı gəzmir atasından.

İndisə Nabrana gəlib,
Gəzir güllərin içində.
Kəpənəyin qanadları
Qalıb əlləri içində.

Sara bala ləzzət alır
Təzə güllərin iyindən.
Ora qaçır, bura qaçır,
Qulaq batır səs-küyündən.

Babası bilmir neyləsin,
Baş-beyni gedib səhərdən…
Sara Nabranda dincəlir,
Atası isə şəhərdə…

**25.07.2007**
**Nabran**

## ŞILTAQ QIZ

Bu kiçik qız anasının
İşini yaman artırır.
Kuklanı qoyur "qarşok"a,
Özü tumanın batırır…

**02.08.2007**

## FATEH ÜÇÜN

Həsrət odunda qovrulan
Qəlbimə sərin meh gəlib.
Min şükür sənə, İlahi,
Evimizə Fateh gəlib…

**06.06.2007**

## TANRININ GÖNDƏRDİYİ SƏS

Tanrının göndərdiyi səs
Qəlbimi nura bələyir.
Evimizdə səhərəcən
Körpə bir quzu mələyir.

Bu körpə mənim evimə
Təzə bir nəfəs gətirib.
Onun səsi, qığıltısı
Qəlbimə həvəs gətirib.

Keçib illərin üstündən
Uzaq bir yol qət eləyib.
Fateh bala gəlişiylə
Qəlbimizi fəth eləyib…

**15.07.2007**

*******

Gözləri işım-işım
işıldayır,
Əlləri buz kimi
soyuqdu.
Fateh hələ balacadı,
Qəlbimi fəth
eləməyindən
xəbəri yoxdu.

**15.08.2007**

## NƏVƏLƏR

Nəvələr çıxıb gediblər,
Hərəsindən bir iz qalıb.
Darıxırıq onlar üçün,
Üstümüzü bulud alıb.

Dünyanın işi belədi,
Üzə vurma gəl inciyi.
Fatehin ördəyi qalıb,
Saranınsa gəlinciyi…

**23.08.2007**

## SƏLİQƏ – SƏHMAN

Evimiz olub
Qaraçı yurdu.
Sanki içindən
Keçib bir ordu.

Səpilib yerə
Kağız, oyuncaq…
Ağız deyəni
Eşitmir qulaq.

Kitab rəfində
Pozulub sıra.
Meydan oxuyur
Hamıya Sara.

Evi töksə də,
Bu qız, ay aman,
Sanki yaradıb
Səliqə-səhman.

Daha onundu
Evdə ixtiyar.
Baba bəxtiyar,
Nənə bəxtiyar…

**30.09.2007**

## SARA

Sara yamanca dəcəldi,
Evi töküb dağıdır.
Babasının, nənəsinin
Ərköyün uşağıdır…
İt görəndə
"Hamm" eləyir,
Pişik görəndə
"Miyo"!
Ancaq hələ öz dilində
Danışa bilməyir o…

**20.01.2008**

## SARA, SARA, SARIŞQA

Sara, Sara, Sarışqa!
Cibi dolu qarışqa.
Bu qız yaman şirindi,
O neyləyir gör indi!
Toyuq tək eşələnir
Bir ağacın dibində.
Demə çoxlu tut varmış
Bu dəcəlin cibində.
Şirədi dil-dodağı,
Şirədi əyni-başı.
Bu dəcəlin üstünə
Qarışqalar darışıb…
Sara, qaç yu üzünü,
Gör nə qədər arı var! –
Üstünə cumacaqlar
Yoxsa acgöz arılar…

**31.01.2010**

## GÜLƏNDƏ, AĞLAYANDA

Fateh hələ balacadı,
Tanıya bilmir özünü.
Güləndə üzümüz gülür,
Ağlasa, görmə üzünü…

**30.09.2007**

## FATEHİN İLK QIŞI

Qar yağır narın-narın,
Fatehin gülür üzü.
Süd dişinin ağlığı
Tutub dünyanı, düzü.

Qarlı yollara baxmaq
Gəlir onun xoşuna.
Xoş gəlmisən, Fatehim,
Ömrünün ilk qışına…

**04.01.2008**

## FATEHİN BİR CÜT DİŞİ

Fateh nura qərq edib
Babasının evini.
Nənəsini görəndə
Əl-qol atır, sevinir.

O hələ balacadı,
Ağarır bir cüt dişi.
İnşallah böyüyəcək,
Olacaq böyük kişi…

**2008**

## EVİMDƏ BİR PİŞİK VAR

Evimdə bir pişik var,
Cırmaqlayır üzümü.
Ancaq ki, çox bəxtəvər
Sanıram mən özümü.

Üzüm gülür o pişik
Dayananda önümdə.
O pişiksiz olmasın
Mənim bircə günüm də!

Onu sığallayıram,
Başına gül səpirəm.
Üzümü cırmaqlayan
"Caynağından" öpürəm…

O həm mənim oğlağım,
Həm atım, həm dəvəmdi…
Üzümü cırmaqlayan
Pişik mənim nəvəmdi…

**2008**

## FATEH BAKIYA BAXIR

Fatehgilin evi var
Göyün yeddi qatında.
Bütün şəhər qalıbdır
Ayağının altında.

Bu Xəzər dənizidir,
Osa Böyükşor gölü.
Gəmiləri görəndə
Adamın gözü gülür.

Nargin adasına bax,
Xəzərimi bəzəyir.
Dənizdə lövbər salan
Bir gəmiyə bənzəyir.

Küçələrdə maşınlar
Qarışqa tək qaynayır.
Adam doğma Bakını
Seyr etməkdən doymayır…

Sahilyanı parka bax,
Hər yan güldür, çiçəkdir.
Bakı necə gözəldir,
Bakı necə qəşəngdir!

Xiyabanlar yamyaşıl,
Binalar uca-uca.
Fateh gülür, sevinir,
Qanadı yoxdur uça…

**04.02.2008**

## FATEH VƏ SARA

Yamanca çox istəyir
Fateh Sara bacını.
Ancaq hərdən əl atıb,
Yolur onun saçını.

Yaxa çəkmək çətindir
Bu dəcəlin əlindən.
Amma Sara incimir,
Öpür onun telindən…

**04.02.2008**

## KÖNÜLLƏR FATEHİ

– Sən babanın nəyisən?
– Ürəyi.
– Bəs baba sənin nəyindi?
– Canım…

**Fatehlə söhbətdən**

Təzə dil açdığın gün
Mənim ən gözəl anım.
Körpə damarlarında
Çağlayır halal qanım.

Sən babanın ürəyi,
Baba sənin canındı.
Min şükür Yaradana, -
Çox rahatdı can indi…

Nə yaxşı ki, sən varsan,
Canım-gözüm, Fatehim!
Arzum budur olasan
Sən könüllər fatehi.

Böyü, şərəfim, şanım,
Mənim ürəyim-canım!
Səninlə fəxr eləsin
Doğma Azərbaycanım…

**27.09.2009**

## FATİMƏ

Qəlbimin sevinc səsi
Ucalsın aya gərək.
Min şükür yaradana,
Verdiyi paya görə!

Nə yaxşı ki, qovuşdum
Arzuma, niyyətimə.
Evimizə xoş gəlib
Gözəl nəvəm Faimə.

İllərin o tayından
Keçib dərə, düz gəlib.
Bizim görüşümüzə
Ulu nənəmiz gəlib…

**05.05.2010**

## BU YUVA

– Bu quşun adı nədi?
– Tanımırsan, qumrudu.
Yumurtasına bax bir,
Bəmbəyazdı, yumrudu…

Onu necə yemləyim? –
Məni fikir götürüb.
Bu yuva evimizə
Təzə hava gətirib…

**2010**

## QUMRU, ANTENA VƏ TELEVİZOR

Antenanın üstündə
Bir qumru yuva qurub.
Ona diqqətlə baxır
Sara kənarda durub.

Söyləyir ki, ay baba,
Bu işdən çıxmır başım. –
Bəs niyə televizor
Göstərmir bizim quşu?

**02.07.2010**

## FATİMƏNİN İLK QIŞI

Fatimə ilk dəfədi
Çovğun görür, qar görür.
Fatimə ilk dəfədi
Ağappaq dağlar görür.

Yumşaq qarın üstündə
O yan, bu yana qaçır.
Bəyaz, inci dişləri
Güləndə şəfəq saçır.

O, üstünü-başını
Dümağ qara batırır.
Qarın bəyazlığını
Gülüşüylə artırır…

**2010**

## BABA, İNCİMƏ

Gözlərində olsam belə
Mirvari mən, inci mən,
Mən nənənin balasıyam,
Baba, məndən incimə!

Bir gün sənin də boynuna
Qollarımı salaram.
Gecə yataq, səhər durub
Sənin balan olaram.

**2011**

## XAL

Xala, bax!
Xala, bax!
Üzümdəki
Xala bax! –

O qapqara olsa da,
Yanağımı bəzəyir.
Mənim xalım babanın
Xallarına bənzəyir.

Zarafatla deyir o:
– Qaytar mənim xalımı!
Özünün xalı çoxdu,
Yenə məndən xal umur.

Xalam gülür: – Hər xalın
Bir inci əvəzidi.
Sənin xalın babanın
Xalının nəvəsidi.

Qəribə söz deyirlər
Böyüyəndə adamlar.
Heç xaldan baba olar,
Heç xaldan nəvə olar?!

**13.11.2011**

## DƏRDLİ OYUNCAQLAR

Oyuncaqlar üzürlər
Elə bil qəm gölündə.
Hamısı dad eləyir
Bu uşağın əlindən.

Filin xortumu yoxdu,
Ağ dovşanın qulağı.
Tülkü quyruqsuz qalıb,
Atın yoxdu ayağı.

Biri salamat deyil,
Hamısı şil-küt olub.
Gəlinciyin donu yox,
Utanır, lümlüt olub.

Qolu-qıçı qırılmış
Nə qədər oyuncaq var.
Dərdlərinə bir çarə
Tapmırlar oyuncaqlar.

Dilləri söz tutsaydı,
Danışar, dinərdilər.
İmkanları olsaydı,
Dükana dönərdilər…

**13.11.2011**

# BU İLKİ ŞAXTA BABA

Bu ilki şaxta baba
Tamam ayrı qocadı! –
Kürəyi çox enlidi,
Boyu bir az ucadı…

Saqqalını tərpədir,
Forsuna bax, forsuna.
Paltosu lap bənzəyir
Babamın paltosuna.

Nəyisə xatırladır
Onun şirin gülüşü.
Adama doğma gəlir
Danışığı, yerişi.

Alıb basır bağrına
Bizi öz balası tək.
Sara, Fateh, Fatimə –
Hamı olub sevincək…

Kim nə deyir qoy desin,
Şaxta baba saxtadı.
Onun kim olduğunu
Öyrənməyin vaxtıdı…

Əl atdım saqqalına,
Evi götürdü gülüş.
Sən demə şaxta baba
Öz doğma babam imiş…

**2012**

## OYUNCAQ

Babam alıb oyuncaq,
Deyir: – Oyna doyunca!

Yepyekə bir şirdi bu,
Möcüzədi, sirdi bu…

Başımı aldatmayın,
Daha deyiləm çağa.

Oyuncağın əlində
Dönmərəm oyuncağa…

**27.04.2013**

## SARA GƏLİR

Sara gəlir! – Hamının
Qorxu düşüb canına.
Dilsiz oyuncaqların
Baxın həyəcanına.

Konfetlər, şokoladlar
Stol üstündən qaçıb.
Qorxusundan ağaran
Kağızlar hara uçub?!

Bu xəbər qələmlərin
Qəti gəlmir xoşuna.
Hamısı qaçıb çıxıb
Şifonerin başına…

**11.12.2012**

## KƏPƏNƏKLİ BANTLARIM

Necə çıxa bilərəm
Mən anamın sözündən?
Deyir: – Getmə uzağa,
Məni qoymur gözündən.

Qəşəngəm, ətirliyəm,
Bir qızam çiçək kimi.
Bantlarım saçlarıma
Qonub kəpənək kimi.

Mən olmasam yanında,
Anam haray qoparar.
Qorxur ki, kəpənəklər
Uçub məni apara!

**04.07.2013**

## FATEH MƏKTƏBƏ GEDİR

Fateh məktəbə gedir
Dünyanın o başında.
Doğma Azərbaycanın
Havası var başında…

Nənəsi yox yanında,
Babası yox yanında.
Öz vətəni, öz eli,
Obası yox yanında…

Uzaq Amerikada
Doğma yurdunu anır.
Gözlərinin önündə
Azərbaycan canlanır…

Xəyallara dalıbdır,
Uzaqlara baxır o.
Bilirsiz vətən üçün
Nə qədər darıxır o?!

Qərib yerdə olsa da,
Köksündə günəş yanır.
Fatehin arxasınca
Azərbaycan boylanır…

Yurd xiffəti çevrilib
Gözlərində şeh oldu.
Adı Fatehdi, bəlkə
Özü də Fateh oldu…

**Sentyabr, 2013**

# YURDUMUN ÖVLADLARI

## RASİM ƏMİ TAR ÇALIR

Rasim əmi "Rast" çalır,
Rahat çalır, rast çalır.
Gözlərinin önündə
Ağa çayı çağlayır.
Pərdələrdə uyuyan
Neçə nisgil ağlayır.
Bərgüşad coşub-daşır,
Həkəri haray çəkir.
Qəlbinə ayrılığın
Dumanı hər saniyə
Hər saaat, hər an çökür…
Gör necə sığınıbdır
Mizrab onun ovcuna!
O çaldıqca, "Çahargah"
Dönür yol ayrıcına.
Hara getsən, bu yollar
Doğma yurdda birləşir.
Gözü yolda qalan kənd
Ürəyimdə yerləşir.
O çalanda "Şüştər"i,
O çalanda "Qatar"ı,
Kəndimizə yol alır
Həsrətimin qatarı.
Elə bil yer altından
Boylanır Bəyaz qarı.

Saçlarına əlenib
Həsrətin bəyaz qarı.
Toxunduqca əl simə,
Simlər düşür tilsimə.
Rasim əmi tar çalır,
Qəlbində qübar çalır…

**13. 02. 2005**

## MƏN BÖYÜYƏNDƏ

Mən böyüyəndə oğlumla
Ən yaxın bir dost olacam.
Hər gün nə qədər istəsə,
Ona dondurma alacam.

Danlağımla, dansığımla
Zəhləsini tökməyəcəm.
Evi söküb dağıtsa da,
Qulağını çəkməyəcəm.

Gibindəki böcəkləri
Pəncərədən atmayacam.
Dərsə gecikirsən deyə,
Yuxudan oyatmayacam.

Deməyəcəm ki, sıyıq ye,
Çörəyinə bal çəkəcəm.
Oğlumun gündəliyinə
Gözyumulu qol çəkəcəm…

**24. 04. 2004**

## SEVGİLƏR

Dağı sev Gülər,
Daşı sev, Gülər.
Göylərdə uçan
Quşu sev, Gülər.
Payızı, yazı,
Qışı sev, Gülər.
Ömrü mənalı
Edir sevgilər…

**2004**

## QIRMIZI PAPAQ

Başımda qırmızı papaq,
Vedrəmdə qırmızı qapaq.
Gedirəm çiyələk dərəm,
Gedirəm göbələk dərəm…
Ağzı qara boz canavar,
Qapımızda alabaş var!
Nənəmi yeməyə getmə,
Özünü peşiman etmə.
İtidi köpəyin dişi,
Tələsmə, yaxşıca düşün.
Çıx get işinin dalınca,
Öyünməyin deyil yeri.
Qırmızı – dayan deməkdi,
Papağıma bax, dön geri…

**30.03.2010**

## YEKƏ ŞOKOLAD

Dənizsiz bircə günü
Olmayıbdır babamın.
Bədəninə baxanda
Xoşu gəlir adamın.

Günəş hər səhər, axşam
Üz-gözünü bəzəyir.
Babam yekə, yepyekə
Şokolada bənzəyir.

Ona baxıb gülərək
Deyir balaca Vüsal:
Ya gətir səni yeyək,
Ya bizə şokolad al!

**10. 08. 2001**

## QARPIZ TUMLARI

Qara-qara tumlara
Baxaraq Elçin dedi:
– Qarpızın düymələri
Qarnının içindədi…

**2003**

## ELVİNANIN SÖZLƏRİ

Elvinaya baxın bir,
Nə gülməli söz deyir:
“Bəsdi Sevilə yazdın,
Mənə şeir yaz!” – deyir.

Nə olsun balacayam,
Çox yeyib, kökələcəm.
Üç-dörd ilin içində
Boy atıb yekələcəm.

Mən Kuzunu, Ləzəni,
Cənnətə döndərəcəm.
Dağlardan çiçək dərib,
Babaya göndərəcəm…

**26. 08. 2004**

* * *

– Niyə saxlamamısan
Sən bacının payını?
Görmürsən kəsmək olmur
Onun hay-harayını?!
– Şokolad dişdən keçib,
Daha iş işdən keçib…

**20. 07. 2002**
**Qayikənd**

## QARPIZ

Axşam qarpız kəsdilər,
Baxdım, ağzım sulandı.
Elə şirindi, dadı
Damağımda qalandı.

Soyuducudan çıxıb,
Buz kimidi, sərindi.
Dondurma tək ləzzətli,
Dondurma tək şirindi.

Qəşəng-qəşəng dilimlər
Çox gəlsə də xoşuma,
Çox yemirəm, qorxuram
Oyun aça başıma…

**13. 08. 2001**
**Qusar**

## GÜLƏR

Elə ki, dedin
Kəndə gedirəm,
Gülər ağlayır:
– Mən də gedirəm.
– Bizi incitmə,
Gülər, ay Gülər.
Sözə baxmasan
Sənə el gülər…

**2004**

## MEYVƏLƏRİN ZƏNCİSİ

Meşədə bir tala gördüm,
Kollardı baxırsan hara.
Böyürtkənlər gilə-gilə,
Böyürtkənlər qara-qara.

Yeyib dadlı meyvələrdən
Belə deyən Nərgiz idi:
– Baba, elə bil böyürtkən
Meyvələrin zəncisidi…

**08. 08. 2004**
**Qusar**

## KONFET

Mən qapını bağlamışam,
Kağız-qələm götürmüşəm.
Sevil deyir: – Aç qapını,
Sənə konfet gətirmişəm.

Soruşuram: – Hanı konfet?
Gülərək baxır üzümə.
Sən nə dilbilməz babasan? –
Konfet elə mən özüməm…

**2004**

## AZƏRIN

– Bu qız kimdi?
– Azərindi. –
Gülə-gülə
Azər dindi:
– Babasının –
Azərindi.
Belə gözəl
Nəvəsi var,
Bəxtəvərdi
Azər indi…

**2004**

# GÜLLÜ

Bu kiçik qızın
Adı Güllüdü,
Əli çiçəkli,
Donu güllüdü…

Boynuma salıb
Toppuş qolunu.
Çox gözləmişik
Onun yolunu.

Həyatımızın
Günü, ayıdı,
Göylərdən gələn
Tanrı payıdı.

Nənə adını
Daşıyır bu qız.
Güllər içində
Yaşayır bu qız.

Bütün qızların
Göyçəyi Güllü.
Həyatımızın
Çiçəyi Güllü.

Onun gəlişi
Bir dastan olub.
Ömrümüz dönüb,
Gülüstan olub…

**07. 10. 2003**

# KƏNANIM

İki nənən var sənin,
İki baban var sənin.
Nəvə sevinci dadan
Çətin unudar səni.
Böyüyəndə unutma
Səni hər vaxt ananı, –
Kənanım.

Anan üçün hər sözün
Sanki şəkərdi, qənddi.
Səadətin övladı
Olmaq da səadətdi.
Həyatına bəzəkdi,
Sən incitmə ananı, –
Kənanım.

Sənin üçün həyatda
Təzəcə başlanır yol.
Atan tək rəşadətli,
Baban tək qüdrətli ol!
Böyüyüb anlayarsan
Sözümdəki mənanı, –
Kənanım.

Vətən oğul istəyir,
Tez boy at, göyə ucal.
Qubadan Qubadlıya
Məhəbbət körpüsü sal.
Vətən heç vaxt unutmaz
El dərdinə yananı, –
Kənanım!

**23. 07. 2004**

## SƏBİNƏ

Ay Səbinə, ananın
Gözündən sevgi daşır.
Qəlbi yaman yuxalıb, –
Mum edər sevgi daşı.

Sən onun gözlərinin
Ağısan, qarasısan.
Hələ yetişməmisən,
Bir üzüm qorasısan.

İndən belə ananı
Sən yatmağa qoyarsan.
Bu sözün mənasını
Böyüyəndə duyarsan…

**2005**

## GÜLLÜ BABA

Elvinayla Sevil dağa
Çiçək dərməyə getdilər.
Qayıdanda onlar məni
Gül-çiçəyə qərq etdilər.

Gah əlimə gül verdilər,
Gah yaxama gül taxdılar.
Sonra durub məhəbbətlə
Mənə kənardan baxdılar.

Gülə bənzər körpə əllər
Məni qərq etdilər gülə. –
Babamız güllü babadı,
Söylədilər gülə-gülə…

**23.07.2007**
**Qusar**

## SEVİL GÜL DƏRİR

Sevil hər gün bağçadan
Babasına gül dərir.
Yamanca şeytan qızdı,
O, hamını güldürür.

Gözləri bərəlibdir
Nənəsinin heyrətdən:
– Ay Sevil, neyləyirsən
Gül qalmadı həyətdə!

**19. 07. 2001**

## SEVİL

Bu nə işdi görəsən? –
Sevil bizi çağırır.
Üz-gözü qapqaradı,
Təkcə dişi ağarır.

Baba gülməkdən ölür,
Nənə gülməkdən ölür.
Sevil də qoşulubdur
Mənə, gülməkdən ölür.

Bir kimsənin bu qızdan
Haqqı yoxdu inciyə.
Üz-gözü qapqaradı,
Sevil dönüb zənciyə.

Belə olmaz, bir daha
Üzünə çəkmə mazı.
Üz üçün deyil axı
Ay Sevil, çəkmə mazı?!

**24. 04. 2001**

## SEVİL YEKƏ QIZ OLUB

Bizim balaca Sevil
İndi yekə qız olub.
Səhər lalə dərəndə
Əlləri bumbuz olub.

Siz bu qıza baxın bir,
Yanaqları çiçəkdi.
Ancaq Sevilin üzü
Lalələrdən qəşəngdi…

## ŞƏKƏR

Bu şirin-şəkər adı
Kim veribdir pay sənə?
Dodağını büzmüsən,
Nə deyib Günay sənə?

Adını soruşanda
Şəkər yox, qənd deyirsən.
Bu qədər ki, şirinsən,
Bəlkə sən qənd yeyirsən?

Qəşəng bir qız olarsan
Saçlarını darasan.
Ay Şəkər, qənd ağ olur,
Bəs sən niyə qarasan?

**2001**

## AYLA

Bir qəşəng qızdı Ayla,
Böyüyür günlə, ayla.
Babası hey sevinir
Tanrı verdiyi payla.

O güləndə qəlbimin
Qaranlığı əriyir.
O güləndə ömrümü
Bəxtəvərlik bürüyür.

Ana çalsa da layla,
Yuxuya getmir Ayla.
Göylərə baxır Ayla,
Söhbət eləyir ayla…

**2006**

## AYSUNUN SUALI

Ürək həyəcanlanır,
Təbiət gülür üzə.
Düşübdür ayın əksi
Cilvələnən dənizə.

Çatılıbdır qaşları,
Baxın bizim Aysuya. –
Gülümsəyib deyir ki,
Niyə girib ay suya?!

**11.09.2010**

## BABA VƏ NƏVƏLƏRİ

İmamverdi babanın
Beş qəşəng nəvəsi var.
Hamısının oynayıb,
Gülməyə həvəsi var.

Ən böyüyü Nicatdı,
Ən kiçiyi İlayda.
Onlar babalarıyla
Bağa gedirlər yayda.

Fuad rəsmlər çəkir,
Minur şeir söyləyir.
Balaca Əlikamran
Bağçada gül iyləyir.

İmamverdi babanın
Sevinci aşıb-daşır.
İmamverdi babaya
Nəvələr çox yaraşır.

Baba nağıl danışır,
Könül açır sözləri.
Bir babaya dikilib,
Beş nəvənin gözləri…

**2008**

## SAY

Səhər yemək yeyəndə
İşlər əla gedirdi.
Qoymurdu dil-boğaza,
Əsmər dil-dil ötürdü.

Yamanca ciddiləşdi
Novruz babanın üzü.
– Ay Əsmər, nəyə görə
Saya salmırsan bizi?

Nəvə güldü: – Ay baba,
Nə xəbərdi, dayan bir!
“Bir, iki, üç” deyərək
Saydı hamını bir-bir…

**07.11.2011**

## DİLAVƏR

Dilavər onun, bunun
Çənəsini ovurdu.
Hirsləndilər uşaqlar,
Bu vurdu, o vurdu, –
Şişib yepyekə oldu
Dostumuzun ovurdu…

**10.08.2004**

## BİR AYDINLIQ GECƏDƏ

Bu aydınlıq göyləri
Seyr edirəm axşamdan.
Elə bil bal süzülür
Göydən yerə ağ şandan.

Göydə ulduz görməsəm,
Mənimçün ar olardı.
O sayrışan ulduzlar
Elə bil arılardı…

## DƏNİZ ALTINDA DƏNİZ

Hər sahilə gələndə
Sevincim aşıb-daşar.
Kəşfiyyat buruğunda
İşləyir dayım Yaşar.

Qorxmur, tufan olanda
Heç vaxt düşmür o, ruhdan.
Söhbət açır Xəzərdə
Qazdıqları buruqdan.

Deyir ki, möcüzə var
Yerin yeddi qatında.
Neft dənizi gizlənib,
Bu dənizin altında.

**1981**

## ÇİMƏRLİKDƏ

Dedim ki, yorulmusan,
Nəfəsini dər indi.
O yana sarı üzmə,
Ora yaman dərindi.

Elxan sözə baxandı,
Hədələdim, çəkindi.
Orxan isə boğulur,
Tut əlindən, çək indi.

Ağzına şor su dolub,
Unutmaz o, bu dadı.
Belə olar e, dostum,
Hə, necəsən, burda dur…

## SEVİNC

Boş-boşuna axtarmır
Adamı Sevinc özü.
Bəlkə də "sev" sözündən
Yaranıb "sevinc" sözü.

Dostla birgə ağlayıb,
Birgə güləsən gərək.
Sevinə bilmək üçün
Sevə biləsən gərək…

**1994**

## YARITMIRSAN DEYƏRLƏR

Tapşırıblar Sevincə
Bacısına göz ola.
Nigar, balaca Nigar
Yıxılmışdı az qala.

Səsə gəldi Xatirə,
Birdən qıcandı dişi.
Acıqlandı: – Sevinc, sən
Yaratmırsan bir işi!

Anası gülümsədi:
– Qızım, hirslənmə hədər,
Yaratmırsan yox, burda
Yarıtmırsan deyərlər…

**1984**

## KİRŞƏ

– Tez ol, işə girişək,
Düzəldək bir kirşə.
Minib onun üstünə
Dağ aşağı sürüşək.

– Bu dağdan sürüşməyi
Etdim sənə qadağan.
Onun sıldırımından
Əskik deyil qada, qan.

## BƏSDİR YOLLARI ÖLÇDÜYÜN

Bəsdir yolları ölçdüyün,
Veyillənmə, yeri işinə.
Əməlli get, böyük-kiçik
Baxır sənin yerişinə.

İstəmirik lağa qoyaq,
Səni ələ salaq, gülək.
Yapış bir işin qulpundan,
Qol çırmala, bağda gül ək.

İş görməsə kimə gərək
Qüvvətli qol, güclü bilək?
Bina ucalt, yer ək, bağ sal,
İnsan olduğunu bilək.

**1985**

## TİKAN

– Böyürtkən yığan zaman
İlişmişəm tikana.
Gətir iynəni, sapı,
Köynəyimi tik, ana!

– Bir az hövsələni bas,
Bıy, bu nədir, ay Abbas?
Ta bundan köynək olmaz,
Dur gəl gedək dükana…

**1984**

## DOSTUMUZ

Səhər-səhər Gülverdi,
Gülbutaya gül verdi.
Sevindirdi hamını
Dostumuz bu gəlişlə.
Vedrə verib əlinə
Dedik ona: – Gəl işlə!
Çarhovuzun içində
Nə yaxşı ki, su vardı.
Vedrə-vedrə daşıyıb,
Ağacları suvardı…

## PAYTAXT

Harda olub xan taxtı,
Harda olub bəy taxtı,
Ora olub ölkənin
Baş şəhəri, paytaxtı.

**1999**

## MANQAL

– İçində köz sayrışan
Nədir belə?
– Manqaldı.
Baxıb ev sahibinə
Qonaq güldü:
– Mən qaldım…

## DİVAN

Axı nə vaxtdan
Divan at oldu?
Onun belinə
Tural atıldı,
Aqşin atıldı.
Görün nə günə
Qalıbdır divan?
İndi mən sizə
Tutaram divan…

## GÖYÇƏK

Bir qızım var
gözəl, göyçək.
Özü göyçək,
adı göyçək!
Karandaşı
gətirib ki,
Mənə yer çək,
mənə göy çək!

## TURŞ NAR

Belə söylədi Anar:
– Nə yaman turşsan, a nar!
Bu turşluq alçadadı,
Verirsən alça dadı.

– Xoşuna gəlmir, yemə,
Dadım kimi dad hanı?
Görsə ağzı sulanar
Məni bir yol dadanın…

**1978**

## XƏŞİL

Aysel bibinin başını bişirir,
Bibi Aysələ xəşil bişirir..

**1992**

## KÖVKƏB VƏ KÖKƏ

Təndiri alışdırdı
Kövkəb tər tökə-tökə.
Nənəsi onun üçün
Bişirdi dadlı kökə…

Nəvəsindən soruşdu:
– Necədi, Kövkəb, kökə?
– Çox ləzzətlidi…
– Onda,
Kökəni yeyib kökəl!

## RƏQƏMLƏR DÜNYASI

“Əlifba”nı öyrəndim,
Vaxtım getmədi hədər.
Saymağı bacarıram
Mən birdən ona qədər.
Sıra ilə düzülən
Rəqəmlərə baxıram.
Onları bir-biriylə
Toplayıram, çıxıram.
Haqq-hesab bilməyənçin
Olacaqdır dünya dar.
Rəqəmlərdən yaranan
Bir sehrli dünya var…

**1**

Rəqəmlərin ilkiyəm,
Mən Birəm, bir inciyəm.
Say mənimlə başlayır,
Hamıdan birinciyəm…

**2**

İki pis olsa, gözlər,
Qulaqlar iki olmaz.
Əllər, qollar, ayaqlar,
Dodaqlar iki olmaz..
Ağacın budağından
Dər gətir iki alma.
İki yaxşıdır, ancaq
Heç zaman “2” alma!

**3**

Tapmazsan Üçdə eyib,
Atalar üçdən deyib…
Kafiyəm, kifayətəm,
Elə bilmə heçəm mən.
Üçrəngli bayrağıma
Rövnəq verən üçəm mən…

**4**

Dördəm, 4 rəqəminin
Dünyada yoxdu misli.
4 pis olsa, heç ilin
Olardımı 4 fəsli?
Yaxşı oxumaq üçün
Dörd bizə həvəs verər.
Unutma, Dördə yaxşı
Demirlər əbəs yerə.

**5**

Beşəm, Beşəm, Beşəm mən,
Balaca günəşəm mən.
Hər əlin, hər ayağın
Üstündə var 5 barmaq.
Gündəlikdə gün kimi
Şəfəq saçan "5"ə bax!
Mən xəbər gətirirəm
Ən fərəhli işlərdən.
Hamının xoşu gəlir
Qıpqırmızı "5"lərdən…

**6**

Çox müqəddəs rəqəməm, –
Belə söylədi Altı:
– 6 günə yaradıb
Allah bu kainatı…

**7**

Yediyəm, mən Yeddiyəm,
Zaval yoxdu yeddiyə.
Müqəddəs rəqəmlərin
Gözəli, qəşəngiyəm.
Yeddi rəng var dünyada, -
Mən rənglər çələngiyəm…

**8**

Sanki iki üzükdü,
Görkəmi nə qəşəngdi.
Səkkiz guşəli ulduz
Gerbimizə bəzəkdi…

**9**

Səkkizin üstə bir gəl,
Hesabımız düz olsun.
6-nı tərsinə qoy,
Çevrilib doqquz olsun…
Doqquz gün, doqquz gecə…
Əzizdir doqquz necə!

**10**

1 döşünə döyürdü…
Hamı baxırdı ona…
– Sıfırı qoşun mənə,
Çevrilib dönüm 10-a…
Onam, Onam, Onam mən,
Elə bilmə, sonam mən…
20,30,40,50…
Yüz var, min var, milyon var…
Rəqəmlər toplananda
Yaranacaq milyonlar…

## BAPBALACA ŞEİRLƏR,
## GÖR SƏNƏ NƏ DEYİRLƏR…

***

Çayxanada
çay içəndə
İlkin dedi Çiçəyə:
– Çaynik
toyuğa bənzəyir,
Stəkanlar cücəyə…

***

Tamam düpbədüz işləyir, –
Saat sazdı.
Onu belə saz saxlayan
Saatsazdı…

***

Deyir ki it: hürərəm,
Tülkünü itirərəm.

***

Bu meşəyə
qonaq gəlib
bir bəbir,
Heyvanları
şil-küt etdi
Bir-bəbir.

***

Süd almaqçın
Saraya,
Gedib çıxdım
Saraya.

***

Əvvəl
ba, ba söylədi,
Sonra
baba söylədi.

***

Mən gedəndə
Gülnargilə,
Çox sevinir
Gülnar, Gilə…

***

Xarab olubsa
Aparat,
Onu saxlama,
Apar at!

***

Tənəkdə üzüm,
Qoy onu üzüm.
Yeyib doyunca
Dənizdə üzüm.
Yuyulsun əlim,
Yuyulsun üzüm…

***

Dərdim üzüm,
Güldü üzüm.
Gülü üzüm,
Göldə üzüm…

***

Bağırmaq ilə bar-bar,
Heç ağac verərmi bar?

***

Üzü bənzəyir kosa,
Adı qalıbdır kosa.

***

Mən qayıqda bayıldım,
Ayıldım ki, Bayıldı…

***

Bu qız kimdi?
– Fərqanədi.
– Onun səndən
Fərqi nədi?

***

Salam, atam,
Şükür, hələ
Salamatam…

***

Əkin yeri yox sulu,
Qınamayın yoxsulu!

***

Dünyada insan üçün
Çox gərəkdi
göz, qulaq.
Sayıqlığı itirmə,
Göz-qulaq ol,
göz-qulaq…

***

Bir kəlmə deyim,
Sən xəyala dal.
Dilimizdəki
Sözlər baldı, bal.

***

Kökəni qapdı köpək,
Başına dəydi kötək…

***

Balaca Kərtənkələ,
Sataşır hərdən kələ.

***

Kür kükrəyir, Kür daşır,
Sahilləri Kür aşır.

***

Kələ gəlməz
Kəl kələk: –
Kəllə vurdu
Kəl kələ…

***

Kərəm dedi ərk ilə:
– Kərim, ləki kərkilə!
Bekar dayandın, yetər,
Tənbəlliyi tərk elə!

***

Bu oyun yadda qaldı,
Komandir kubok aldı.
Ay Kamandar, Kamandar,
Koman dardı, koman dar.
Ora necə sığışsın
Axı bizim komanda?

***

Meşədə bir tülkü var,
Tülkünün bir kürkü var.
Kamal gülür ki, tülkü
Neyləyir özgə kürkü? –
Soyuq olsun, ya bürkü,
Əynindədir öz kürkü…

***

Jaketini soyunub,
Jalə dedi Əjdərə:
– Təzə jurnal almışam,
Qaç Müjganı müjdələ!

# “ Sabahın sorağında” kitabından

## YAĞIŞLI, QARLI DÜNYA,
## BƏHƏRLİ, BARLI DÜNYA

### VƏTƏN

Fırtına quşuna bax,
Qanad açar, yorulmaz.
Dənizlərin üstüylə
Uçar, uçar, yorulmaz.
Öz gücünə inanar,
Biləndə aşağıda
Fırtınalı dəniz var!

Qartala bax, qartala,
Qanad açar, yorulmaz.
Zirvələrin üstüylə
Uçar, uçar, yorulmaz
Öz gücünə inanar
Biləndə aşağıda
Neçə qarlı zirvə var!

**1978**

### OLMAZ, OLMAZ…

İl dolansa, ay ötsə,
Qara ağ olmaz, olmaz.
Nə qədər kül töksələr,
Küllük dağ olmaz, olmaz.

Üstündə nübarı yox,
Heyvası yox, narı yox,
Bəhəri yox, barı yox,
Belə bağ olmaz, olmaz.

Tap özünə tay, oğul,
Ağsaqqalı say, oğul!
Yaxşı igid, ay oğul,
Üzə ağ olmaz, olmaz.

Can var ikən canında,
Qədrini bil anın da.
Tənbəlin el yanında
Üzü ağ olmaz, olmaz.

Sev vətəni hər zaman,
Vətənsiz nədir insan? –
Onsuz xoşbəxt, firavan
Yaşamaq olmaz, olmaz…

**1978**

## BABƏK

Odlar yurdunun
Mərd oğlu Babək
Düşmənlər ilə
Döyüşüb şir tək.

Qılınc çalıbdır
Hey sola, sağa.
Qoymayıb yadı
Ana torpağa.

Min hiylə ilə
Tutublar onu.
Kəsiblər dibdən
İki qolunu.

Susub, sızlamaq
Eyibdir ona.
Düşmən rişxəndlə
Deyibdir ona:

– Niyə üzündə
Bir sarılıq var?
Deyib: – Batanda
Günəş saralar…

**1976**

## DAĞLAR NİYƏ DARIXMIR

Bir yerdə dayananda
Darıxıram yamanca.
Ora-bura qaçıram,
Yorulmuram mən ancaq.

Gah çəmənə gedirəm,
Gah dağa dırmaşıram.
Bəzən olur ən uca
Budağa dırmaşıram.

Karuselə minirəm,
Yuyunuram kəhrizdə.
Gah qumda uzanıram,
Gah çimirəm dənizdə.

Dağlar bir yerdə qalır
Ömrünün sonunacan.
Bəs bir yerdə durmaqdan
Darıxmırlar, anacan?

**1976**

## DAĞA ÇIXSAM

Düzülüblər
topa-topa,
Düzülüblər
qatar-qatar.
Dağa çıxsam,
Buludlara
əlim çatar.

Dağa çıxdım,
Bulud itdi
ilim-ilim.
Bu nə işdi,
Çatmadı heç
ona əlim?!

**1977**

## GÜN EYNƏYİ

Hacıkənddə axşam-səhər
Bulud olur göyün üzü.
Elə bil ki, bu buludlar
Dağların gün eynəyidi, –
Taxır, qamaşmasın gözü…

**1982**

## DƏRƏLƏR

Dərələrim dərindi,
Qoynunda sellər gəzər.
Dağlarım nə ucadır,
Başında yellər gəzər.

Burdakı gözəlliyi
Görməyənlər görələr.
Dağların qonşusudur
Əzəl gündən dərələr…

**1976**

## ÇAY

Heç bilmirəm necə axır?
Gündüz axır, gecə axır.
Keçib gedir çöllər boyu,
Tükənərmi onun suyu?!

**1980**

## SAĞ BULUDU

Susuzluqdan körpə otlar
Saralıbdır, solubdur.
Buludu sağ, külək xala,
Məmələri dolubdur…

**1975**

## QAYALAR

Su çırpılar qayaya,
Dalğa-dalğa sovrular.
Yel çırpılar qayaya,
Qanadları ovular.

Bu qaya mürgüsündən
Yoxmu sizi oyadan?
Doğru sözdür, axı yel
Nə aparar qayadan?

Sinənizdə insanın
Əllərinin izi var.
Gələcək nəsillərə
Babaların sözü var.

Əcdadımız dost olub
Dorpaq ilə, daş ilə.
Siz ağır yumruq kimi
Tariximi dananın
Enmisiniz başına.

Olsanız da dünyanın
Varlığından xəbərsiz,
Xalqımın keçmişindən
Verirsiniz xəbər siz…

**1980**

## SUYUM AXAR

Suyum axar
axım-axım,
Üzüm olar
salxım-salxım.
Yetirərəm
özümü.
Qopararam
gilə-gilə,
Aşıraram
gülə-gülə
Üzümü…

**1978**

## BULUDLA SÖHBƏT

– Nazik paltarda
Çıxdım çölə mən.
Ay bulud, yerə
Yağış çiləmə!

– Solar çiçəklər,
Yanar dağ-dərə.
Pay göndərməsəm
Yağışı yerə…

**1976**

## BULUD

Buluda bax, buluda,
Topa-topa, ağ-ağdı.
Görən kim döydü onu,
Gözlərindən yaş axdı?

Buluda bax, buluda,
Gör necə qəşəngdi o!
Elə bil ki, dağların
Başında örpəkdi o.

**1976**

## TOQQUŞAN BULUDLAR

Bilmirəm
Nə deyim küləyə? –
Vurdu buludları
kəllə-kəlləyə.

Yağış yağacaq indi.
Buludlar ağladı,
Çəmənlər sevindi…

**1975**

## SU NİYƏ TÜKƏNMIR?

Buluda bax, buluda,
Yağışı var, qarı var.
Dağların sinəsində
Sanki su anbarı var.

Mən bu çayın işinə
Mat qalmışam, ay Gülgəz.
Elə hey axır, axır,
Tükənməyir suyu bəs?

**1977**

## YAĞIŞDAN TUT, GÖYƏ ÇIX …

Yerə verir göy acıq,
Yağışdan tut, göyə çıx!

Baxır mənim üzümə,
Gülür balaca Əvəz.

Deyir: – Yağış kəsilsə,
Yerə yıxılmaram bəs?

**1981**

## BÖCƏKLƏRİN ÇƏTİRİ

Yağış yağır, nur damcılar
Hey ələnir göydən yerə.
Çəməndəki göbələklər
Çətir olur böcəklərə.

**1975**

## YAĞIŞ

Göydə qara bulud var,
Tez ol, tez ol, ay Gülnar!
Paltarları yığışdır,
Gör nə qəşəng yağışdır!
Səpilir narın-narın
Üzərinə otların.
Çimir güllər, çiçəklər,
Hamamlanır böcəklər.
Hər damlası incidir,
Torpağın sevincidir.

**1972**

## YAĞIŞ NƏĞMƏSİ

Dənizə yağış yağır,
Kəhrizə yağış yağır.
Dənizə naxış yağır,
Kəhrizə yağış yağır.

Yarpaqlar elə bil ki,
Piano dilləridir.
Yağışsa bir sehrkar
Bəstəkar əlləridir.

Özü öz mahnısının
Səsinə uyar yağış.
Elə bil dünyamızı
Nəğməylə yuyar yağış.

**1972**

## MEŞƏYƏ YAĞIŞ YAĞIR

Meşəyə yağış yağır,
Damcılar iri, ağır.
Süzülüb budaqlardan
Köklərə axır yağış.
Sonra da yavaş-yavaş
Gövdənin içi ilə
Budağa qalxır yağış…

**1982**

## ÇAYLAQDA

Yağış yağıb,
Çay daşıb.
Su yorğana bürünüb,
Çaylaqda
Çaylaq daşı.
Axar çayın önündə,
İnsan təzə bənd salıb,
Çay dəyişib səmtini,
Daşlar yorğansız qalıb…

**1975**

## ÇİNAR BAŞINDA ÜZÜM

Sanki sarmaşıqdılar
Sarmaşıblar çinara.
Sən bu tənəklərə bax,
Dırmaşıblar çinara.

Ən uca budaqdadır
Ən gözəl, iri salxım.
Könlüm üzüm istəyir,
Bəs ora neca qalxım?!

**1972**

## BAĞDA "YOLKA"

Sanki yolkadır tənək,
Üzümlər oyuncaq tək
Sallanıbdır budaqdan,
Seyr edirəm uzaqdan.
Şaxta baba əzəldən
Düşmən olubdur yaya.
Hünəri varsa, gəlsin,
Baxsın bizim "yolka"ya…

**1973**

## BAHAR GƏLƏNDƏ

Yenə aydın səmada
Qaranquşum süzəcək.
Elə bil ki, qayçıdır
Onun haça quyruğu,
Buludları kəsəcək…

## BAHAR GƏLDİ

Bahar gəldi, çəməndə
Çiçəklər dizə çıxdı.
Gülümsündü qönçələr,
Ləçəklər üzə çıxdı.

**1976**

## BİR NƏLBƏKİ ÇƏMƏN

– Pəncərəyə kim qoyub
Bir nəlbəki çəməni?
– Qızım, bu çəmən deyil,
Səmənidir, səməni.
Baharın elçisidir,
İstəyir qışı qova.
Suya qoyulmuş buğda
İçib gün işığından
Dönüb yaşıl alova…

**1977**

## YAZDA

Soruşursan ki, məndən
Çay dərindi, dayazdı?
İndi dayaz çay olar? –
Ülviyyə, axı yazdı!

Günəş təbəssümüylə
Çayları hey daşdırar.
Gur suların önündə
Nə kəsək, nə daş durar…

**1977**

## TORPAĞIN YORĞANI

Yarpaqlar yerə düşdü,
Güllər saraldı, soldu.
Payız gəldi, xəzəllər
Torpağa yorğan oldu.

Qış gəldi, soyuq düşdü,
Şaxta gəzdi hər yanı.
Torpaq çəkdi üstünə
İndi də qar yorğanı.

Yaz gələndə hər yanda
Açılmışdı gül-çiçək.
Yer yaşıl yorğanına
Bürünmüşdü sevincək.

Yay gəldi, isti düşdü,
Yelpik oldu hər yarpaq.
Öz yaşıl yorğanını
Üstündən atdı torpaq…

**1975**

## QIŞ – BAHAR

Qış gəlib,
Xoş gəlib!
Niyə əli
Boş gəlib?

Şaxta hanı,
Qar hanı?
Sevindirsin
Qaranı.

Ayaqlarında
Xizək,
Çıxsın evdən
Sevincək.

Qış gedib,
Xoş gedib.
Yerinə gəlib
Bahar,
Yaşıl geyinib
Dağlar.

İndi Qara
Sevincək,
Gedib yığar
Gül-çiçək…

**1975**

## SƏHƏR KÜLƏYİ

Səhər-səhər külək əsdi
Sərin-sərin.
Sünbülündə su oynadı
Zəmilərin…

**1976**

## QIŞ NƏ VAXT GƏLƏCƏK

– Ata, qar niyə yağmır?
– Oğlum, qışda yağacaq.
Yenə də çöllər, düzlər
Geyinəcək ağappaq.

Qarla oynayacaqsan
Sən də əlində əlcək.
Oğlum deyir: – Ay ata,
Bəs qış nə vaxt gələcək?

**1982**

## İLK QAR

Ülkər bərk sevinirdi,
Qar yağmışdı hər yana.
Elə bil ki, dünyanı
Bağışlamışdın ona.

Qar ilə oynayırdı
Həyətdə gülə-gülə.
Sonra o anasıyla
Getdi xalasıgilə.

Geriyə qayıdanda
Kədər qondu üzünə.
Yerdən qar ərimişdi,
İnanmadı gözünə.

Qaş-qabağı töküldü,
Belə söylədi Ülkər:
– Ana, qar əriməzdi,
sən məni xalagilə
Aparmasaydın əgər…

**1982**

## ŞAXTA BABA

Yenə qarlı qış gördük,
Şaxta baba, xoş gördük!

Donub əlin, ayağın,
Qorxma, bir az gəl yaxın.

Bizim balaca Təhsin,
Sənə şeirlər desin.

Üşüyürsənsə əgər,
Gəl otağa gir, isin!

**1975**

## TURAC

Qapını döyür Turac,
Ay nənə, dur aç, dur aç!

Soyuqdan gəlib axı,
Dondu əli, ayağı.

Boynunu şərflə örtüb,
Üzü soyuqdan pörtüb.

Yanaqları allanıb,
Şərfindən buz sallanıb.

Elə bil ki, qar qızdı,
Əl-ayağı bumbuzdu.

Qışla zarafat olmaz,
Gəlib isinsin bir az.

Sonra həyətə düşsün,
Top oynasın, sürüşsün.

Qapını döyür Turac,
Ay nənə, dur aç, dur aç!

**1977**

## KAMİL NİYƏ ÜŞÜYÜRDÜ

Kamil düşdü həyətə,
Dayandı bir kənarda.
Baxıb gördü ki, İlqar
Heykəl düzəldir qardan.

Qar topu oynayan kim,
Sürüşən kim həyətdə!
Buz üstə yıxılan kim,
Gülüşən kim həyətdə!

Heç qara əl vurmayıb,
Görən bu nə iş idi?
Başqaları üşümür,
Kamil niyə üşüdü?

Bir azdan dostlarına
O, qaynayıb-qarışdı.
Oynadı, şənlik etdi,
Uşaqlarla yarışdı.

Üşümədi daha o,
İsindi əl-ayağı.
Cəsarətli uşaqdan
Soyuq gen gəzir axı!

**1977**

## KİÇİK ÇİLLƏNİN SOYUĞU

Çıxdı həyətə İlqar,
Qar yağırdı ahəstə.
Gördü çil fərə durub
Bircə ayağı üstə.
İnanmadı gözünə,
Belə şey olar axı?
Qəribədir, bəs hanı
Toyuğun bir ayağı?
Sonra səsi gəldikcə
Anasını çağırdı.
Heyrətindən bağırdı.
Səksənib qaçdı toyuq,
Lap möcüzəymiş bu ki?! –
Bir ayaq oldu iki…
Başa saldı İlqarı
Çimnaz bibi gülərək:
– Toyuqların ayağı
Heç zaman olmayıb tək.
Görmürsənmi soyuğu,
Külək də əsir hələ.
Toyuq öz ayağını
İsidir növbə ilə.
Səmaya diqqət elə,
Qar yağır noğul-noğul.
Bax elə buna görə
Belə deyirlər, oğul:
– Kiçik çillənin soyuğu,
Təndirə təpər toyuğu…

**1972**

## GÜNƏŞİN ZƏR SAÇAĞI, AĞACIN QAR PAPAĞI

Qar yağdı, hər tərəf oldu ağappaq,
Qar yağdı, ağaclar qoydu ağ papaq.
Görəndə günəşin zər saçağını,
Ağaclar çıxardı qar papağını…

**1973**

## QAR

Yenə qarğalar
Edirdi qar… qar…
Baxdım həyətə,
Gördüm yağıb qar.

**1977**

## BUZ – ŞÜŞƏ

Şəffaf bir şey tapdılar
Bir gün Adillə İlqar.
Mübahisə elədi
İki qardaş o ki var.

İlqar dedi şüşədi,
Adil dedi ki, buzdu.
Mərc gəldilər ikisi,
Ancaq İlqar uduzdu.

Evə gətirən kimi
"Şüşə" su olub axdı.
Adil İlqara baxdı,
İlqar Adilə baxdı…

**1977**

## QARA OLACAQ

Qar yağıb çölə, düzə,
Rənginə bax, ağappaq!
Bir “a” əlavə etsək,
Ağ qar qara olacaq!

**1977**

## SOYUQDAN QORXAN

Hələ şaxta gəlməmiş
Bir gör o, əsir necə!
Deyir ki, kaş bu qış da
Qarsız, boransız keçə.

Dost, o necə qışdı ki,
Nə çovğun, nə qar olmur?!
Yaxşı qış olmayanda,
Yaxşı da bahar olmur.

## ƏLCƏK

Ay əlcək, əlcək,
Əlimdən əl çək!
Az-az qarlayır
Bizim dağlara,
Bəs mənim əlim
Dəyməsin qara?!

**1977**

## QIŞ

Təzəcə gəlmişdi qış,
Dərə-təpə qar idi.
Ağacın budağında
Bir dəstə quş var idi.

Ovçu bir güllə atıb,
Beşini yerə saldı.
Kim söyləyər, ağacda
Neçə dənə quş qaldı?

**1972**

## YAŞIL ADA

Fərqi yoxdu onun üçün
Ya qış olsun, ya da bahar.
Sanki boyuna biçilib,
Yaşıl libas – yaşıl paltar.

Qar ələnib dağa, düzə,
Ancaq onu dondurmayıb.
Qışın qarı, sazağı da
Yarpağını soldurmayıb.

Şaxta təsir eləyərmi
Heç həmişə yaşıla da?
Seyr edirəm, qar gölündə
Hər küknar bir yaşıl ada.

**1978**

## AZƏRBAYCAN ÇAYLARI

Çayların hamısı
Birləşib, gur olub.
Çayların hamısı
Birləşib, Kür olub.
Suların önündə
Böyük bənd qurulub.
Kürün də suları
Evlərdə nur olub…

**1974**

## ARAZ

– Adı nədir bu çayın?
– Tanımırsan, Arazdı.
Sən görən çaylar bunun
Yanında çox dayazdı.
Bu tayda güllü yazdı,
O tayda sevinc azdı.
Heç darıxma, ay Gülyaz,
O tayda da olar yaz…

**1974**

## ARPA ÇAYI

Deyirlər ki, qabaqlar,
Arpa çayı, daşmısan.
Mənim Sara xalamı
Sən götürüb qaçmısan.

Sularından qorxmuram,
Mən güclüyəm hamıdan.
Verməərəm aparasan
Balaca kuklamı da…

**1974**

## BƏRGÜŞAD

Onun şırıltısını
Dinləyirəm qəlbi şad.
Quşlara, böcəklərə,
Güllərə, çiçəklərə
Layla çalır Bərgüşad.

**1976**

## QURU ÇAY

Adına bax, Quru çay,
Suyun yoxsa, quru, çay!
Baş açmıram, ay Nigar,
Heç quru da çay olar?!

**1974**

## VƏLVƏLƏ ÇAY

Dünən qonaq gəlmişəm
Qubaya, xalamgilə.
Vəlvələ çay, bəs nə vaxt
Salacaqsan vəlvələ?
Adın sənə yaraşmır,
Arx kimisən sən elə!

**1974**

## DAĞ ÇAYI

Dağda yaşar dağ çayı,
Yazda daşar dağ çayı,
Sanki coşar dağ çayı,
Nəğmə qoşar dağ çayı.
Düzənlərə ax, çayım!
Dağların tütəyidir
Elə bil ki, dağ çayı…

**1974**

***

Ləpələr oxuduqca
Bir sərinlik yayılır
Elə bil ki, hər yana.
Dağların havasını,
Çiçəklərin ətrini
Hey daşıyır arana.

**1976**

## BU ÇAY

Bu çay ağacları da
Kötüyündən qoparır.
Bu çay məni itirmir,
Bu çay məni aparır.
Üzmək də lazım deyil,
Səni özü üzdürər
Bu çayın öz axarı.
Ancaq bircə arşın da
Üzmək olmur yuxarı…

***

Ata dağdı, ana dərə.
Dağ çayları
Dərələrə qısılmayıb
Nahaq yerə…

**1977**

## SEHRLİ HƏNA

Alıcı şahin kimi
Dağdan yerə şığıdı.
Şəlalə bu dağların
Hörüyüdü elə bil,
Qayalar darağıdı.
Çatır topuğunacan
Dağların ağ hörüyü.
Baxıram şəlaləyə
Məni sevinc bürüyür…
Dağ çayının səsinə
Dağlar qulaq asıblar.
İndicə dilə gəlib
Daşlar oxuyacaqlar.
Baxıram şəlaləyə,
Sanki həna asıblar,
Xalça toxuyacaqlar…

**1977**

## ŞƏLALƏ

Qayaya bax, sanarsan
Əzəlki qaya deyil.
Saçları topuğunda
Bir gözəldi elə bil.

İndi onun çiynindən
Çay tökülür dərəyə.
Baxanlar heyran qalır
Bu gözəl mənzərəyə.

Şəlalə quş tək uçur,
Gümüşdəndi qanadı.
Qartal uca zirvəyə,
O, dərəyə can atır…

**1982**

## CEYRANBATAN

Bu yerlərin çiçəyinə,
Bu yerlərin gülünə bax.
Abşeronun sinəsində
Ceyranbatan gölünə bax!

Uyuyubdur yurdumuzun
Bir səfalı guşəsində.
Nə vaxt ceyran gəzəcək bəs
Ceyranbatan meşəsində?

**1977**

## ÇAYZƏMİ

Hər yan meşə, hər yan ağac,
Hər yan təpə, hər yan yamac.

Əl çatmayan budaqlar var,
Diş göynədən bulaqlar var.

Bir zəmi var çay boyunca,
Sünbüllərə bax doyunca.

Keçib gedir çay zəmidən,
Mən gəlirəm Çayzəmidən.

**1974**

## ŞAMSIZ

Bir kənd gördüm, adı Şamsız,
Heç yaşamaq olar şamsız?
İşığını ellər sevir,
İşıq göndər, Mingəçevir!
Bozdağ hara, Şamsız hara?
Qərq olubdur Şamsız nura…

**1974**

## CAM BULAĞI

Cam bulağı,
Cam bulağı,
Suyun yox
Bir cam, bulağım.
Qurumusan? –
Can, bulağım!

**1974**

## SARI BULAQ

Tez ax bizə sarı, bulaq,
Sarı bulaq, Sarı bulaq!
Quruyubdur gilənarım,
Yarasını sarı, bulaq!

**1974**

## QUŞ BULAĞI

Sən meşənin içindəsən,
Bənövşənin içindəsən.
Tayın yoxdu, buz bulaqsan,
Heyf, bizdən çox uzaqsan!
Saf suyunu hamı xoşlar,
Susayanda içər quşlar.
Mən gedirəm, yağış yağır,
Salamat qal, Quş bulağı!

**1974**

## KARTOF BULAQ

Kartof bulaq, Kartof bulaq,
Sən olsan da kənddən uzaq,
Gəlib içdim buz suyundan,
Sərin su yox öz suyundan.
Şirin su yox öz suyundan.
Heç vermirsən kartof dadı,
Hardan aldın bəs bu adı?

**1974**

## LÖVHƏ

Bulaq gücünü çaydan,
Çay gücünü bulaqdan
Alıb axır çöllərə,
Obalara, ellərə.
Onun şirin nəğməsi
Yamacları bürüyüb.
Dağ sanki bir gözəldir,
Çaylar onun hörüyü…

## OTLAR

Üstündən sel axıb getdi,
Otlar yerə yapıxdılar.
Günəş əllərindən tutdu,
Otlar yenidən qalxdılar.

**1978**

## SÜNBÜL

Dəni bərkiməyibdir,
Sünbül hələ sütüldü.
Uzatdım oda sarı,
Ütüm-ütüm ütüldü…

**1976**

## BOŞ – DOLU

Dənli sünbül baş əyir,
Dənsiz kimi dik qalxmır.
Danqıldayır boş qazan,
Dolunun səsi çıxmır.

**1978**

## NOVRUZGÜLÜ

Yerdən qalxdı Novruzgülü
Çiynindən tullayıb qarı.
Gülümsədi, qar üstündə
Salamladı ilk baharı.

**1977**

## XƏSİL

Torpaqdan baş qaldırır
Yerə səpilən arpa.
Quzular oynaqlayır
Otları qırpa-qırpa.

Oğlaqlar qaça-qaça
Quzulara qoşuldu.
Hər yanda otlar solub,
Bircə xəsil yaşıldı…

**1976**

## ƏGƏR TORPAQ OLMASA

Əgər torpaq olmasa,
Nəyin üstə gəzərik.
Ətirli çiçəkləri
Biz haradan üzərik?

Harda bitər ağaclar,
Harda meşə, bağ olar?
Harda taxıl əkərik,
Onsuz yaşamaq olar?!

## NƏRGİZ

Nərgizə bax, nərgizə bax,
Nə gözəldi, nə qəşəngdi!
Yaşıl qolunun ucunda
Hər barmağı bir çiçəkdi.

Onun torpaqdan ayırdın,
Heç olmasa, qoru suda!
Ləçəkləri qırçın-qırçın,
Ağı da var, sarısı da.

O gələndə evimizə
Çiçəklər qaçdı, gizləndi.
Otağımız ətirləndi,
Otağımız nərgizləndi.

**1976**

## AĞ GÜL

Külək əsə, yellənəm,
Görəsən nə güləm mən!
Dindirələr, dillənəm,
Danışam mən, güləm mən.

Paltarım dümağ, qəşəng,
Sanki yağıb qar üstə.
Hər ləçəyim bir döşək,
Kəpənək yatar üstə.

Yazda kefim durular,
Dost-tanışım bol olar.
Uçub gələn arılar
Öpüşümdən bal alar.

Güllərin arasından
Hamı bircə baxışla
Arayıb məni seçər.
Ləçək ovuclarımı
Dolduraram yağışla,
Arılar gəlib içər…

**1978**

## KÜKNAR

Küknarın nə vecinə,
Payız oldu, qış oldu? –
İlin bütün fəslində
Budaqları yaşıldı…

**1985**

## ÇOBANYASDIĞI

Günəbaxandır
Elə bil o da.
Ancaq yaşayır
Çəməndə, dağda.

Ortası sarı,
Ləçəkləri ağ.
Günəbaxandan
Kiçikdir ancaq.

Mən ona baxdım,
O mənə baxdı.
Gözü sarıdı,
Kirpiyi ağdı.

Sanki hasardı
Ağ ləçəkləri.
Rəfiqəsidir
Dağ çiçəkləri…

**1976**

## ZƏNCİROTU

Boru kimi deşikdir
Nazik gövdəmin içi.
Acıyam, yemir məni
Nə qoyun, nə də keçi.

Allı-güllü çəmənlər
Mənim doğma yerimdi.
Zəfəran tək qızılı
Çiçəklər gözlərimdi.

Qəribliyə salma gəl,
Ay oğlan, sözlərimi.
Günəş batanda, mən də
Yumuram gözlərimi.

Qaranlığı sevmirəm,
Qaranlıqdan qaçıram.
Yalnız günəş çıxanda
Gözlərimi açıram.

**1976**

## RAFLEZIYA

Demirəm güllərin
Göyçəyi mənəm.
Dünyanın ən böyük
Çiçəyi mənəm.

Külək budağımı
Çətin ki, əyə!
Kimin gücü çatar
Məni dərməyə?!

Sumatra adası
Olub məskənim.
Çəkim yüz kilodan
Ağırdır mənim.

**1976**

## EVLƏRİN BƏZƏYİ

Ətri tutub hər tərəfi,
Qızılgüllər təzə idi.
Gül alıbdır anam yenə, –
Gül evlərin bəzəyidi…

## BƏDRƏNC

Yarpaqlarım saplaqlı,
Çiçəyim xırda, ağdı.
Əzəldən yurdum, yuvam
Dərədi, düzdü, dağdı.
Nanəyə oxşayıram,
Ətrim xoşa gələndi.
Yağış yağdı, üstümə
Nur damcılar ələndi.
Günəş görünən kimi
Şeh güldü gözlərimdə,
Arılar vızıldadı
Yenə də üzərimdə.
Qondular ləçəyimə,
Dodaqları ballandı.
Çiçəyimin şirəsi
Pətəklərə yollandı.
Pətəyə yaxınlaşma,
Hirslənər, arı çalar!

Mənim suyumdan sürtər
Əlinə arıçılar.
Ətrim gələn əlləri
Oxşayar, çalmaz arı.
Xəstə suyumdan içsə,
Gedər azar-bezarı.

**1976**

## MURDARÇA

Gövdəsi vardır
Qollu-budaqlı. –
Üstü qırmızı,
Qonur qabıqlı.

Xırda, yamyaşıl
Çiçəkləri var.
Onun meyvəsi
Yetişən zaman
Qapqara olar.

Dərin, dostlara
Pay qoyaq ondan.
Həm dərman olur,
Həm boyaq ondan.

**1976**

## ÇAYTİKANI

Beş-altı metrə çatır,
Gəl mənim boyuma bax!
Adım çaytikanıdır,
Tikanım yoxdur ancaq.

Tünd boz rəngli qabıqla
Örtülüb üstüm mənim.
Meşələrin qucağı
Olub mənim məskənim.

Ətirli olmasam da,
Çiçək kimi, gül kimi.
Mayda çiçəkləyirəm,
Çiçəyim sünbül kimi.

Şirəli meyvələrim
Sarıdır, qızılıdır.
Gəl yığ apar onları,
Budaqlarım doludur.

Yamyaşıl meşələrin
Şöhrətiyəm, şanıyam.
Bilir bütün el-oba,
Dərdlərin dərmanıyam.

**1976**

## MAMIR

Göz gəzdirirəm
O tay, bu taya.
Çaşıb qalmışam,
Tüklənib qaya.

Belə tük olmaz,
Bu ki mamırdı.
Qayaların da
Tükü mamırdı…

**1973**

## AĞACLAR

Bu qədər ayaq üstə
Dayanmaq olar? –
Oturub dincəlmirmi
Görən ağaclar?

**1976**

## PÖHRƏLƏR

Pöhrələr tutub
Dərəni, düzü.
Xatırladırlar
Yaşıl dənizi.

Hamı onları
Qorusa əgər,
Beş-altı ilə
Meşəyə dönər…

**1976**

## SÖYÜD

Doğradılar qollarımı,
Yaramdan "ağ qan" axdı.
Basdırdılar qollarımı,
Hərəsi bir ağac olub,
Yerdən boy atdı, qalxdı…

**1976**

## ARXDA ƏKDİM SÖYÜDÜ

Arxda əkdim söyüdü,
Sudan içdi, böyüdü.
Arxın önünü kəsdim,
Gözəl bir göl yarandı.
Elə bildi güzgüdü,
Söyüd baxıb darandı.

**1974**

## HƏMƏRSİN

Mənə itburnu deyir
Hamı, dağlıdır sinəm.
Zarafatı buraxın,
Axı mən həmərsinəm!

– Kim dostuma sataşsa,
Verəcəyəm dərsini.
Bəsdir itburnu deyib,
İncitdik həmərsini!

**1972**

## BADAM

Mənim babam
Əkib badam.
Meyvəsindən
Gərək dadam.

**1977**

## ZOĞAL

Sənə su verim, zoğ al!
Üstündə bitsin zoğal.
Qoy mürəbbə bişirsin
Anam səndən, zoğalım.
Mənə soyuq dəyəndə,
Səni yeyib, sağalım!

**1972**

## AKASYA

Sizə söyləmirəm ki,
Ağacların tacıyam.
Məni tanıyarsınız,
Akasya ağacıyam.

Yarpağım yaşıl-yaşıl,
Çiçəyim salxım-salxım.
Mənə su ver, ay oğlan,
Ucalım, göyə qalxım!

## PALID

Başım dəyir buluda,
Dağ gövdəli palıdam.
Məni qopara bilməz,
Ana torpaqdan heç kəs!
Bu torpağa bağlıyam,
Bu torpağın oğluyam.
Qasırğanı, tufanı
Adi bir meh bilərəm.
Torpaq mənə vətəndir,
Onsuz olsam, ölərəm.

**1973**

## DAĞDAĞAN

Dağda, daşda bitirəm,
Gövdəm daş kimi möhkəm.
Bozumtul yarpağım var,
Budağımdan asılıb,
Sarı-sarı sırğalar.
Mənim meyvəm sarıdır,
Meylin çəkir, bəri dur!
Köküm daş dəlib keçər,
Dərinlikdən su içər.
Ürəyim quraqlıqdan
Olubdur dağ-dağ, anam!
Bəlkə mən dağ doğanam?
Bəlkə də dağda xanam?
Uzun sözün qısası,
Ağacam, dağdağanam.

**1973**

## GÖYƏM

Dedi göyəm:
– Hələ göyəm!
Yetişəndə
Gəl dər məni.
Dostlarına
Göndər məni.

**1975**

## QUŞARMUDU

Quşlar məni meşədə
Xeyli axtardı, gəzdi.
Bir adım quşarmudu,
Bir adımsa üvəzdi.

Böyük həvəslə quşlar
Mənim meyvəmi udar.
Fındıqdan da kiçiyəm,
Bənzəsəm də armuda.

Quşlardan da çox sevir
Məni dəcəl uşaqlar.
Tozum soyuducu tək
Meyvəni sərin saxlar…

**1975**

## ALÇA ÇİÇƏKLƏRİ

Qışın soyuğu
Uzaqda qalıb.
Yerdə qar yoxdu,
Budaqda qalıb.

Alçalara bax,
Saçı ağappaq.
Elə bil qardan
Qoyublar papaq.

Budaqdakı qar
Necə qəşəngdi.
Bu ki, qar deyil,
Dümağ çiçəkdi?!

## TUT

Sən bir tuta bax, tuta,
Belə deyir Umuda:
Altıma bir palaz tut,
Silkələ, tökülsün tut!

Şirinliyinə bax bir,
Yarpağım qiymətlidir.
Onlardan ipək olur,
İpəkdən örpək olar…

**1972**

## KÖZ AĞACI

Sən bu ağacı
Tamaşaya dur.
Budaqlarında
Sanki köz yanır.

Kim görsə onu,
Ağzı sulanar.
Bir gilə oddur
Sanki gilənar.

Gilələrində
Gör nə hikmət var.
Sən suvardıqca
Sönməz, alışar.

**1972**

## ÜZÜM

Qoyun bağdan
üzüm dərim,
Siz dərməyin,
özüm dərim.

Hər salxımda
neçə gilə,
Doydum bircə
salxım ilə.

**1975**

## TƏNƏK

Tənək elə bil
Çadırdır, çadır.
Uzanıb bizim
Balkona çatır.

Nə qədər uca
Boyu var onun.
Sırğalarıdır
Salxımlar onun.

Sıralanıblar
Bax, düzüm-düzüm, –
Nə qədər yarpaq,
Nə qədər üzüm

Asılıb onun
Budaqlarından.
Dolma bükürlər
Yarpaqlarından.

Bir salxımında
Qalıbdır gözüm,
Sən yaxın gəlmə,
Dərərəm özüm!

**1976**

## BABAM HARDAN BİLİB Kİ...

Öyünürdü Mübariz,
Bağ yox bizim bağ kimi.
Budaqların üstündə
Meyvələr bitraq kimi.

Atam deyir bu bağda
Çox zəhmət çəkib babam.
Bunların hamısını
Bizimçün əkib babam.

Neçə cürə meyvəni
Bir bağa eləyib cəm.
Babam hardan bilib ki,
Mən çox meyvə sevənəm?!

**1972**

## ARMUD

Silkələdim armudu,
Ağacın dibi doldu.
Mikayılın, Gündüzün,
Gurselin cibi doldu…

**1977**

## GÜNƏBAXAN

Bərəlmiş bəbəklərim
Günəşdən doyan deyil.
Hər tum bir qətrə yaşdı
Gözlərimdə elə bil.

**1977**

## DİRRİK

Bura gəlin,
Ay uşaqlar,
Məndə pencər
Toxumu var.
Yeri qazıb
Lək düzəldək.
Nanə əkək,
Reyhan əkək.
Gübrələyək
Biz hər ləki.
Dünən atam
Deyirdi ki,
Harda birlik,
Orda dirrik!
Əgər birgə
İşləsək biz,
Məhsul verər
Dirriyimiz…

**1973**

## BALQABAQ

Yemiş kimi sarıdır,
Qarpız kimi girdədir.
Özü qalxıb çəpərə,
Tağın kökü yerdədir.

Necə qalxıb oraya
Elə ağır balqabaq?
Gözdən qoyma, çəpərdən
Yoxsa aşıb qaçacaq…

**1973**

## KƏLƏM

Dildə-ağızda gəzir
Mənim dolmamın adı.
Dost, lovğalıq olmasın,
Mənsiz borşun nə dadı?!
Hansı bişmişdə olsam,
Onda gözəl tam olur.
Hələ bu harasıdı,
Yaxşı şorabam olur!

**1972**

## ÇUĞUNDUR

Çuğunduram, çuğundur,
Bir az mənə yaxın dur.
Qaz çıxar yerdən məni,
Ancaq atma sən məni.
Gözlərindən itərəm,
Fırlanıb təkər kimi.
Məni özünlə apar,
Şirinəm şəkər kimi.

**1972**

## SOĞAN

Nə olsun ki, acıyam,
Bişmişlərin tacıyam.
Adım soğandır mənim,
Sarımsağa bacıyam.
Faydalıyıq, sən bizi
Məhv etmə, ay qurumsaq,
Dərdlərin dərmanıdır
Axı soğan, sarımsaq?!

**1972**

## HÖVSAN SOĞANI

Qabığı darçınıdır,
Özüsə ağdı onun.
Vətəni əzəl gündən
Şoran torpaqdı onun.

Soğanlardan seçilir,
Tamı xeyli acıdır.
Ləklərdən baş qaldıran
Yaşıl-yaşıl saçıdır.

Dözümlü bitkilərdən
Yoxla, geri qalmaz o.
Nə qədər istəyirsən
Saxla, xarab olmaz o.

**1976**

## BİBƏR

– Bu nədi?
– Bibərdi.
– Qoy onu gəbərdim.
– Acıdır yamanca…
– Dişləyim bir azca!
– Nə oldu, ay qızım?
– Ay nənə, yandı ağzım!

**1975**

## QARĞIDALI

Ay aman, bir qədər
Kənara qaçın! –
Qarğıdalı bişir
Üstündə sacın.

Bir qədər yaxına
Can atsan əgər,
Dənələr çırtlayıb
Üzünə dəyər.

Əvvəl sarı idi,
Bişdi ağ oldu.
Partlaq qarğıdalı
Sanki noğuldu.

Qara da bənzəyir,
Qar deyil ancaq.
Ocağın üstündə
Heç ərimir, bax!

**1973**

## XİYAR TAĞINDA YEMİŞ

Xiyar tağında yemiş, –
Bu ki möcüzə imiş!
Haraylayıb hamını
Bostana yığdı İbiş.
Dedi: – Baxın yemişə!
Hamı güldü İbişə.
Tağda elə yemişcən
Sarı bir şey var idi.
Ancaq bu yemiş deyil,
Toxumluq xiyar idi…

**1975**

## YERALMASI

Bir ləzzətli almayam,
Gəzmə məni budaqda.
Axtar tap görüm, oğlan,
Gizlənmişəm torpaqda.

Ona görə adımı
Qoyublar yeralması.
Adam varmı ki, məni
Yeyib razı qalmasın?!

**1974**

## TƏRXUN

Elə bil ki, yoncadır,
Biçirsən, bitir yenə.
Tərxuna bax, tərxuna,
Yarpağı iynə-iynə.
Söz ola bilməz onun
Qoxusuna, iyinə…

**1976**

## LOBYA

Çox gərəklidi lobya,
Bütün elə, obaya.
Torpaqda lək çəkərlər,
Onu yerə əkərlər.
Sudan içib göyərər,
Yerdən qalxar bir qədər.
Sarmaşar sarmaşıq tək,
O, şaxlara sevincək.
Çiçək açıb nə qədər,
Görürsənmi, ay Ülkər?

Çiçəklərin yerində
Uzunsov sandıqçalar.
Sandıqçanın içində
Kiçik-kiçik lobya var.

**1975**

## LOBYA BALASI

– Bu kiçik lobyaları
Hardan alıbdır xalam?
– Bunlar lobya deyil ki,
Maşdır, ağıllı balam.
– Yox, lobyadır.
– Ay qızım,
Bir qulaq as sonacan.
– Lobyanın balasına
Maş deyirlər, anacan?

**1974**

## DÜYÜ

Dibində su göl olsa,
Məhsulu da bol olar.
“Ayağından su içər,
Dimdiyindən balalar”.
Sarı köynək içində
Gizlənibdir ağ düyü.
Qoymarıq yerə düşsün
Bir dənəsi çəltiyin.
Atam döyər çəltiyi,
İçindən çıxar düyü.
Plov bişirər anam,
Yeyərik səhər-axşam.

**1975**

## ETİBARIN TƏZƏ TANIŞLARI

Odlar yurduna
Gələndə bahar,
Yollandı kəndə
Bizim Etibar.

Çölə-çəmənə
Tutdu üzünü.
Gəzdi səhərdən
Axşama qədər.

Təqdim elədi
Ona özünü
Tanımadığı
Təzə bitkilər.

## DANAQIRAN

Ağ çiçəklərim
Torpağı yardı,
Qarı düşündü,
Yəqin bahardı!
Tələm-tələsik
Yaylağa köçdü.
Dana-buzovu
Çovğuna düşdü.
Qış yuxusundan
Hamıdan əvvəl
Duran mən oldum.
Qarı nənənin
Danalarını
Qıran mən oldum…

## BALDIRĞAN

Ağ çiçəyim var,
Baldırğanam mən.
Çay qırağında
Salmışam məskən.

## KƏVƏR

Soğan kimiyəm,
Adımsa kəvər.
Dəcəl uşaqlar
Məni çox sevər.

## KƏKLİKOTU

Kəklikotuyam,
Unutma ki, sən
Yaman ləzzətli
Çay olur məndən.

## QUŞƏPPƏYİ

Ye, damağında
Qalacaq dadım.
Quşəppəyidir
Mənimsə adım.

## QANTƏPƏR

Məni səhərin
Yelləri öpər.
Dağda bitirəm,
Adım qantəpər.

## QANQAL

Qanqal adını
Dedi əlbəhəl.
Ancaq oğlana
Uzatmadı əl.

Dedi: – İncimə,
Əziz Etibar.
Axı tikanım
Əlinə batar!

## MƏRÖCƏ

Elə bilmə ki,
Yarpaq kimiyəm.
Tumurcuqlanan
Budaq kimiyəm.

Sən də sevirsən
Deyirlər məni.
Yağda qovurub,
Yeyirlər məni.

## QUZQULAQ

Turşməzəyəm mən,
Adım quzqulaq.
İnanmırsansa,
Ye, dadıma bax!

## TƏKƏSAQQALI

Xatırladıram
Yekə saqqalı.
Mənə deyirlər
Təksaqqalı.

Gör dəcəl məni
Salıb nə kökə? –
Saqqalını da
Heç yeyər təkə?!

## GİCİRTKƏN

Mənə yaxın gəl,
Qorxma, ay oğlan.
Dalamağıma
Baxma, ay oğlan.

Özüm ləzzətli,
Atım gicitkən.
Neçə dərdlərin
Dərmanıyam mən.

## YEMLİK

Sarı, ətirli
Çiçəklərim var.
Məni çox sevir
Bütün uşaqlar.
Çox ləzzətliyəm, –
Dedi  ki, yemlik.
Şəhərli oğlan
Yedi yemlik.

## ŞAHPENCƏRİ

Şahpencəriyəm,
Bilir uşaqlar.
Mənsiz dovğanın
Nə ləzzəti var?!

## ƏVƏLIK

Ay oğlan, mənə
Baxmırsan nədən?
Elə bilmə ki,
Quzqulağam mən.
Adım başqadır,
Dadım başqadır.
Hamının məndən
Çox gəlir xoşu.
Heç yemisənmi
Əvəlik aşı?!

## ÇİRİŞ

Gələndə bahar,
Güləndə hər yan
Qalxıram göyə
Yaşıl alov tək.
Tanımaq üçün
Məni yaxından
Çiriş kətəsi
Yeyəsən gərək.

## YELQOVAN

Mənsə balaca
Darı kimiyəm.
Külək qoyur ki,
Sözümü deyəm?!

Rahat buraxmır
Bir hovur məni.
Dost, salamat qal,
Yel qovur məni!

## QUZUKÖKƏLDƏN

Quzular üçün
Yaxşı yeməm mən, –
Belə söylədi
Quzukökəldən.

## XAŞXAŞ

Uzaqda durma,
Oğlan, yaxın gəl.
Lalə idim mən,
Bir həftə əvvəl.
Hamı edirdi
Mənə tamaşa.
Ləçəklərimi
Yellər apardı,
Döndüm xaşxaşa.

## YOVŞAN

Dedi bir səslə
Ona yovşanlar:
– Bizi çox sevir
Bütün dovşanlar.

## YARPIZ

El arasında
Xətirliyəm mən.
Boz yarpağım var,
Ətirliym mən.

## MARALOTU

Maralotu belə deyir
Eşitdi ki, Etibar:
– Yarpağımı maral yeyir,
Özəyimi uşaqlar.

## XIMI

Böyük iftixarla
Söylədi xımı:
– Mənim özəyimi
Çox sevir hamı.

## QAZAYAĞI

Zəmi yerində
Bitirəm, oğlan,
Otlar içində
İtirəm, oğlan.

Qazayağıyam,
Ayrı dadım var.
Əgər könlünə
Kətə düşübsə,
Məni dər, apar.

## KƏNDİROTU

Əkin yerində
Salıram məskən,
İnsanlar kəndir
Toxuyur məndən.

## PİŞPİŞƏ

Yaramasam da
Heç bir bişmişə,
Qəşəng otam mən, –
Dedi pişpişə.

## QAMIŞ

Əvvəlcə bunu
Söyləyəm gərək,
Çobanlar məndən
Düzəldir tütək.

Yəqin ki, sənə
Tanışdır adım.
Boyum uzundur,
Qamışdır adım.

## ÇAYIR

Bağbanlar məni
Zərərli sayır.
Alaq otuyam,
Söylədi çayır.

## GƏNDƏLAŞ

Yarpağım kiçik,
Boyum bir qulac.
Mən bir bitkiyəm,
Adım gəndəlaş.
Qara, böyürtkən
Dənəsi kimi
Meyvələrim var.
Ancaq onları
Yemir uşaqlar.

## TURPƏNG

Adım turpəngdir,
Gör ləçəklərim
Necə qəşəngdir.
Ortası sarı,
Ləçəkləri ağ.
Gövdəm çöp kimi
Qurudur ancaq.

## KƏTAN

Mən bir bitkiyəm,
Kətandır adım.
Əgər dünyada
Mən olmasaydım,

Hardan alardı
Axı səninçün
Atan köynəyi?
Kətan köynəyi.

*******

Dedi adını
Qırxbuğum, şüyüd,
Əməkömənci…
Etibarınsa
Aşıb-daşırdı
Bu gün sevinci.
Sonra danışdı
Cincilim, zirə.
Təqdim elədi
Ona özünü
Hərə bir cürə.
Yığıb topladı
Çiçəkdən, otdan.
Gözəl herbari
Düzəltdi oğlan.
Getmədi onun
Vaxtı boş yerə.
Əlləri dolu,
Ürəyi dolu
Döndü şəhərə…

**1971**

# SÖZÜNÜZDƏ İŞIQ VAR, UŞAQLAR, AY UŞAQLAR

## TAR

Pərdələr üstə
Gəzər barmaqlar.
Mizrab titrəyər,
Dilə gələr tar.

Şirin ləhcəsi
Tükənən deyil.
Tarın dilidi
Simlər elə bil.

Hər cürə nəğmə
Tanışdır ona.
Baxır simləri
Danışdırana.

Xahiş eləsən
Əgər tarzənə,
Böyük həvəslə
Çalar tar sənə…

**1976**

## VAXT GÖZLƏMİR

Bir az tələs, ay bala,
Sənə tənbəl deyərlər.
Çıx həyətə, dostların
Yolunu gözləyirlər.

Midilənib deyirsən:
– Qoy gözləsinlər bir az.
Gün batdı, axşam oldu,
Yox, bala, belə olmaz!

Daha gecdi, səmada
Gülümsəyir Ay, oğul!
Hamı səni gözləsə də,
Vaxt gözləmir, ay oğul!

**1978**

## KONDENSİONER

Yayın qızmar çağında
Üşüdüm evə gircək.
Köynək azlıq elədi,
Əynimə geydim pencək.

Sehrli bir qutudur,
Möcüzəsi var onun.
Öz işiylə yaylağa
Döndəribdir aranı.

**1980**

## TƏYYARƏ MEYDANINDA

Səmanın sinəsində
Görünürdü xal kimi.
Birdən meydana endi
Nəhəng bir qartal kimi.
Adamlar yavaş-yavaş
Yaxın gəldilər ona.

Caynağına almadı,
Tez götürüb qoynuna
Yüzə qədər adamı
Qalxdı göyə təyyarə.
Uçanların dalınca
Əl elədi Səyyarə…

**1976**

## TƏYYARƏDƏ

Quş kimi qalxdı göyə,
uçdu o dağdan, dərədən,
Seyr edib ağ buludu
körpə Nigar pəncərədən
Söylədi: – Bax, atacan!
– Orda nə var ki, qadası?
– Hələ mən görməmişəm
bir belə pambıq tayası…

## TƏYYARƏNIN GÖZÜ VARMI

Hava necə gözəldi,
Siz həyətə çıxın bir.
Göydə uçur təyyarə,
Ay uşaqlar, baxın bir!

Onun da qartal kimi
Quyruğu, qanadı var.
Təkcə gözləri yoxdu…
– Gözsüz də uçmaq olar?!

Qəribliyə salmayın
Mənim dediyim sözü.
Təyyarənin gözüdü
Bizim pilotun gözü…

**1982**

## KƏRƏNTİ

Kərənti həmişə
Dik otu biçir.
Əyrinin başının
Üstündən keçir…

**1981**

## HƏRƏNİN ÖZ YERİ

Gəmi dedi qatara:
– Gir dənizə üz görüm!
Qatar güldü: – Ay gəmi,
Çıx quruda gəz görüm!
Təyyarə dilə gəldi:
– Qalx havaya süz görüm.
İnsan gülüb söylədi:
– Var hər şeyin öz yeri!

**1977**

## SƏS QIFI

Səs yazmaq istəyirəm
Mikrafonla mən haçan,
Gülzar durub maraqla
Baxır maqnitafona.

Deyir: – Sanki mikrafon
Səs qıfıdır, atacan,
Ona dediyimiz söz
Axır maqnitafona…

**1981**

## BƏS HAÇAN?

Məktəbə getdi yenə
Ay ana, Gülzar bacım.
Sən də kitab al mənə,
Hər səhər-axşam açım.

Qoy oxuyum astadan,
Bəsdi sayıldım bəbə!
Söylə görüm bəs haçan
Mən gedəcəm məktəbə?

## BUYNUZLU MAŞIN

Baxıb trolleybusa
Güldü balaca Gülzar.
Hər yana səs saldı ki,
Maşının buynuzu var.

## ƏLİM YANIR

Sevinir, təbəssümü
Üzündə ulduz olub.
Gursel qarla oynayıb,
Əlləri bumbuz olub.

Deyir ki, qar topunu
İndi sənə atacam.
Sızıldayır, elə bil
Əlim yanır, atacan!

**1982**

## SAQQIZ

– Saqqız ağacından
Danışır Gülzar,
Ata, heç saqqızın
Ağacı olar?
Ata gülümsündü:
– Düz deyir bacın.
Bitir düzənlərdə
Saqqız ağacı.
Gündüz təəccüblə
Üzümə baxdı:
– Atacan, ağacda
Bitirsə saqqız
Bəs niyə içində
Toxumu yoxdu?

**1982**

## YANAN DAĞ

Gəl sən də bax, ay İlkin,
Dağ yanır elə bil ki.
– Dağ yanırsa, alovu,
tüstüsü hanı, İlqar?
– Bax, alovu lalələr,
Tüstüsü də buludlar.

**1975**

## SOBALAR

Zavodun sobaları
Görün necə ucadır!
Zavodun sobaları
Elə bil ki, fırçadır.
Tüstü sanki boz rəngdi
Bu sehrli fırçanın
Ucunda topa-topa.
Bulud şəkli çəkir o,
Göylərdə topa-topa…

**1977**

## DALA QAÇAN AĞACLAR

Maşında yol gedəndə
Yaman sevinirəm mən.
Yamaclara, dağlara
Baxıram pəncərədən.

Yolların kənarında
Gör nə qədər ağac var.
Biz qabağa gedirik,
Dala qaçır ağaclar…

**1974**

## YIĞDIĞIMIZ DƏMİRLƏR

Dəmir qırıntıları
Toplayırıq xeyli var.
Çəkdiyimiz zəhmətin
Deyirlər ki, xeyri var.

Yığdığımız dəmirlər
Polad relsə dönəcək.
Bir gün qoşa sim kimi
Polad relslər dinəcək.

O simlərdə gəncliyin
Arzusu var, səsi var.
O relslərlə axacaq
Nağıllar qatar-qatar…

**1980**

## SAAT

– Yoruldun, saat,
Dayan bir saat.
– Çıq-çıq, Ayişə,
Mən yatsam, atan
Gecikər işə…

**1975**

## QATARA MİNƏN MAŞIN

Uzanır dəmir yolu
Burda baxırsan hara.
Maşina bax, maşina,
Gedib minib qatara.

Atasıyla bölüşür
Sevinc öz seçincini.
Deyir: – Maşın yorulub,
Yəqin alır dincini…

## QAYIQ

Qayıq düzəldib,
Buraxdım arxa.
İtdi gözümdən
O, axa-axa.
Yuxarı üzmək
Asandır bəyəm?
Üzü yuxarı
Üzən gəmini
Mən yekələndə
Düzəldəcəyəm!

**1974**

## TRAKTOR, MAŞIN

– Traktorçudur atam,
Mən buna xeyli şadam.
– Nə olsun ki, mənim də
Atamın maşını var.
Atanın traktoru
Ona çətin ki, çatar!
– Ay hay, traktor çıxan
Yerə gedərmi maşın?
Atamın traktoru
Titrədir dağı, daşı.
– Atam öz maşınında
Dən daşıyır, ay Əvəz.
– Daşımağa nə var ki,
Taxılı kim əkir bəs?
…Mübahisə etməyin
Boş yerə, ay uşaqlar.
Traktorun öz yeri,
Maşının öz yeri var.

Hərə öz bacardığı
İşi görürsə əgər,
Bundan vətənə, elə
Daha çox xeyir dəyər.

**1977**

## KAPİTAN

Gəmi düzəltdim
Bu gün kağızdan,
Balaca gəmim
Üzür hovuzda.

Hey atıb-tutur
Ləpələr onu,
Gözdən qoymayır
Körpələr onu.

Gəmiyə qoydum
Bir qarışqanı,
Kapitan deyə
Çağırdım onu.

Gəmim dəysə də,
Daşa, kapitan,
Qəza olmadı,
Yaşa, kapitan!

**1974**

## MIXIN CƏZASI

Mıx cırdı paltarımı,
Mənim xətrimə dəydi.
Atama deyən kimi
Onu çəkiclə döydü.

Bir də cırmaz donumu,
Ta bəsdi, dəymə, dəymə!
Atacan, mıx yazıqdı,
Çəkiclə onu döymə!

**1981**

## SU İÇƏN AĞAC

Soruşdu məndən
Bir gün Səbinə:
– Niyə su axır
Tutun dibinə?

– Quruyar axı
Su verməsələr?
– Əmi, ağac da
Su içir məgər?

Güldüm: – Bəs necə,
Bilmirdin, qızım?
– Yəqin yerdədir
Ağacın ağzı…

**1976**

## NƏNƏNİN SUALLARI

Bir gün nəvələrini
Yığıb başına nənə,
Suallar yağdırırdı
Onlara dönə-dönə:
– Bir ildə dörd fəsil var,
Bir fəsildəsə üç ay.
Bir ayda neçə gün var,
Söylə görüm, ay Qaçay?
– Bir ayda otuz gün var.

– Düzdür, qoy desin Murad:
Bir gündə, bir sutkada
Olur nə qədər saat?
– Nənəcan, bir sutkada
İyirmi dörd saat var.
– Düzdür.
Qoy indi mənə
Desin görüm Etibar
Neçə dəqiqə olur
Bir saatda?
– Bilirəm,
Olur altmış dəqiqə.
– Düzdür,
qoy desin Əkrəm,
Neçə saniyə olur
Bir dəqiqədə?
Nəvə
Yaxın gəlib bir qədər
Sual verən nənəyə,
Dedi: – Bir dəqiqədə
Olur altmış saniyə…

**1978**

## ONA QƏDƏR SAYAN QIZ

– Bir qulaq as, anacan,
Mən sayıram onacan.
– Di say görüm, ay qızım,
Mənim çörəyim, duzum.
– Bu bir, bu iki, bu üç,
Bu dörd, bu beş, bu altı.
– Ona yetişmək üçün
Söylə, neçəsi qaldı?

Bilsən, demək bilirsən
Saymağı da onacan.
Hələ dörd barmağımı
Yummamışam, anacan!

**1977**

## ƏLLƏRİMİ VERMƏRƏM

İki alma var əlimdə,
Biri sənin, biri mənim.
Bu da bir cüt nar əlimdə,
Biri sənin, biri mənim.
Dost, qoy
xətrinə dəyməsin
Sözüm indi.
Əllərimə nə baxırsan,
İkisi də özümündü…

**1977**

## RƏNANIN SUALI

Baharın xoş çağında
Rəna getmişdi kəndə.
Bir gün anasıyla o
Gəzişərkən çəməndə
Gah yaşıl ota baxdı,
Gah qara saçlarına.
Dedi: – Niyə çəmənin
Saçı yaşıldır, ana?

## ÜMİDƏ

– Adın nədir?
– Ümidə.
– İncimisən
Əmidən?
– Bəli.
– Niyə, ay qızım?
Mənim şəkərim, duzum.
– Xətrimə dəyib dünən,
İncimişəm əmidən…

**1973**

## KÜLƏYƏ DE

Nə olubdur görəsən
Haray qoparır külək?!
Papağımı başımdan
Alıb aparır külək.

Niyə dinmirsən, ana,
Üşüyürəm mən axı?!
Küləyə de, başımdan
Çıxarmasın papağı!

**1976**

## ALMA

– Alma bərkmi, ya yumşaqmı?
– Yoxlamasam, nə bilərəm?
– Almanın ətri necədir?
– Qoxlamasam, nə bilərəm?

– Alma xırdamı, irimi?
– Görməsəm, deyə bilmərəm.
– Alma turşmu, ya şirinmi?
– Yeməsəm, deyə bilmərəm.

**1976**

## ƏN DADLI ALMA

Çıxdım uca ağaca,
Alma yığdım bir səbət.
Dedim: – Seç alma götür, –
Yaxın durmadı Söhbət.

Bir qırmızı almanı
O göstərib uzaqdan,
Dedi: – Ən dadlı alma,
Əmi, qalıb budaqda…

**1975**

## TƏMİZKAR İT

İt hürcək "ham-ham",
Söyləyir Tamam:
– Ana, itimiz
Çimmək istəyir.
– Nədən bilirsən,
Qızım, söylə bir?
– Eşitmirsən bəs
Eləyir "ham-ham",
Deyir mənimçün
Qalayın hamam!

**1973**

## GÜNƏBAXAN

Qopartdı dəcəl oğlan,
Qəşəng bir günəbaxan.
Ləçəyini artladı,
Tumlarını çırtladı.
Sonra dedi ki, Elxan
Sanki arı şanıdır
Tumu yox günəbaxan…

**1974**

## MORUQ VƏ QƏŞƏM

– Mən qırmızıyam,
Sanki günəşəm,
Böyürtkən kimi
Dənəş-dənəşəm.

Moruğu görcək,
Sevindi Qəşəm:
– Moruq yeməkdir
Mənim də peşəm…

**1974**

## CƏFƏR

Bağa girmək
İstər Cəfər.
Tikanlıdır
Ancaq çəpər.
Tapdı bağın
qapısını,
Dedi: – Dərim

Meyvələrin
Hamısını.
Bağban dedi:
– Bekar qalma,
Gör nə çoxdur
Armud, alma!
Silkələdi,
Yerə düşən
Meyvələri
Saydı Cəfər.
Yer qalmadı
Heç almaya,
Bir armudla
Doydu Cəfər.

**1975**

***

Bir sızqa bulaq da
itməsin,
Suları havayı
axmasın!
Acı ot bitincə,
bitməsin,
Şor bulaq çıxınca,
çıxmasın!

**1981**

## ŞAR, YOXSA…

Şar söyləyirdi Aya,
Bizim balaca Röya.
Bir axşam o, səmada
Ayı gəzdi, aradı.
Dedi, şar bütöv idi,
İndi niyə paradı?

Ağladı ki, tez olun,
Şar yenə bütöv olsun.
Yəqin ki, o boşalıb,
Üfürün yenə dolsun!

**1977**

## FİDAN

Fidan göstərib
Kiçik fidanı,
Dedi: – Bəs bunun
Anası hanı?

**1973**

## ŞARIMA BAX, ŞARIMA

Üfürdükcə dərisi
Çəkiləcək tarıma.
Şişib nə boyda oldu,
Şarıma bax, şarıma!

Çırtma ilə vururam
Qalxır tavana qədər.
Döşəməyə enincə
Sayıram ona qədər.

Bir gör haraya endi
O dəcəl uça-uça?
Düşüb qazın üstünə,
Şar oldu parça-parça…

**1977**

## ƏNCİR YARPAĞI

Görmüsənmi, ay Aslan,
Bağda əncir yarpağı?
Elə bil ki, bir əldir,
Üstündə beş barmağı…

**1975**

## TƏNBƏL

Dedim ki, get su gətir,
Səpək çiçəyə, gülə.
– Nə yeyib ki, bu güllər
Su içirlər bir belə?

**1975**

## ÇİNARLAR OLMASA

Bu çinarlar olmasa
Göy göydə durmaz deyir.
Hərəsi bir dirək tək
Çiynində saxlar göyü…

**1975**

## GƏL BÖLƏK

Bir almam var, bir ağacım,
Gətir bölək onu, bacım.
Üzu güldü Yasəmənin:
– Alma mənim, ağac sənin.
– Nə deyirəm, güldü Elşən,
Becərərəm ağacı mən.
Üstündə çox alma olar,
Səninsə bircə alman var.

**1975**

## YELLƏNCƏK

Yelləncəyə mindirdi
Məni qardaşım Aslan.
Yelli-yelli yelləndi
Yelləncəyim bir azdan.
Quş kimi qanad açdı,
O yan, bu yana uçdu.
Mən də ona qoşuldum,
Elə bil ki, quş oldum.
Uçdum o yan, bu yana,
Əl elədim Aslana.

**1976**

## SÖHBƏTİN SƏBƏTİ

Meşədən yığmışdı
Göbələk,
Geyriyə dönürdü
Sevincək.
Yol boyu qızışdı
Söhbətə,
Göbələk qalmadı
Səbətdə.
Xəbəri olmayıb
Söhbətin,
Deşiyi var imiş
Səbətin…

## SABAHIN SORAĞINDA

Səpdiyin dən
safsa, bitəcək,
İtirmə sabaha
ümidi, oğul.
Bir dən –
bir sünbüldü,
Bir sünbül –
bir dərzdi,
Bir dərz –
bir zəmidi, oğul!

**1982**

## GÖZ

Göz –
Ağ dənizdə
qonur ada,
Kirpiklərsə sahildə
Bir qara çəpər.
O ağ dəniz
dalğalanar,
Sahillərə
inci səpər…

**1982**

## NƏNƏNIN ÜZÜ

Nənənin üzü
Qırış-qırışdı.
Zaman elə bil
Sehrli xışdı…

**1982**

## BABANIN BIĞLARI

Sanki kəl buynuzudu,
Bax babanın bığına!
Bəs nə üçün ağarıb,
Yoxsa batıb bığ una?
Dedim ki, yu bığını,
Neynir axı bığ unu?
Gülüb dedi: – Doğrudur,
Sü gətirdim sevincək.
Ha yudu, un getmədi,
Bığ qaldı əvvəlki tək…

**1978**

## ŞƏHƏRDƏ QAZ

Gəlib şəhərə,
Qaza bax, qaza.
Çıxıb küçəyə,
Qorxuram aza.

Boylanıb baxır
O, qərib-qərib.
Bəlkə nənəmin
Yanından gəlib?

Məni tanıdı
Deyəsən axı?!
Görmürsən necə
Üzümə baxır!

**1979**

## GÜZGÜ

Səhərlər duran kimi
Ona salam verirəm.
Qəribə pəncərədir,
Baxanda heç kəsi yox,
Tək özümü görürəm.

**1975**

## NEFT

Belə deyir bizm Sadıq,
Neft süddür, mazut qatıq.
Yağı yağ, sabunu pendir…
Gülmək istəyirsən əgər,
Yaxın gəl, Sadığı dindir.
Sadıq elə danışır ki,
Sözünə hamı heyrandı.
Soruşdum: – Bəs benzin nədi?
Cavab verdi ki, ayrandı…

**1981**

## BİZİM KÜÇƏ

Küçələrin yaxşısıdı
Bizim küçə.
Qucağından maşın seli
Axıb keçər.
Ata, həm də küçəmizdə
Çoxlu göydələn var axı!
Binalar sanki kitabdır,
Mərtəbələrsə varağı…

**1980**

## MƏLƏYİN CÜCƏLƏRİ

Cücələri çox sevir
Bizim balaca Mələk.
Umac səpir onlara
Hər səhər ələk-ələk.

Söyləyir bacısına
Qış gəlir bu gün-sabah.
Cücələrə don tikək,
Nə olar, ay Gülsabah!

Bir iş gəlmir əlindən,
Haray yoxdu toyuqdan.
Yazıqlar bütün qışı
Əsməsinlər soyuqdan.

**1976**

## SAHİLDƏ

– Bu nədir ki, atacan?
– Qızım, balıqqulağı.
– Balığın qulağını
Niyə kəsiblər axı?

**1976**

## BALIQLAR ELƏ BİLİR

Sudan çıxa bilmirlər,
Sanırlar ki, balıqlar,
Dənizin üzü səma,
Təyyarədi qayıqlar…

**1976**

## QIRXILAN SAÇLAR

Dəllək mənim saçımı
Qırxdı, mən də kuklanın.
Mənim başım tükləndi,
Kuklamın saçı hanı?

**1976**

## ÖZÜDURAN KUKLA

Özüduran kuklanı
İstəyir yıxsın külək.
Əyilsə də, düzəlir
Yenə də əvvəlki tək.

**1976**

## BADALAQ

Ayağı daşa ilişdi,
Tural üz üstə düşdü.
Dedi: – Əmi, daşa bax,
Mənə vurur badalaq…

**1982**

## MƏN AYIDAN KÜSMÜŞƏM

Bir pencəyində ayı,
Birində fil şəkli var.
Gah onu, gah da bunu
Geyir əyninə Vüqar.

Səhər durub yuxudan
Öz-özünə deyinir:
– Mən ayıdan küsmüşəm,
Fili verin geyinim…

**1982**

## AĞCAQANAD

Qoymur ki, rahat yatım,
Ağcaqanad səs salır.
Qulağımın dibində
Səhərəcən saz çalır.

**1982**

## SAAT KƏFKİRİ

Saat kəfkiri tez-tez
Yellənib sola, sağa,
Mən çəkib aparıram, –
Deyir, – vaxtı qabağa…

**1982**

## DİLİN CƏZASI

Qışqırdım, qulağımdan
Atam yapışıb çəkdi.
Dilimin cəzasını
Yazıq qulağım çəkdi.

**1982**

## TƏBRİZƏNİN GÜNAHI

– Oğlum, niyə vurmusan,
Neyləyib ki, Təbrizə?
– Nağıl danışan zaman
Qulaq asmır o bizə!

**1983**

## KAMAN

Bir dilim qarpız yeyib,
Fikirləşdim azacıq:
Ucuna ip bağlasan,
Kaman olar bu qabıq…

**1984**

## ALÇA

Alça görəndə
Ağzım sulandı.
Birini yedim
Desəm, yalandı.
Çərdəyin sayı
Əllini aşdı.
Ay aman, mənim
Dişim qamaşıdı…

**1976**

## ÜZÜM HANI?

Danladım ki,
Arzumanı
Üzümə bax.
Soruşdu ki,
Üzüm hanı?

**1984**

## ÖZ-ÖZÜNƏ UZANIR

Ay-ay-ya, dırnağa bax!
Utanmırsan, ay uşaq!
Oğlan baxıb qadına,
Belə söylədi ona:
– Öz-özünə uzanır,
Mən neyləyim, ay ana!

**1982**

## BƏYİM

– Döyülməyin gəlibdir
Bəlkə yenə ay Bəyim?
– Yox, mən sözə baxanam,
Gəlməyib döyülməyim.

**1976**

## MƏN BALACA DEYİLƏM

Atam niyə deyir ki,
Balacadır Xuraman? –
Stolun üstə çıxıb,
Böyük oldum xalamdan.

**1977**

## GÜMÜŞ

Kəmərim var gümüşdəndi.
Üstündə var gümüş bəndi.
Endim dəniz sahilinə,
Dalğalar da gümüşləndi…

**1977**

## QIZIL

Üfüqə bax, qızıl dandı!
Şəfəq sanki qızıldandı.
Günəş qalxdı dağ dalından,
Çöllər, düzlər qızıllandı…

**1977**

## NƏ GÜLMƏLİ BƏBƏDİ

Yaman şeytan baladı
Bizim kiçik Rəbiyyə.
Deyir ki, gəlin baxın
Güzgüdəki bəbəyə.
Tərpədirəm əlimi,
O, əlini tərpədir.
Mənim ağzımı əyir,
Nə gülməli bəbədi?!

**1981**

## ÇİYƏLƏK

Televizorda çayı
Görən kimi Çiyələk.
Soyunur ki, atacan,
Gedib "çim-çim" eləyək!

**1977**

## SÜSƏN

Qonşunun qızı bizə
Gəlcək, sevinir Süsən.
Deyir: – Bacı, sən məni
Aparmağa gəlmisən?

**1981**

## KÖRPƏ

Sən bizim körpəyə bax,
Sanki dil bilir.
Ağlayanla ağlayır,
Gülənlə gülür.
Ona bir şey uzatsan,
Əlini açır.
Su görəndə susayır,
Süd görcək acır…

**1972**

## QOZA

– Qoza çox acı olur,
Necə yedi palıdı?
– Donuz üçün hər qoza
Şəkər idi, bal idi…

**1978**

## SIFIR

İki “sıfır” “bir” ilə
Birləşəndə, yüz oldu.
Fazaya dəydi “sıfır”,
Gecələr gündüz oldu…

**1981**

## GƏVGƏZ

Gəvgəz, ay gəvgəz,
Bostanda az gəz!
Sən şitillərin
Kökünü az kəs!
Bostan qurusa,
Çətin dözərəm.
Sənin başını
Bellə əzərəm…

**1973**

# İŞIQ NƏĞMƏLƏRİ

## OD QILINCI

Cibimdə kibritim var,
Arxayınam ona mən.
Tək olsam da meşədə,
Çəkinmirəm heç nədən.

Kibritin qarası qın,
Dənəsi bir qılıncdı.
Əl ataram mən ona,
Çaqqal, yerində dinc dur!

Ay azğın canavarlar,
Siz məni az izləyin!
Qılıncı qından çəkdim,
Özünüzü gözləyin!

**1984**

## ULDUZLARIN YANINDA

Nöqtə boyda görünür,
Ancaq o, kiçik deyil.
Çəkilir göy lövhəyə,
Tabaşirdi elə bil…

Ulduzların yanında
Quş tək səkir təyyarə.
Göy səmada elə bil
Ağ yol çəkir təyyarə.

Doğrayır buludları,
İldırımdı, ildırım.
Ulduzmu əkəcəkdir
Göylərə salıb şırım?

**1977**

## İŞIQ ÇƏMƏNİ

Gecə Bakıya baxdım,
Küçələr nə qəşəngdi!
Şəhər sanki çəməndi,
Hər işıq bir çiçəkdi…

**1975**

## ULDUZLARIN NƏNƏSİ

Ulduzlara bax, ayın
Dövrəsində sayrışır.
Elə bil ay onlara
Şirin nağıl danışır.
Burda nura qərq olur
Gecə olsa da hər yan.
Bəlkə ay ulduzların
Nənəsidir, anacan?

**1975**

## İŞIQLI XONÇA

Ulduzları seyr elə,
Hərəsi bir qönçədi,
Pardaqlayıb bir anda
"Köynəkləri" yardılar.
Ay elə bil xonçadı,
Ulduzlar şamlardılar.

## İŞIQ NÖVBƏTÇİSİ

Hər ulduz bir işıqdır,
Nurunu say gecənin!
İşıq növbətçisidir
Elə bil Ay gecənin…

## ULDUZLAR

Ulduzlar lümək-lümək,
Ulduzlar qəşəng-qəşəng.
Qaranlığın qoynunda
Ulduzlar parlaq çiçək.

Saymaq ilə qurtarmaz,
Gör nə qədər ulduz var.
Ay elə bil toyuqdur,
Cücələri ulduzlar.

**1973**

## ELƏ BİL ÇİÇƏKDİLƏR

Ulduzlar toxum kimi
Göylərə səpələndi.
Ulduzlardan gecənin
Qoynuna nur ələndi.

Seyr edirəm uzaqdan,
Gör necə qəşəngdilər.
Elə bil ki, çəməndə
Ulduzlar çiçəkdilər.

**1976**

## ULDUZLU DON

– Ulduzlar naxış-naxış
Səpələnib donuma.
Atacan, bəs ay niyə
Uçub gəlmir yanıma?

– Ay nəyinə gərəkdi,
Məzən olsun, ay Süsən?
Ulduzlar arasında
Sən elə ay kimisən…

**1976**

## İŞIQ ADASI

Gecə göylərə baxdım,
Qulaq asıb qəlbimin
İstəyinə, sözünə.
Elə bil ki, günəşi
Xırda-xırda doğrayıb,
Səpiblər göy üzünə.
Gecə göylərə baxdım,
Nə qədər işıq yanır
Səmaların üzündə.
Elə bil ki, hər ulduz
Bir işıq adasıdır
Qaranlıq dənizində…

**1976**

## AYDINLIQ GECƏ

Ay işığında
Çöllər, çəmənlər
Gözəldir necə?
Elə bilirsən
Qızıl suyuna
Çəkilib gecə…

**1978**

## AY UÇDU, UÇDU…

Ay uçdu, uçdu, uçdu,
Qanadlanıb Ay uçdu.
O qurtardı canını,
Bulud örtdü üzünü.
– Buludlardı ötüşən,
Ay deyil ki, ay qızım!
Ay uca, ulduz uca,
Səma nurla doludu.
Nə ulduza, nə aya
Əli çatmaz buludun…

**1978**

## ŞAM

Söndü işıqlarımız,
Doldu evə qaranlıq.
Yaxşı ki, onun ömrü
Evdə oldu bir anlıq.

Anam yandırdı şamı,
Nə qədər sevindim mən.
Kiçik şamda gücə bax,
Zülməti qovdu evdən.

Əriyib gilə-gilə
Şəfəqlərə döndü şam.
Qaranlıqda qalmadıq
Nə yaxşı ki, bu axşam.

**1976**

## ƏSKİK OLMASIN

Çəkdiyi şəkillərin
Hamısının yanında
Günəş şəkli çəkir o, –
Həvəsə bax sən onda!
Dedim ki, günəşi poz,
Dedi: – Səndən küsdüm mən.
Günəş əskik olmasın
Dünyamızın üstündən!

**1985**

## GÜNƏŞ KÜSÜBDÜR

Yayda dedik istidir,
Kənar qaçdıq günəşdən.
İndisə payız gəlib,
Günəş istəyirəm mən.

Hanı əlvan şəfəqlər
Dururam səhər tezdən.
Yəqin küsübdür günəş
Bizim sözlərimizdən…

**1972**

## GÜNƏŞİN YORĞANI

Günəş gedir yatmağa,
Günəş gedir batmağa.
Sanki yuxusu gəlir,
Diqqətlə bax sən ona.
Dağ yorğandır elə bil,
Günəş girir altına…

**1973**

## GÜNƏŞ NƏNƏ

Çöllər, düzlər, dağlar, daşlar
Don geyməmiş şəfəqdən,
Səhər-səhər günəş nənə
Boylananda üfüqdən,

Gündüz güldü, harayladı
Bacısını otaqdan.
Söylədi ki, gəl şara bax,
Dayanıbdır uzaqda.

Tez yığıldılar səs-küyə,
Balkon uşaqla doldu.
Qalxdı, qalxdı, mənim şarım
Bıy, birdən günəş oldu…

**1976**

## SÜBH

Necə gözəl bir mənzərə,
Uşaqlar, baxın Xəzərə!
Görürsünüz, günəş çıxır,
Su içindən atəş çıxır…

**1981**

## GÜNƏŞ ÇIXIR TƏZƏCƏ

Günəş çıxır təzəcə,
Göy suların üstündə
Qızılı bir yol salır.
Durub bu mənzərəyə
Baxanlar heyran qalır.
Yolu – işıq zolağı, –
Dənizin qucağında
Qızıl adadı günəş.
Elə bil təbiətin
Bu mavi varağında
Qızıl nidadı günəş!

***

Günəş çıxır təzəcə,
Dur sən də bax, ay qızım!
Üfüq sanki təndirdi,
Qızarıb qıpqırmızı.

Boylandı, hamımıza
Sevinc gətirdi günəş.
Sanki təndirdən çıxan
Qızıl fətirdi günəş…

**1981**

## İŞIQ BULUDU

Günəşə bax, dünyanı
Tamam qərq edib zərə.
Sanki nur bulududu,
İşıq yağdırır yerə…

**1982**

## CƏRƏYAN

Sən inək sağırsan,
Sən qoyun qırxırsan.

Nur olub tellərlə
Evlərə axırsan.

Soyuda bilirsən,
İsidə bilirsən.

Sən paltar yuyursan,
Döşəmə silirsən.

Həmişə anama
Köməyə gəlirsən…

**1975**

## İŞIQÇI

Qaydaya sal xətləri,
Nura boya kəndləri!

İşıq göndər, işıqçı,
Darıxmışıq işıqçın!

Rəngbərəng lampalarla
Küçəmizi gəl bəzə!

Yenə məhəlləmizdə
Gecə dönsün gündüzə…

**1974**

## İŞIQ AĞACI

Baxın, işıqçı əmi
Hər evə işıq çəkib.
Bağban tək küçələrdə
İşıq ağacı əkib.

Axşam o, işıqları
Yandırmağa yollanır.
İşıqlar meyvə kimi
Dirəklərdən sallanır.

**1972**

## İŞIQ MƏNİM DOSTUMDU

Gecədən qorxduğumu
Elə bil ki, bilir o.
Qaranlıq düşən kimi
Evimizə gəlir o.

Gülümsəyir bir anda,
Nurlandırır küçəni.
İşıq mənim dostumdu,
Qovalayır gecəni…

**1981**

## MAQNİTAFON

Elə bil qulağıdır
Dəlik-dəlik mikrafon.
Danışdım, sözlərimi
Dinlədi maqnitafon.

Mən susdum, bircə anda
Dilə gəldi, danışdı.
Dayan, dayan, atacan,
Bu səs mənə tanışdı.

Nə demişdim söylədi,
Əcəb yaddaş var onda.
Dediyimin hamısı
Necə qalıb yadında?

**1976**

## TOK ÇAYDANI

Gərək ocaq qalayıb,
Çay qoyaydın bir zaman.
Hər şeyin əlacını
Tapır zəhmətkeş insan.

İşdən gəlmisən, otur,
Çay dəmləyim, ay ana.
Birləşdirim şunurla
Cərəyanı çaydana.

Qapaq rəqsə başladı,
Onu tərpətdi buxar.
Su qaynadı, deməli
Çayı dəmləmək olar.

**1976**

## OCAQ

“Qalstuku” var
Sarı, uzunsov,
Onun yanında
Dayanmışam mən.
Sanki ocağın
Dilidir alov,
Yaşıl otları
Yalayır yerdən.

**1976**

## AYDINLIQ GECƏ, QAZLAR VƏ ULDUZ ƏKSİ

Yel əsdi asta-asta,
Şən ləpələr oynadı.
Əks eləyir göyləri,
Göl elə bil aynadı.

Bu aydınlıq gecədə
Göylər nələr demirdi?
Ulduzlar sanki göydən
Enib göldə çimirdi.

Cumurlar əksə sarı,
Seyr eləyin qazları.
İstəyirlər ki, tutub
Udsunlar ulduzları.

Ulduza dimdik çatmaz,
Qazlar düşmürlər başa.
Ulduz tutmaq istəyən
Dimdiklər çıxır boşa…

**1977**

## ANTENA

Antenaya baxın bir,
Yaxın edir uzağı.
Sanki televizorun
Qulağıdır, qulağı.

Onlar olmasa əgər,
Televizor göstərməz.
– Antenanın üstündə
Cik-cik edən sərçələr
Ekranda görünmür bəs?

**1977**

## YUXU

Yuxumda görmüşəm ki,
Quş olmuşam, ay ata.
Uçub göyərçinlərə
Qoşulmuşam, ay ata…

**1975**

# UÇANLAR VƏ QAÇANLAR, KÖNLÜMÜZÜ AÇANLAR

## QUŞ BAZARI

Səsdən tutulur qulaq,
Quşla doludur hər yan.
Belə də bazar olar, –
Nə alan var, nə satan?!

**1975**

## QUŞ VƏ MƏN

Oturmuşdum ağacda,
Bir quş gördüm yamacda.
Düşüb getdim yamaca,
Uçub qondu ağaca…

**1973**

## ANA QANADI

Hey təpikləyib,
Açır üstünü.
Ana danlayır
Dəcəl Hüsünü.

– Yorğanı atsan,
Xəstələnərsən.
Yenə də sənə
İynə vurum mən?

– Körpə quşların
Yorğanı yoxdu.
Bəs üşümürlər,
Axı soyuqdu?

– Açıq qalmır ki,
Onların üstü.
Yorğanları var
Axı, ay Hüsü!

Mənim gül balam,
Özün düşün bir:
Ana qanadı
Yorğan deyildir?

**1976**

## LEYLƏKLƏ SÖHBƏT

– Mənə çox dən vermisən,
Nə bağışlayım sənə?
– Mümkünsə lələyinin
Birini göndər mənə!

**1975**

## EV İÇİNDƏ EV

Deyirəm evimizdə
Qaranquş yuvası var.
Deyir ki, inanmıram,
Ev içində ev olar?!

**1974**

## KƏKLİK

Bilmirəm nə görmüsən
Sən axı dağda, daşda?
Oxumasan darıxar,
A kəklik, dağ da, daş da.

Əzəldən yaraşıqsan
Bizim obaya, elə.
Nə çox qaqqıldayırsan,
Gülmək olar bir belə?!

**1975**

## XINALI KƏKLİK

Xınalı kəklik
Belə söylədi:
Gözəl adım var.
Ayaqlarımı
Xınalayıbdır
Daşlar, qayalar.
Kənardan baxan
Çox həsrət çəkər,
Yeriyən zaman
Mən səkə-səkə.

***

Bir vaxt uçdu havada,
İndi bişir tavada.

**1972**

## TURAC

Mən öz ömrümü
Güllü çəməndə
Başa vuracam.
Nə tərifləyim
Özümü axı,
Mən də turacam!

**1972**

## QARTAL

Qartal dağdan güc aldı,
Qanad-qanad ucaldı.
Yerə düşdü o, birdən,
Elə bil ki, daş idi.
Şığıyıb cücələri
Caynaq-caynaq daşıdı.

***

Buludlar ilə
Yaxın qonşudu.
Tanıyın onu,
Zirvə quşudu...

**1972**

## QUR-QUR

Budaqdan uçdu qur-qur,
Qəribə quşdu qur-qur.
Qur-qur edir dinəndə,
Belə quş səsi olar?
Ay aman, bəlkə onun
Qarnında qurbağa var?

**1973**

## GÖYƏRÇİNİM

Məndən qorxmayır
Bax, göyərçinim.
Qonub çiynimə
Ağ göyərçinim.

Dən səpdim yedi,
Su verdim içdi.
"Kiş-kiş" elədim,
Havaya uçdu.

Boylanıb baxdım,
Göy nə qəşəngdi.
Ağ göyərçinim
Sanki çiçəkdi…

**1976**

## GÖYƏRÇİN

– Anacan, bu quşun
De, nədir adı?
– Göyərçindir, qızım! –
Qız bərk ağladı.
– Ay bala, nə oldu,
Ağlama zar-zar?
– Adımı bu quşa
Niyə qoyublar?

**1972**

## ANQUT

Gözlərimdə canlanır
Hər vaxt onun şəkili.
Düz boynu, yumru başı,
Tündə çalan kəkili.

Tez-tez suya baş vurur,
Bənzəri var dalğıca.
Üzməyi çox xoşlayır,
Həvəsi yoxdur uça.

Belində balaları
Üzür, o, çox sayıqdı.
Balaları sərnişin,
Anqut sanki qayıqdı…

## ÖRDƏYƏ BAX, ÖRDƏYƏ

Mən suya girsəm əgər,
Yamyaş olar paltarım.
Bircə aya köhnələr,
Nimdaş olar paltarım.

İndicə çıxmış sudan
Seyr elə ördəkləri,
Heç biri islanmayıb,
Qupqurudur tükləri…

## ÖRDƏK

Göllərin mənsiz
Axı nə günü?
Haqqım yoxmudur
Bir az öyünüm?

Bütün quşların
Mən ki, xasıyam.
Hamı bilir ki,
Su sonasıyam.

Ördəyəm, ay dost,
Mənə baxsana!
Gözəl olmasam,
Deməzlər sona.

**1972**

## SƏRÇƏ BALASI

Lovğalanıb demirəm
Havada doğulmuşam.
Çinarın ovcundakı
Yuvada doğulmuşam.

**1975**

## SƏRÇƏ

Tanıyarsınız,
Adım sərçədir.
Elim bircədir,
Obam bircədir.

Ana yurdumu
Mən tərk etmərəm.
Bahar dalınca
Uçub getmərəm.

**1972**

## PÜSTƏNİN KƏŞFİ

Sərçələr tellər üstə
Qonduqca dəstə-dəstə,
Yeni bir "kəşf" elədi
Bizim balaca Püstə.

Çağırdı uşaqları,
Səs götürdü küçəni.
Dedi ki, ay uşaqlar,
Tok vurmayır sərçəni…

**1973**

## TORAĞAY

Mənim bəzi quşlar kimi
Səbrim tutmaz kol içində.
Qorxum yoxdu heç bir şeydən,
Hey gəzirəm yol içində.

Bu dünyanın hər yerinə
Öz nəğməmi gərək yayam.
Xoş səsimi eşidəndə
Bilsinlər ki, torağayam.

**1972**

## ŞANAPİPİK

Alabəzək quşam mən,
Pipiyim şana.
Gör nə qəşəng quşam mən,
Sən də baxsana!

Ancaq ehtiyatlıyam,
Dost, verərəm can,
Şananın sapı bilib,
Tutsan boynumdan.

**1972**

## QAZLAR

Həyatimizdə
Bir sürü qaz var.
Yaman qəşəngdi
Bizim bu qazlar.
Boyunlar uzun,
Ayaqlar qısa,
Bax, yanlarını
Hey basa-basa
Qaçırlar çaya.
Üzgüçü kimi
Cümurlar suya.
Ata qaza bax,
Mehribandır o.
Balalarına
Bil, həyandır o.
Dəysən qazlara,
Hirslənər amma.
“Sıss”… eləyərək
Cumar adama.

## QAZ

Anacan, deyirlər ki,
Ayaq üstə yatır qaz.
Bəs yuxuya gedəndə
Yazıq yerə yıxılmaz?

**1973**

## QAZ TÜKÜ

Necə qəşəngdi,
Sanki ipəkdi.
Nənəm qazların
Tükünü yoldu.
Yığdı torbaya,
Bir yastıq oldu.
Onun üstünə
Qoydum başımı.
Nə oldu mənə,
Döndüm quşamı?
Məni yatırtmaq
Deyilmi hədər?
Gecə uçuram
Səhərə qədər…

**1976**

## QARATOYUQ

Elə bilmə ki,
Qara toyuğam,
Mən kol quşuyam,
Qaratoyuğam.

**1972**

## BALVERƏN QUŞ

Vətəni Afrikadı,
Balverən quşdu adı.
Meşədə bal tapanda
Kəndə aparır xəbər.
Onun ardınca gəlib,
Balı tapır zəncilər.
Pətəkləri tapsa da,
Bal yeməz bircə damla.
Mum yemək xatirinə
Dostluq edir adamla.

## TOVUZ

Zooparka getdi
Qız anasıyla.
Baxdı hər yana
Öz anasıyla.

Bir quş yamanca
Xoşuna gəldi.
Tez həmin quşun
Tuşuna gəldi.

Bir rəngə çalır
Gördü hər tükü.
Lap möcüzəymiş,
Anacan, bu ki?!

Necə zərifdir
Onun qanadı!
Tovuz quşudur
Deyirlər adı.

Daha heç nəyə
Baxmırdı Tovuz.
Niyə zooparkdan
Çıxmırdı Tovuz?

Dilə tutsa da
Anası onu,
Əzbərləmişdi
Sanki qız bunu:

– Başqa quşlarla
Qatma başımı.
Evə aparaq
Mənim quşumu.

**1973**

## HÜNDÜŞQA XORUZU

Hirslənibdir yamanca,
Bax, hündüşqa xoruzu.
Quyruğu çətir kimi,
Pipiyi qıpqırmızı.

Sakit dayana bilmir,
O yan, bu yana səkir.
Qanadıyla torpağın
Üstündə cızıq çəkir…

## ÇİL TOYUQ

Yoxa çıxdı çil toyuq
Bir gün necə oldusa.
Bizə bəlli olmadı
Nə öldü, nə qaldısı.
Kəkliyəmi qoşuldu?
Tülküyəmi tuş oldu?
Hey axtardıq, axtardıq,
Gördüm deyən olmadı.
Onun tapılmağına
Ümidimiz qalmadı.
Günlər keçdi, həyətə
Mən çıxanda bir səhər,
Gördüm çil toyuq gəlir,
Yanında da cücələr.
Ay can, ay can, çil toyuq!
Onu tapan mənəm, mən.
Qaçıb muştuluq aldım,
Qardaşımdan, nənəmdən.
Cücələrə baxmağa
Gəldi Ülviyyə, Musa.
Çil toyuq itməyibmiş,
Kürt yatıbmış hardasa…

## QUŞUN DİŞİ

Dimdiyinə keçən şeyi
Çeynəməklə yoxdu işi.
Nəyi udsa, həzm eləyir,
Qarnındadı quşun dişi…

**1985**

## TOYUQ NİYƏ QAQQILDAYIR?

– Güllü nənə, yaxın gəl,
Çovustanda toyuq var
Bəlkə "qaqqa" istəyir
Qaqqıldayan toyuqlar?

– Toyuq konfet istəmir, –
Söyləyir ki, ay Nübar:
İndicə yumurtladım,
İstəyirsən gəl apar!

## CÜCƏ

Yumurtanın içində
Cücə var.
Sən bir bu cücədəki
Gücə bax!
Təkan verdi qabığa,
Deşib çıxdı işığa…

**1974**

## QUZU BALA

Qaçıb evə gələr quzum,
Həzin-həzin mələr quzum.

Qoyunları sağar nənəm,
Quzuya süd saxlar nənəm.

Quzum əmib oynaqlayar,
Sərnicdə süd qaymaqlayar.

Hərdən-birdən Gövhər nənə,
Gülümsəyib deyir mənə:

– Gəl yanıma, quzu balam!
– İstəmirəm quzu olam!

**1975**

## QUZULAR

Quzular körpə-körpə,
Quzular rəng-rəng olur. –
Biri qaşqa, biri ağ,
Hamısı qəşəng olur.

**1968**

## QUZU

Mən qoyunun qızıyam,
Gör nə qəşəng quzuyam!
Yaz gəlib, hər tərəfdə
Ot çıxıbdır dizəcən.
Məni ötür xəsilə,
Otuxmuşam təzəcə.
Otlayıb doyan kimi
Həzin-həzin mələrəm.
Qorxma, yenə qayıdıb,
Evinizə gələrəm.

**1972**

## KEÇİ

Elə ömrüm uzunu
Mənə dəcəl deyiblər.
Buynuzumu göstərib,
Lağ ilə kəl deyiblər.

Keçiyəm, qəzilimdən
Əgər hörsələr sicim,
Nə öküzün, nə kəlin
Qırmağa çatmaz gücü.

**1972**

## ÇOBAN

Toppuzlu çomağını
Götürübdür əlinə.
Qotazlı xurcununu
Qoyub atın belinə.

Əkiz bala alıbdır
Çoban qumral qoyundan.
Bir quzu başı çıxıb,
Xurcunun hər tayından.

**1974**

## BUZOV

Düz bir aydır doğulub
Bizim bu ala buzov.
Anam deyir: – Ay Nadir,
Körpədi, onu az qov!
Sən ki yekə oğlansan,
Bilmirsən, beş yaşın var!
Yazıqdı, qoy dincəlsin,
Buzovla nə işin var?!
O hələ südəmərdi,
İstəmir otu, suyu. –
Yaşı məndən kiçikdir,
Məndən yekədir boyu.

**1973**

## TƏPƏL BUZOV

Təpəl buzovu
Həsən hey qovur.
Dinclik verməyir
Ona bir hovur.

Xəstələnibdir
Buzov deyəsən.
Bilmir neyləsin
Balaca Həsən.

Su verir içmir,
Ot verir yemir.
Balaca oğlan
Dincəldim demir.

Haran ağrıyır,
Təpəl buzovum?
Ayaqlarını
Di gətir ovum!

Həkim çağıraq
Barı, anacan.
Mənim buzovum
Sağalar haçan?

Yenə sağ olsun
Baytar Fərmanı,
Əsirgəmədi
Dava-dərmanı.

Sağaldı buzov,
Sevindi Həsən.
Söylədi belə
Baytara əhsən!

Tərifədi də
Onu hər yanda.
Anasıgilə
Söylədi axşam:

– Buzov böyüyüb
İnək olanda,
Mən də böyüyüb
Baytar olacam…

**1975**

## DƏLƏ

Dırmanırsan ağaca
İşıqçı  tək, ay dələ.
Telefon çəkməmisən
Bizim meşəyə hələ?

**1975**

## KÖŞƏK

Yatan zaman altına
Gəl yumşaq ot döşəyim.
Yoxsa narahat olar,
Yerin, mənim köşəyim!

Elə bil ki, yəhərdir
Sənin qoşa hürgücün.
Deyirsən min belimə,
Yox hələ çatmaz gücün.

Körpəsən, yük götürmək
Sənə gəlməsin asan.
Heç darıxma, böyüyüb,
Güclü dəvə olarsan.

**1972**

## ƏMLİK

Əmliyə bax, əmliyə,
Darış gəlib yemliyə.
Tamahlandı Cavanşir,
Cumdu quzunu tutdu.
O, yemliyi alınca,
Əmlik yemliyi uddu…

**1973**

## BİR…

Bir atım var səkildi,
Dostum minib əkildi.
Bir quzum var, qaşqadı,
Onun yeri başqadı.
Bir keçim var, koladı,
Əlimdə duz yaladı.
Bir itim var tuladı,
Quyruğunu buladı.

**1972**

## İNƏK NİYƏ GÖVŞƏYİR

Başında çatı yoxdu,
Ağzında otu yoxdu.
Çaşıb qalmışdı Çiçək,
Bəs nə gövşəyir inək?
Niyə belə eyləyir,
Bəlkə saqqız çeynəyir?

**1973**

## AT OLDUM

Bir dəcəl qulun idim,
Ayağı yalın idim.

İlxıçıya aldandım,
Axır ki, mən nallandım.

Dedi: – Bəsdi xam oldun,
Miniciyə ram oldum.

Atıldım ha, atıldım,
Bir qaçağan at oldum!

**1975**

## MADYAN

Kəhər madyan
Keçdi çaydan.
Qaçdı dayça,
Çay boyunca.
Kişnədilər:
Biri o taydan,
Biri bu taydan.
Dayça dedi:
– Məni gözlə!
– Ardımca gəl! –
Dedi madyan…

**1975**

## QULUNUM

Atlarının doğması
Sevindirdi Qulunu.
Yaman çox istəyirdi
O, balaca qulunu.

Heç atın balasından
Çəkməyirdi gözünü.
Sevə-sevə deyirdi
Ona tutub üzünü:

– Böyüyüb at olarsan,
Mən səni nalladaram!
İnanmırsan sözümə,
Heç səni aldadaram?

Başında təzə cilov,
Belində təzə yəhər,
Kəndimizin seyrinə
Çıxarıq səhər-səhər.

Sən dördnala çaparsan,
Dırnağından od çıxar.
Heç mənim köhlənimin
Qarşısına at çıxar?!

Həmişə dördnala çap,
Yerimə yorta-yorta!
Adamların yanında
Mənə eləmə pərt, ha!

Niyə məndən qaçırsan,
Axı belə şey olmaz.
Sənə ot gətirmişəm,
Qorxma, yaxın gəl bir az.

Məhəl də qoymayırsan
Axı niyə yemə sən?
Ay qulunum, unutma,
Böyümərsən yeməsən…

## MƏSTAN

Məstana bax, məstana,
Gedib girib bostana.
Külək sanki çobandır,
Elə hey çalır tütək.
Yayılıbdır hər yana
Qarpız qoyun-quzu tək.
Məstansa işindədir,
Tağlarımı sayır o?
Elə bilir yumaqdır,
Qarpızla oynayır o.

**1972**

## PİŞİYƏ DÖNƏN SİÇAN

Siçanı gördü
Pişik güzgüdə.
Gəldi ovunu
O, güdə-güdə.
Qalın qaşları
Çatıldı birdən.
Güzgünün üstə
Atıldı birdən.

Pəncələrini
Vurdu şüşəyə.
Bu nədir, siçan
Döndü pişiyə?!
Güzgüdə gördü
O, öz əksini.
Geri çəkildi
Pişik diksinib.
Sonra çöməlib,
Yerə oturdu.
Öz əksi ilə
Üz-üzə durdu.
Süzdü əksini
O, yana-yana.
Gözlədi, pişik
Bəlkə bir azdan
Dönə siçana…
Girib küncdəki
Kiçik deşiyə,
Baxıb gülürdü
Siçan pişiyə…

**1975**

## DAYƏ PİŞİK

Anam ip bağlamışdı
Bacımın beşiyinə.
Ağlasa, yelləməyi
Tapşırmışdı o, mənə.

Bacım yuxuya getcək,
Durub mətbəxə keçdim.
Susamışdım, anamın
Qoyduğu sudan içdim.

Qayıdanda gördüm ki,
Mənim məstan pişiyim,
Tutub ipin ucundan
Yırğalayır beşiyi…

**1974**

## UTANCAQ PİŞİK

Məni görcək divandan
Qalxıb yerə atlandı.
Ata pişiyə bax e,
Ya qorxdu, ya utandı.

**1975**

## İTİM

Bu çay necə dərindi,
Bu çay necə itidi!
İtim suya atıldı,
Çay itimi itirdi.
İtim-itim itdi it,
Mənim itim itdi, it!
Üzüb çıxdı qırağa,
Yaxınlaşdı yalağa.
Yalaqdan yal yaladı.
Yalın üstünə çıxıb,
Əl elədim itimə,
Quyruğunu buladı…

**1975**

## QATIR

Qatıra bax, qatıra,
Sanki düşüb qotura.
Ora-bura sürtünür,
Hara gəldi dürtülür.
Təpikləyib vurur o,
Noxtasını qırır o.
Qarşısına nə keçdi
Biri-birinə qatır.
Anasına oxşayıb,
Yaman nadincdir qatır.

**1973**

## SORUŞAN YOX…

Soruşan yox arıqdan,
Nə işin var qoruqda?
Heyin də yox qaçasan
Görəndə qoruqçunu.
Kökəlməyin bir yana,
Sındırarlar qıçını…

**1978**

## TƏNBƏL ULAĞIN NAĞILI

Deyirlər bir kişinin
Var imiş bir ulağı.
Yarımca metr imiş
Ulağın hər qulağı.

Yayda ot daşımazmış,
Tənbəl imiş bu ulaq.
Fərsiz elə bilib ki,
Həmişə ot olacaq.

Qış kəsəndə qapını
Görüb ki, ot nə gəzir?
Ulaq soyuqdan əsir,
Ulaq acından əsir.

Kişi deyir: – Tələsmə,
Çöllərdən çovğun itər.
Ölmə, eşşəyim, ölmə,
Yaz gələr, yonca bitər…

**1973**

## LOVĞA KEÇİ

Keçi döyürdü döşünə:
– Qoç dözər qoç döyüşünə!
Yaxınlaşdı qaça-qaça,
Buynuz ilişdirsin qoça.
Qoç çəkilsə də, keçinin
Zərbəsi çıxmadı boşa.
Saxlayammadı özünü,
Buynuzları dəydi daşa.
Od parladı gözlərində,
Quzular baxıb gülüşdü.
Dözərdimi bu zərbəyə? –
Buynuzları sınıb düşdü.
Keçi üz qoydu getməyə
Ombasını çəkə-çəkə.
Keçi üz qoydu getməyə

Gözündən yaş tökə-tökə.
Qoç səsləndi gülə-gülə:
Olan olub, keçib, qardaş!
Yaddan çıxdı buynuzların,
Qayıt götür, keçi qardaş!

**1978**

## BALACA NAXIRÇI

Təzəcə bağlanıb
məktəbi,
Atası köməkçi götürüb
Mətləbi.
Balaca naxırçı,
Darıxıb naxırçın.
Boyu bir tikədir,
Çomağı özündən
yekədir.
Mal-qara dönəndə mağala,
Başlayır bir şirin nağıla.
Vərəqlər çevrilir birbəbir,
O kitab oxuyur,
Atası dinləyir…

**1973**

## CAMIŞ

Deyin çoban Əhmədə,
Camış yatıb lehmədə.
Gövşəyir yavaş-yavaş,
Nəzərləri göldədi.
Bədəni heç görünmür,
Bircə başı çöldədi.

**1976**

## İNƏK

Süd olmayıb bu səhər,
Heç qəm yemə, a Mürşüd!
Sən mənə ot gətirsən,
Mən sənə verərəm süd.

**1972**

## TƏPƏL CÖNGƏ

Nə dönmüsən yenə yelə,
Bir geri dön, hara belə?

Gəzdiyinçün kövşəndə tək,
Danlayıbdır səni inək.

Günahını boynuna al,
Mal-qaranın yanında qal.

Çox genişdir axı kövşən,
Öyünmə ki, böyümüşəm.

Gəl sözə bax,
Getmə uzaq!
Təpəl cöngə,
Evə dön gəl!

**1973**

## XƏBƏRDARLIQ

Yaz idi, açılmışdı
Çiçək də, yasəmən də.
Bir balaq bir buzovla
Otlayırdı çəməndə.

Dəcəl balaq özünü
Şax-şəvələ vururdu.
Yazıq buzov büzüşüb,
Bir kənarda dururdu.
Su içməyə gedəndə
Dərədəki bulağa,
Gözləri yaşla dolmuş
Buzov dedi balağa:
– Dost, dəcəllik etmə ha,
Çox uzağa getmə ha!
Bir də salma özünü
Şax-şəvələ, talaya.
Qaçıb xəbər verərəm
Yoxsa camış xalaya!…

## MARAL

Maral gördü qoruqda,
Güldü balaca Xətib.
Dedi: – Marala baxın,
Başında ağac bitib…

**1975**

## İKİ MARAL

Ləpirinlə gəlmişəm,
Batıbdır dizim qara.
Sənin də gözün qara,
Mənim də gözüm qara.

Qəribədir, Maraldı
İkimizin də adı.
Sənin xalların ağdı,
Mənim xalım qaradı.

Hünərin varsa, qaçma,
Bir az yaxın yeriyim.
Sənin buynuzların var,
Mənim iri hörüyüm.

Yoxsa tanış gəlirəm,
Nə baxırsan dərindən?
Mənə bir kürk tikiblər
Sənin xallı dərindən…

**1975**

## SIĞIN

Sığına bax, sığına,
Düşüb yolun ağına.
Bəlkə bizim inək tək
O da gedir sağına?

Birdən başladı çovğun,
Kola sığındı sığın.
Külək qarı doldurdu
Gözlərinə yazığın.

Yenə yola düzəldi,
Göydən ələnsə də qar.
Sığın necə dayansın,
Evdə balaları var.

**1975**

## DAĞKEÇİSİ

Qoruqçu əmi ilə
Bir gün qoruğa gəldim.
Qayada duran keçi
Elə bildim heykəldi.

Dayanıb bir tərəfdə
Baxıram durbinlə mən.
Heykəl sandığım keçi
Birdən qopdu yerindən.

Qorxusu yox heç nədən,
Sıldırımda gəzəndi.
Dağda elə qaçır ki,
Elə bil ki, düzəndi…

**1975**

## CÜYÜR

Bir adım cüyür,
Bir adım əlik.
Məskənim olub
Qalın meşəlik.

Gözlərim qara,
Buynuzum iti.
Sanki budaqlar
Başımda bitib.

Əgər gülləylə
Vurmasa insan,
Heç yel də çatmaz
Mən qaçan zaman.

## ZEBR

Zebrin dərisi
Qaradı, ağdı.
Onun paltarı
Zolaq-zolaqdı.
Dənizçi kimi
Dəysə də gözə,
Heç vaxt girməyib
Zebr dənizə.
Alabəzəkdi,
Necə qəşəngdi.
Ata oxşayır,
Gücün var əgər,
Onun belinə
Qoy görüm yəhər?

**1975**

## FİL

Fil elə bil ki, damdır,
Ayaqları dirəkdir.
Ancaq o, tənbəl deyil,
Həm güclü, həm zirəkdir.

Qulaqları palazdır,
Qarnı yekə dərədir.
Ağzı sanki qapıdır,
Gözləri pəncərədir.

Xortumuyla götürüb,
Nə istəsə yeyir fil.
Onun uzun xortumu
Kiçik liftdir elə bil…

**1975**

## FİLİN NEÇƏ QUYRUĞU VAR

Qızım dedi ki, filin
Olur iki quyruğu.
Oğlum güldü: – Ay bacı,
Heç olan işdirmi bu?

– Bəlkə elə bilirsən
Bacın səni aldadır? –
Bir quyruğu qabaqda,
Bir quyruğu daldadır.

**1975**

## FİL VƏ QARIŞQA

Qarışqa dedi Filə:
– Fil, gəlsənə dost olaq!
– Qarışqayla dost olan
Filə deməzlər axmaq?
– Özünü öymə belə,
Layiqli dostam Filə.
Lağa qoyursan məni,
Elə güclüsən yəni?
Gəl tullanaq bu dağdan,
Görək kimdə qalır can.
Fil yumaraq gözünü,
Dağdan atdı özünü.
Əzildi qolu, qıçı,
Ağladı için-için.
Qarışqa da tullandı,
Bəs ölmədi nə üçün?
Fil dedi: – Ay Qarışqa,
Nə yaman dözümün var!

– Ay Fil, mənim altımda
Otlar döşək oldular.
Doğrusu ona görə
Əzilmədi bədənim.
Fil söylədi: – Bu gündən
Yaxın dostumsan mənim.

**1976**

## QURD

Gözləri fənər olar,
Gecələr işıq saçar.
Gözlərini görəndə
Quzular hürküb qaçar.

Yuvasının ağzında
Ovçu bir tələ qurdu.
Tamah tələyə saldı
Axırda qoca qurdu…

**1975**

## QABAN

Əyilərək su içir,
Lazım deyil qab ona.
Sevir gölməçələri,
Qabana bax, qabana.

Ayağının altında
Quru budaq əzilir.
Üşüməyə qoymayır
Onu qalın qəzili.

Şax-şəvəlin içində
Yaxşı gedir işləri.
Yamanca qorxuludur
Onun xəncər dişləri.

**1975**

## TÜLKÜ BALASI

Mən anamın ilkiyəm,
Ağzı qara tülküyəm.
Kiçiyəm hələ bir az, –
Ət dadmayan dişim var.
Qoy böyüsün cücələr,
Onlar ilə işim var!

**1975**

## TÜLKÜ YUVASI

Tülkü yuvası gördü
Moruq yığanda Nigar.
Çağırdı dostlarını,
Axıb gəldi uşaqlar.

Tez yuvanın ağzına
Onlar çırpı yığdılar.
Alışdırdı çöpləri
Bizim çoxbilmiş Vüqar.

Doldu yuvaya tüstü,
Gözlədilər bir qədər.
Birdən başqa deşikdən
Çıxıb qaçdı hiyləgər.

– Yox, o ayrı yuvadır, –
Etiraz etdi Vüqar.
Gözləyin, bilirəm ki,
Bu deşikdə tülkü var.

Onlar çox gözlədilər,
Birdən qışqırdı baxış:
– Ay uşaqlar, yuvanın
İki qapısı varmış…

Hamı böyük maraqla
Yuvalara baxırdı:
Tülkü çıxan deşikdən
İndi tüstü çıxırdı…

**1973**

## BUQƏLƏMUN

Gəzdiyi yerə uyğun
Rəng alar buqələmun.
Yovşanlar arasında
Bozumtuldur, ona bax.
Yaşıl otlar içində
Rəngi yaşıl olacaq.
Onun iri gözləri
Səbəb olur marağa.
Başını döndərmədən
Hey baxır sola, sağa.
Gözünə göründümü
Bir həşarat, ya böcək,
Özü boyda dilini
Tez uzadır sevincək.

Dili yapışqanlıdır,
Yapışdı, daha qopmaz.
Çəkib yeyər ovunu,
Özünə gələr bir az.

**1975**

## DOVŞAN

Dovşan gəzişir,
Qar işığında.
Ləpirlərinin
Qarışığından
Baş aça bilmir
Naşı ovçular.
Dolanır dağı,
Daşı ovçular.

**1975**

## DOVŞAN VƏ TÜLKÜ

– Qulağı uzun,
Quyruğu qısa.
O nədi, Musa?
Söylədi oğlan
Düşünüb bir an:
– Dovşan…
– Quyruğu uzun,
Qulağı qısa.
O nədi, Musa?
Tapmadı Musa,
Söylədi İlkin:
– Tülkü…

**1975**

## İLAN

Qəzəblənsəm, çalanam,
Haçadilli ilanam.
Mənə hər kim toxunsa,
Sonra peşiman olar.
Zəhərim kiminə dərd,
Kiminə dərman olar.

**1973**

## UÇAN BALIQ

Suya girəndə üzür,
Sudan çıxanda süzür.
Uçur qanad çalmamış,
Nə qəribədir bu quş?
Bu adi uçuş deyil,
O, balıqdı, quş deyil.

**1973**

## TIRTIL

Yarpaq yeyəni
Sən əzizləmə,
Tırtıldı, ondan
İpək gözləmə.

**1973**

## ƏGƏR ÇƏKMƏSƏN ƏMƏK, TANRIDAN UMMA KÖMƏK

### YURDUMUZUN QÜDRƏTİ

Varlı bir el varmı bizim el kimi?
Dövləti-varı hey axır sel kimi.

Neftimizin şöhrəti düşmüş dilə,
Məhsulumuz yüksəlir ildən-ilə.

Ağ geyinibdir yenə də Mil düzü,
Pambığımız ağ eləyibdir üzü.

Bağlarımız meyvə ilə dopdolu,
Zəhmətimiz alma olub, nar olub.

Bəlli bizim soykökümüz, əslimiz,
Göylərə meydan oxuyur nəslimiz.

Ay bala, el çəkməsə bu zəhməti,
Artmaz axı yurdumuzun qüdrəti.

### ŞƏFƏQLƏR KİMİ

Hər səhər erkən yuxudan dur, bala,
Sən də qoşul qardaşına düş yola.

Get Xəzərin sahilini seyr elə,
Tənbələ uyma, qoçaq ol, dön yelə!

Xoş havasından dənizin kim doyar?
Çıxdı günəş, düşdü şəfəqlər suya.

Qoy bədənin yansın üfüqlər kimi,
Sən də suda çim bu şəfəqlər kimi…

## BİÇİN

Uc-bucağı yoxdu bizim çöllərin,
Məhsulu nə çoxdu bizim çöllərin!

Sünbülü dən-dən zəmini seyr elə,
Xeyli taxıl toplamışıq biz elə.

Kombayınım gör nə süzür tarlada!
Bir gəmidir, sanki üzür tarlada.

Sel kimi axsın dənimiz bunkerə,
Bir dənəsi qoyma ki, düşsün yerə.

Kəhraba tək buğda ilə qoy barı,
Ağzınacan dolsun elin anbarı!

## BAĞBANI GÖRDÜM

Seyr elədim mən bu səhər çölləri,
Öpdü üzümdən səhərin yelləri.

Gəldi bahar, coşdu günəş gör necə! –
Eşqi oyatdı yuxudan selləri.

Göydə buludlar da sevincdən dolub,
Göz yaşına qərq elədi gülləri.

Bağbanı gördüm, necə xoşbəxt idi,
Əllərimi sıxdı onun əlləri.

Söylədi: – Oğlum, öz işinlə hər an,
Sən də sevindir həmişə elləri…

## BAĞBAN ELŞƏN

Hər soluxan gül-çiçəyə can deyir,
Evdə hamı Elşənə bağban deyir.

Vedrəsini dolduraraq su ilə
Pay aparır hər çiçəyə, hər gülə.

Daş kimidir, yox belə olmaz deyir,
Meynələrin diblərini belləyir.

Lovğalanır: – De, helə bağ harda var?
Alma da var, heyva da var, nar da var.

Meyvələrin hər birisi şipşirin,
Yepyekədir armudumun hər biri.

Öz aramızdır, belə bir bağ hanı?
Yüz yaşasın qoy bu bağın bağbanı!

## ASLAN BABA

Doğru deyirlər igid ad-san tapar,
Sumqayıtın fəxridir Aslan baba.

Vaxtını sərf eyləməyib boş yerə,
Tikdiyi evlər ucalıb göylərə.

Səhraları hey təzə evlər bəzər,
Bağça da, məktəb də tikibdir bizə.

Sir-sifətində qocalıq yox hələ,
Ustalar ilə verərək əl-ələ,

Hey yaradır, hey qurur Aslan baba,
Qəhrəmana hörmət edir el-oba.

## FƏHLƏ ƏLLƏRİ

Fəhlələrin əlləri
Hər tərəfə yol tapar, –
Neft çıxarar, bənd vurar,
Körpü salar, dağ çapar.

Ev tikər, asfalt salar,
Yol da çəkər hər yana.
Zəhmət əzəldən bəri
Şöhrət olub insana.

Gözmü görər onları? –
İşləyən əllər zirək.
Fəhlələrin hər biri
Güclüdür idmançı tək.

Əllərinin istisi
Qışda axar evlərə.
Fəhlələrin zəhməti
Nur çiləyər hər yerə…

# MOSKVA

Seyr edirəm mən onu,
İndi hər axşam-səhər.
Göylərə nur paylayır
Bax bu çırağban şəhər.

İstəyir, ulduzlu göy
Qoy yenə nur istəsin.
Gül kimidir hər işıq,
Hər bina gül dəstəsi.

Uc-bucağı yox onun,
Qoynu genişdir necə?!
Əlvan işıqlar yanır,
Gündüzə dönmüş gecə.

Göz yaşı tək dumduru
Moskvaçaydır axan.
Körpünün üstən ona
Heyran olur hər baxan.

Sən də qoşul gəl mənə,
Moskvanı seyr elə!
Böylə çırağban şəhər
Görməmişəm mən hələ.

**1976**
**Moskva**

## TƏNDİR

Sən hazır elə
Üzlü pendiri.
Nənəm qalayıb
Yenə təndiri.
Tər tökə-tökə,
Bişirir kökə.
Həyət-bacanı
Tutub xoş ətir.
Gah lavaş bişir,
Gah yağlı fətir.
Dadlı çörəkdən
Ye isti-isti.
Nənəmə "sağ ol"
De isti-isti…

**1973**

## BOŞQAB

Dərdim olmazdı
Təzə ad alsam.
Boşqabdır adım,
Dolu da olsam.

**1973**

## ƏYİRDƏK

Götür ələyi ələ,
Dəstərxana un ələ.
Su qatıb xəmir elə,
Ancaq tələsmə hələ.

Şəkər də qat, yağ da qat,
Qəşəng kündələr yarat.
Üstünə naxışlar çək,
Bişir mənə əyirdək.

**1973**

## SEVMƏK AZDIR

– Yaşıllığı sevirsən?
– Bəs necə!
– Neçə ağac əkmisən?
– Heç neçə…

**1973**

## ATAM DEYİR…

Atam deyir hər uşaq
Gündə yığsa bir başaq.
Taxılımız bol olar,
Bir-bir yığın sünbülü, –
Dama-dama göl olar…

**1972**

## PAMBIQ

Yerə səpdim çiyidi,
Yarpaqladı, böyüdü.
Xırda-xırda qozalar
Düzüldü qatar-qatar.
Payız gəldi, solanda
Düzənlərdə gül-çiçək.
Qozalar açıldılar
Partlaq qarğıdalı tək.

Yurdumun çöllərində
Gör nə qədər pambıq var.
Tarlalara, düzlərə
Elə bil ki, yağıb qar…

**1975**

## OTURACAQ

Durma ağac dibində,
Əlini çək cibindən!
Bir bax, hamı işləyir,
Sən də zəhmət çək, işlə!
Mən taxtanı saxlayım,
Sən mıxı vur çəkiclə.
Ağacın kölgəsində
Düzəltsək oturacaq,
Hamı onun üstündə
Rahatca oturacaq…

**1982**

## YAZI O YAZI DEYİL

Tez elə, min maşına,
Qalxaq Yazı düzünə.
Yazı o Yazı deyil,
İnanmazsan gözünə.

Bu bomboş düzənlərin
Doğub tale ulduzu.
Yazıda insan əli
Yazıb pozulmaz yazı.

Yaşıl-yaşıl cərgələr
Sıralanıb düz boyu.
Bəxtiyardı o kəs ki,
Həyatda bir iz qoyub.

Dağların əllərində
Sanki xonçadı Yazı.
Bu xonçanın içində
Min ton üzüm var azı!

Zəhmətinə güvənən
İnsan heç vaxt aldanmır.
Kəhrəba salxımların
Giləsindən bal damır.

**1984**

## BALACA BAĞBANLAR

Səhərdən yer belləyir,
Bu, balaca Alışdı.
O qədər işlədi ki,
O, zəhmətə alışdı.
Suvardı ağacları,
Gül güldü, nar alışdı…

Bu, Alışın bacısı
Balacaboy Həcərdi.
O da qardaşı kimi
Ağacları becərdi.
Su səpdi gül ləkinə,
Gül toxumu cücərdi…

**1978**

## AŞPAZ

Dadlı xörək bişirir,
O, ustadır işində.
Yedim, sonra yaladım
Barmağımın beşin də.

İnanmırsan, plovun
Dadına bax, dadına.
Aşpazın məharəti
Gətiribdir dad ona.

**1978**

## MEMAR

Xəyalında canlanır
Təzə şəhərlər, kəndlər.
Küçə olub uzanır
Onun çəkdiyi xətlər.

Neçə evi, meydanı
Bir kağıza cəm elər.
Onun yazdıqlarını
Köçürərlər düzlərə
İnşaatçı əmilər.

Çevrildikcə şəhərə
Kağızdakı cizgilər,
Ellər şadlıq eləyər,
Arzu gülər, üz gülər…

**1978**

## KRANDI, YA QURANDI?

– Ağrın alım, bu nədi?
– Nənəcan, bu krandı.
– Bıy, kran nədi, bala,
Bəlkə tikən, qurandı?

**1975**

## KRAN

Daşı, palçığı
Götürüb yerdən,
Lap hündür yerə
Qaldırıram mən.

Üst-üstə qoyur
Daşı bənnalar.
Getdikcə göyə
Ucalır divar.

Sən bu binanın
Görkəminə bax!
Sanki ucalıb
Səhrada bir dağ.

Bir belə yükü
Ora, ay Gülgəz,
Kran olmasa,
Kim qaldırar bəs?

**1975**

## KRANÇI

Oturub yuxarıda
Aşağı qarmaq atır.
Krançıya bax, ata,
Elə bil balıq tutur.

Gücü çoxdur, yuxarı
Yük qaldırır neçə ton.
Qarmağına balıq yox,
Ya daş düşür, ya beton.

**1982**

## QƏRİBƏ QUŞ

Elə bil quşdur kran,
Ona bax yaxşı-yaxşı.
"Dimdiyində" qaldırır
Qumu, sementi, daşı.

Qüvvətlidir yamanca,
İnsan güc verib ona.
Kran da əvəzində
"Yuva qurur" insana.

**1976**

## MƏNİM ATAM

Polad əridir
Atam zavodda.
Boru düzəldir
Qaynar poladdan.

Dözüm çox olur
İşlək adamda.
Polad kimidir
Mənim atam da…

**1974**

## QƏRİBƏ GƏMİLƏR

Bir sarılıq rəngi gəlcək
Zəmilərin bənizinə,
Konbaynlar gəmi kimi
Girər taxıl dənizinə.

Üzə-üzə gah bu yana,
Gah o yana keçər onlar.
Sarı buğda dənizini ovuclayıb,
Qurtum-qurtum içər onlar.

**1971**

## QAYNAQÇI

Əlində əlcəyi var,
Üzünə maska taxır.
Gözlərinin önündə
Sanki ildırım çaxır.

Hərarətdən, istidən
Dəmirlər də qaynayır.
Zəhmətkeş əllərində
Qığılcımlar oynayır.

Qaynaq edir qaynaqçı,
Çubuğunun ucunda
Sanki ulduz sayrışır.
Dəmirlər qaynayaraq
Bir-birinə qarışır.

**1975**

## SEMENT

Daşı qoysan daş üstə,
Əl vurmamış laxlayar.
Daşı divar üstündə
Sement tutub saxlayar.

**1975**

## QALAYÇI

Od qabları isidir,
Körük odu püləyir.
Qalayçı yorulmadan
Elə qalay eləyir.

O sevir sənətini,
Könül verib bu işə.
Paxır qablar əlində
Dönür parlaq gümüşə.

– Ay paxır qabı olan! –
Qapı-qapı haylayır.
Səhərdən axşamacan
Qabları qalaylayır.

**1972**

## KÜÇƏMİZİN YORĞANI

Yağış yağdı, qurtardı…
Biz palçığa batardıq.
Elə ki yolçəkənlər
İşdən hali oldular.
Küçəmizin üstünə
Asfalt yorğan saldılar.

**1975**

## ƏHƏNG DAŞI

Yaxınlaşıb salam verdim
Ağ daşları daşıyana.
Dedi: – Əhəng olmaq üçün
Gərək əhəng daşı yana!

– Daş yanarmı? – Çaşıb qaldım,
– Yanar, – dedi, – gülə-gülə.
Söylədim ki, yansa əgər
Yəqin daş çevrilər külə.

Bir parça əhəng daşını
Qoca götürüb əlinə,
Dedi: – Əhəng söyləyirlər
Ay oğul, daşın külünə!

**1978**

## QARA İNƏYİN SÜDÜ

Abşeron torpağında
Gör nə qədər quyu var!
Torpaq sanki inəkdir,
Məmələri quyular.

Südü ağ deyil ancaq, –
Neftin rəngi qaradır.
Qadir insan əlləri
Görün nələr yaradır?!

Maşınlar buzov kimi
Yerin "südünü içir".
Axşam-səhər şütüyüb,
Belədən-belə keçir…

**1975**

## XIRMAN

Vələ baxaydın, vələ,
Qoşub öküzə, kələ
Sürərdilər bir zaman
Dərzlərin üzərindən.
Aşıb-daşardı xırman,
Taxıl olardı dən-dən.
Sovurardılar dəni,
Ayrılardı püfədən.
Ay uşaqlar, bunları
Gözümlə görmüşəm mən.
İndi olmasa da vəl,
Sən bizim xırmana gəl.

Yenə bərəkətlidir,
Yenə əzəmətlidir.
Bolluq yolu xırmanım,
Taxıl dolu xırmanım.

**1972**

## QƏNİ TAXIL DAŞIYIR

Demə ki, Qəni
Danışır nağıl.
Onun maşını
Daşıyır taxıl.

Bunkerdən yerə
Tökülən dəni
Yığıb maşina
Balaca Qəni.

Qoçaq oğlandır,
Ona gülmə sən.
Maşınında var
İki ovuc dən.

Deyir: – Tez olun,
Açın anbarı.
Yerdə qalmasın
Yurdumun varı.

**1975**

## ŞƏKƏRBURA

Çəkdik ət maşınında
Fındığın ləpəsini.
Ona qənd tozu qatıb,
"İç" düzəltdik bir sini.

Yağ, yumurta, süd qatıb,
Xəmir yoğurduq undan.
Dadlı şəkərburalar
Bişirəcəyik ondan.

Yayıb kiçik kündəni
Ləpə yığdıq içinə.
Üstünü naxışlayıb,
Doldurduq "qaz peçinə".

Bişdi şəkərburalar,
Bayram süfrəsi açdıq.
Kim yedi, – əhsən! – dedi,
Sevincdən quş tək uçduq.

**1977**

## SƏRDAR ƏMİ

Cərgələnmiş kolları
Səhər yeli tərpədir.
Tarla sanki dənizdir,
Hər qoza bir ləpədir.

Dənizin sahilinə
Gələrək səhər tezdən,
Minib mavi gəmiyə,
Hey üzür ağ dənizdə.

Hər gün yığdığı pambıq
Əzəmətli dağ olur.
Sərdar əminin üzü
El yanında ağ olur.

**1976**

## ZƏNGLİ SAAT

Mənim zəngli saatım
Elə bil dil anlayır.
Səhər açılan kimi
Xoruz kimi banlayır…

**1972**

## STADİON

Dörd tərəfi hasardı,
Ortası yaşıl meydan.
Pillə-pillə yerlərdə
Əyləşib çoxlu insan.

Projektorun nuru
Ulduz kimi sayrışır.
Meydanda futbolçular
Bir-biriylə yarışır.

Yan tərəfdə yellənən
Bayrağa bax, bayrağa.
Qapıdan top keçəndə
Hamı qalxır ayağa.

Hakim fit verdi bu vaxt,
Gəldi oyunun sonu.
Adamlar tərk etdilər
Yaşıl stadionu.

**1975**

## TOMAT

Dadlı olsun deyə
Yeməyə tam at.
Mənsiz nə dad,
nə tam? –
Öyündü tomat.
İnsanlar bunları
Çoxdan duyublar.
Onunçün adımı
Tomat qoyublar…

**1973**

## SƏRİNKEŞ

Hərlənir fırfıra tək,
Elə bil əsir külək.
Sərinlədir otağı,
O, külək deyil ancaq.
Elə bil təyyarədir,
İndi göyə qalxacaq…

**1974**

## YERİYƏN PİLLƏKƏN

Çıxdım üstünə
Endi pilləkən,
Gördüm ki, yerin
Altındayam mən.

Çıxdım üstünə,
Qalxdı pilləkən,
Gördüm ki, yerin
Üstündəyəm mən.

Eşq olsun sənə,
Ey metro tikən.
Heç görməmişdim
Belə pilləkən.

Bizi endirir,
Bizi qaldırır.
Özü endirir,
Özü qaldırır.

**1973**

## DIRMIQ

Dişləri bənzər mıxa,
Dırmığa bax, dırmığa.
Ləkləri hamarlayır,
Torpağı tumarlayır.

Daraq kimi bostanı
Darayır hərdən-hərdən.
Çiçək bitər, gül bitər
Onun gəzdiyi yerdə.

**1976**

## BALTA

Sapı ağacdan olur,
Özü isə poladdan.
Qorxmayır nə vələsdən,
Nə şamdan, nə palıddan.

Üç-dörd günə paslanar,
Əgər o, işsiz qalsa.
Parlayar gümüş kimi
İnsan əlində olsa.

**1976**

## KƏRKİ

Az qaldı dişim çıxa,
Palıd yaman bərk idi.
Baltanın qardaşıyam,
Mənim adım kərkidi.

Belimin əyriliyi
Gəlməsə də xoşuna,
Yarayıram həmişə
İnsanların işinə.

Mıx çıxara bilirəm,
Taxta yona bilirəm.
Arabir çəkicin də
Köməyinə gəlirəm.

İnsan öyrədib mənə
Neçə cürə sənəti.
Həm baltayam, həm kərki,
Həm çəkic, həm kəlbətin…

**1976**

## KƏLBƏTİN

Kəlbətinəm, istəsən
Gəl tanış ol işimlə.
Çəkic vuran mıxları
Çıxardıram dişimlə…

**1976**

# QARACA ÇOBAN

Bir gün Qaraca çoban
Qoyun otaran zaman

Gördü ki, düşmən gəlir,
Duman gəlir, çən gəlir.

Heyrət bürüdü onu,
Yoxdu qoşunun sonu.

İndi neyləsin çoban,
Düşmən güclüdür yaman.

Dağa sürdü sürünü,
Dağdan hər yer görünür.

Çoban çarə tapandı,
İşə saldı sapandı.

Daş yağdı düşmən üstə,
Qulaq tutuldu səsdən.

Dağlarda daş qalmadı,
Düşmən təslim olmadı.

Neyləsin çoban indi,
İşlər yaman çətindi.

Qoyun qoydu sapanda,
Vızıldatdı bir anda.

Düşmən qaçdı: – Ay aman,
Çoban güclüymüş yaman!

Pərən-pərəndi düşmən,
Qoyun yağır göylərdən…

**1975**

# TAPMACALI MİSRALAR

***

Bir tapmaca söyləsəm,
Taparsanmı, ay Gülzar?
O nədir ki, yükünü
Od içinə boşaldar?

Tapa bilmirsən əgər,
Kömək etsin qardaşın.
– Yox, tapmışam, atacan,
Yanğınsöndürən maşın…

***

Boğazından tikə girdi,
Aşağıdan düşdü qaba
didim-didim.
Yarpaqlara bükdü anam,
Tez-ol, tez ol, bişir, – dedim.
Qazançada bişirdilər,
İştah ilə dolma yedim.
Nə fikrə getmisən, Rəşad,
Bəsdir yordun sən başını.
Məgər sizin evdə yoxdu
Ət maşını?

***

Altında ocaq yanır,
Üstündə var bir qazan.
Söylə görüm o nədi,
Ramazan, ay Ramazan?
Düzəldiblər dəmirdən
Ona üç möhkəm ayaq.
– Aha, tapdım, dediyin
Sacayaqdı, sacayaq.

***

Tünd qırmızı rəngi var
Ağacın budağından
Sırğa kimi sallanar.
Kim söyləyər, o nədir?
– Gilənardı, gilənar.

***

Uzaq mənzili
Eləyər yaxın,
Siz Moskvaya
Bakıda baxın.
O nədir elə? –
Az özünü yor.
Sizin evdə də
Var televizor.

***

Sallanıb armud kimi
Tavandakı məftildən.
Evi nura qərq edir,
O nədir, tap görüm sən?
Aslan nər oğlu nərdi,
Tez dedi ki, fənərdi.

***

Ondan işıqlı ev yox,
Gəzsən şəhəri, kəndi.
İstəyirsən söyləyim
Divarları nədəndi?
Kənarları taxtadan,
Ortası şüşədəndi.
Bildin nəyi deyirəm?
– Sözsüz ki, şüşəbəndi…

***

İlqar dedi Adilə:
– Mənə bir tapmaca sat.
Adil dedi: – O nədir
Atası eşşək, anası at?
Götürür çoxluca yük,
Boyu da ata çatır.
İlqar dedi: – Bilirəm,
Atdan güclüdür qatır.

***

Yerdən qaynayıb çıxır,
Gecə-gündüz hey axır.
Kim söyləyər, ay uşaq,
O nədir elə?
– Bulaq.

***

Umacı səpdim yerə,
Dənlədi bircə-bircə.
O nədir elə?
– Cücə.

***

Hamıdan çox nağıl bilir,
Hey danışır dönə-dönə.
O şəxs kimdir?
– Mənim nənəm.

***

Qəribə bir qutudu,
Düyməsinə toxundum.
Elə bil ki, adamdır,
Dilə gəlib oxudu.
Söylə görüm nədir o?
– Radio!

***

Qovaq kimi ucadır,
O, qovaq deyil ancaq.
Budağından sallanan
Şirin meyvələrə bax.
O nədir?
– Gilənardı.
– Gilənar belə olmaz.
– Bəs onda nədir?
– Gilas.

***

Yanaqları qırmızı,
Bağçamızın şən qızı.
Dəyib, əl vursan qopur,
Dənəsi çopur-çopur.
Adı nədir bəs bunun?
Qoy söyləsin Niftalı.
– Nə var bunu bilməyə,
Şaftalıdır, şaftalı…

***

Yarpaqlamamış
Ağ çiçək açar.
Meyvəsi turşdur,
O nədir?
– Alça.

***

Bilmirəm necə çıxıb
Üç metrlik ağaca?
Yupyumrudur, üstündə
Nə qapı var, nə baca.
Bir qaladır, içində
Yüzdən çox yaşayan var.
O nədir görəsən?
– Nar.

***

Dayım bir meyvə
Göndərib bizə.
Rəngi sarıdır,
Dadı turşməzə.
Doğrayıb çaya
Atırlar onu.
– Mən də sevirəm
Sarı limonu.

***

Paltarın üstü ilə
Sürüşür iti-iti.
Qırışları yox edir.
O nədir elə?
– Ütü…

***

Eyninə almaz
Dumanı, çəni.
Uca zirvələr
Onun məskəni.
Qıy vurub yenə
O, qanad çaldı.
Elə bil göydə
Bir qara xaldı.
Adı?
– Qartaldı.

***

Qapımızda yeriyir
Yanını basa-basa.
Yupyumşaqdır tükləri,
Bir az oxşayır qaza.

Suyu da sevir qaz tək.
Söylə, o nədir?
– Ördək.

***

Dörd yanı divar,
İçində su var.
O nədir, Tovuz?
– Ata, çarhovuz.

***

Ləkdə yatır mışıl-mışıl,
Çiçəyi sarı, özü yaşıl.
(Xiyar)

***

Dəymişlərinə
Əl vursan qopur.
Özü qırmızı,
Çərdəyi çopur.

(Şaftalı)

***

Üstündə uzanır çayın,
Birləşdirir iki tayı.

(Körpü)

***

Meşə onun sevimlisi,
Alınmaz qalası, postu.
Ceyranların, cüyürlərin,
Ağacların yaxın dostu.
(Meşəbəyi)

***

Özü göylərdə uçur,
Kölgəsi yerdə qaçır.
(Quş)

***

O nədir ki, içində
Həm odu, həm suyu var.
Suyu odu söndürməz,
Odu suyu qaynadar.
(Samovar)

***

Dostdur əzəldən bəri
Gül ilə, çiçək ilə.
O necə təyyarədir
Qonur gül ləçəyinə?
(Kəpənək)

***

Üstü dəri, içi hava,
Futbolçular onu qovar.

***

Ayağı yoxdur, qaçır,
Qanadı yoxdur, uçur.
(Top)

***

Səhər açılan kimi
Yuvadan çölə çıxır.
Çox zaman onun yükü
Olur özündən ağır.
(Qarışqa)

***

Acı olsa da,
Gərəkdir özü.
Kim soysa onu
Yaşarar gözü.
(Soğan)

***

Ağ vərəqlərin
Üstündə gəzdi.
Sözləri bir-bir
Kağıza düzdü.

(Qələm)

***

Məktub gətirər,
Məktub aparar.
Həmişə onda
Təzə xəbər var.

(Poçtalyon)

***

Poçtalyon onu
Gətirər səhər.
Baxıb, dünyadan
Tutarıq xəbər.

(Qəzet)

***

Gəlib gəzişər
Evdə, eşikdə.
Əgər qorxmasa
Məstan pişikdən.

(Siçan)

***

Quyruğu uzun
Bir ala quşdur.
Elə ki, hansı
Qapıya uçdu,

Üzlər gülümsər,
Gözlər gülümsər.
Yəqin olacaq
Bir təzə xəbər.

(Saxsağan)

***

Hey vızıldayır
Belədən-belə.
Arası sazdı
Şirin şey ilə.

(Milçək)

***

İtə oxşasa da,
Düşməni itdi.
İt "ham-ham" elədi,
O, gözdən itdi.

(Canavar)

***

Əvvəlcə səsi gəldi,
Dalınca özü gəldi.
Kəndə çatıb dayandı,
Axırda tozu gəldi.

(Maşın).

# YANILTMACLI MİSRALAR

***

Cırtdanı
cığırdan
çıxardılar
çığırda-çığırda.
Cırtdanın
corabı
cırılıb qaldı
cığırda.

***

Babam
bağçada
basdırdı
balaca
badamı.
Badam
bağçada
böyüdü,
Sevindirdi
babamı.

***

– Nə edirsən, ana?
– Bişmiş
bişirirəm,
Bəşir.
– Bişmişin nəyini
bişirirsən,
Çiyi bişir…

***

Qulu qulunun
quyruğunu dartdı,
Qulun Quluya
təpik atdı.

***

Oğlaq otlaqda
oynaqladı,
Otlaq oğlağa
ot saxladı.

***

Gül üzlü Gülzar
Güllükdən gül üzdü.
Gül üzlü Gülzarın
Gün üzlü qardaşı
Gündüzdü…

***

Uşaqlar topa-topadır,
Uşaqlar bir-birinə
Top atır…

***

Tutu!
Çoxlu
Tut gətirib
Tutum.
Kömək elə,
Altına palaz
tutub tutun
Silkələyək
tutu…

***

Keçi keçiyə dedi ki,
Keçi,
Məni çaydan
Keçir!
Keçi keçiyə qoşulub
Çaydan keçir…

***

Partladı qoza,
Döndü qar qıza.

***

Döşək
döşədim
Döşəməyə.
Döşək
döşəməyə
nə var
döşəməyə!

***

Gülüm
Güldanda
Gül açıb.
Gülüm
Güldü ki,
Gül acıb!

***

Bişirdiyim
Aşıdı,
Oğlum onu
Aşırdı…

***

Tələ qurdum
Dələyə,
Dələ düşdü
Tələyə.

***

Qırğıya bax,
qırğıya,
Salıb bizi
qorxuya.
Toyuq-cücə
həmişə
Onu söyər,
qarğıyar.

***

Bəsdir yığdıq
göbələk,
Yorulmuşam,
gəl bölək!

***

Anam mənə təpindi,
Dil-dodağım təpidi.

***

Mühasibin
müsahibi
Müseyibdi.
Müseyibin
müsahibi
Mühasibdi.

***

Atlas
Atlasa baxıb,
Gündə on
dəfə azı,
Atlas
Atlasda tapdı
Dəli Kürü,
Arazı.

***

Dağlarda bol
baldırğan,
Yoğunluğu
baldırcan.
Baldırı bal
baldırğan…
Məni yığanda
batsa da,
Baldır qana.
Baldırı qan
Baldırğan yox,
Baldırı bal
Baldırğanam…

***

Bu çəpər
Cəfərindi,
Çəpəri
Cəfər çəkib.
Bu Cəfər
cəfa çəkib,
Cəfəriyə,
nanəyə,
Reyhana
çəpər çəkib.

***

Ana deyir:
– Ay kişmişim,
Gəl arıtlayaq
Kişmişi.
Yarımçıq qoyarmı,
söylə
Kişi işi?
Oğul deyir ki,
anacan,
Təmizləyərdim
kişmişi,
Bu olsaydı
kişi işi!

***

Su gətir
bizim üçün
Get çaydan
Çaydan-çaydan.
Çaydanı qoy qaynasın,
Dəmləyib içək
çaydan…

***

Sinəsinə
qarğı batdı
qarğanın.
Qarğa dedi:
– Gör bu nə pis
qarğıdı.
Qarğı dedi:
– Nə insafsız
qarğadı.

Qarğı qarğanı
qarğıdı,
Qarğa qarğını
qarğıdı…

***

Yel əsəndə
Armud yağar,
Armudluğa…

***

Səs eləmə,
ay Ülkər,
Diksinər,
ürgə ürkər.

***

Yağış yağar,
Gül əsər.
Gülə-gülə
Güləsər,
Gül yığmağa
Tələsər…

***

Qarğı atı
çapırdı,
Yıxıldı,
alnı çapıldı.
Qaldı onun
altında,
Beli sındı
atın da…

***

Addamaca
addım bas,
Adla çayı,
ay Abbas!

***

Ləpə təpəyə
toxundu
Təpə ləpəyə.
Ləpə sındı,
Təpə sınmadı…

***

Dəyirmanda
Dəyirmi bir
Daş fırlanır.
Dəyirmi daşa
baxanda
Dəyirmanın
daşı kimi
Baş fırlanır.

***

Böyütdü
Böyü
Böyüdücü.
Böy
böyürərək
Buğaya dönmədi,
Böyüdücü
böyüdərək
Buğaya döndərdi…

***

Camış yemir diri-diri,
Cavanşirin cavan şiri. –
Bu doğruçu şir deyil ha,
Danlamayın Cavanşiri.

***

Yol kəsəkdi, yol daşdı,
Təmizləyək yoldaşlı.

***

Bir bax, çayın içində
Var nə qədər daş ada.
Sular nəğmə oxuyur
Torpağa da, daşa da.

***

Mehriban bir nənə kimi
Ulduzları Ay əzizlər.
Deyər: – Mənə yaxın gəlin,
Ay doğmalar, ay əzizlər!

***

Atıma güllə ata-ata,
Atıcı olmuşam, ata!

# POEMALAR, NAĞILLAR

## MƏKTƏBDƏ GÖRÜŞ

Məktəbdə görüş
Olacaq sabah.
Belə söylədi
Bizim Gülsabah.

Sən də gələrsən
Ora, ay baba!
Bayram edəcək
Sabah el-oba.

Baba nəvənin
Öpdü üzündən,
Dedi: – Kim çıxar
Sənin sözündən?!

***

Alqış qopdu qalxanda
Baba söz kürsüsünə.
Qabarmışdı ordenlə,
Medalla dolu sinə.

Hər orden bir qələbə,
Hər medal bir zəfərdi.
Sən işə bax, babanın
Öz adı da Zəfərdi.

Sevinirdi Gülsabah,
Öyünürdü bir az da.
Ona qibtə edirdi
Təranə də, Elnaz da.
Adil də, Bəxtiyar da,
Zülfiyyə də, Nigar da.

Deyirdilər ki, ay qız,
Qəhrəman imiş baban.
Bizə söyləməmisən
Bəs niyə bu vaxtacan?

Sevinc yuva qurmuşdu
Gülsabahın gözündə.
Deyirdi: – Bu günəcən
Heç bilmirdim özüm də…

…Baba fikrə getmişdi,
Yol çəkirdi gözləri.
Salona ələnirdi
Onun odlu sözləri:

– Balalarım, vətənə
Düşmən hücüm edəndə,
Başqa oğullar kimi
Döyüşə girdim mən də.

Həyəcan keçirirdik
Bilsəniz onda necə?!
Cavan idim, bığ yerim
Tərləmişdi təzəcə.

Əvvəl qorxurdum bir az,
Üstümə od yağırdı.
Qəlbimdəki qorxunu
Vətən eşqi boğurdu.

Dinirdi avtomatım,
Sanki şimşək çaxırdı.
Nifrətim güllə-güllə
Düşmən üstə yağırdı.

Düşmən sanki qar idi,
Qorxudurdu baharı.
Vətən eşqi günəş tək
Əridirdi o qarı.

Sürünürdük qabağa,
İrəli can atırdıq.
Səngərlərdə döyüşür,
Səngərlərdə yatırdıq.

Qanımız çilənsə də,
Ot üstə, yarpaq üstə,
Qızğın döyüş gedirdi
Hər qarış torpaq üstə.

Neçə cəbhə yoldaşım
Vuruldu o döyüşdə.
Neçə ömür yarımçıq
Qırıldı o döyüşdə.

Qanımızla yoğruldu
Doğma vətən torpağı.
Qorxmadıq, heyrətlənib
Geri qayıtdı yağı.

Torpağımız getməsin
Qoy hər yetənə qurban.
Bir canımız var, o da
Olsun vətənə qurban.

Vətən, vətən, can vətən,
Yaram verir qan, vətən!
Ayrı düşə bilmərəm
Səndən bircə an, vətən!

Çörəyini yemişəm,
Sularından içmişəm.
Dilimdə vətən sözü
Döyüşlərdən keçmişəm.

Sən ömrümsən, günümsən,
Mənim görən gözümsən.
Ürəyimsən, canımsan,
Həyatımsan, özümsən.

Sən bayraqsan əlimdə,
Sən nəğməsən dilimdə.
Mən getsəm də, vətən var,
Qorxum yoxdu ölümdən.

İnsanların qəlbində
Azalmır nədən eşqin?
Döyüşən biz deyilik,
Döyüşür vətən eşqi.

Doğmadır qəlbimizdə
Yurd salan vətən eşqi.
Vurulan biz, ölən biz,
Sağ qalan – vətən eşqi!

***

Göz gəzdirib salona,
Baba köksün ötürdü.
Sonra öz çıxışını
Bu sözlərlə bitirdi:

– Bir də toplar, tüfənglər
Dinməsin, balalarım!
Getsin o günlər, bir də
Dönməsin, balalarım!

İndi xoşbəxt yaşayır
Neçə oğlan, neçə qız.
Sizin ağ gününüzdür
Bizim mükafatımız.

Sevin doğma vətəni,
Sevin eli, obanı.
Sözünü xatırlayın
Hərdən Zəfər babanın.

Mərmilərin səsini
Batırsın gülüşünüz.
Qoy bəzəsin vətəni
Tərtəmiz, gül işiniz!

…Alqış qopdu salonda,
Hamı ayağa qalxdı.
Xitabət kürsüsünə
Gül axdı, çiçək axdı…

Babasının başına
Gül səpirdi Gülsabah.
Qucaqlayıb üzündən
Hey öpürdü Gülsabah.

Nəvə ilə babanı
Dövrələyib uşaqlar,
Dedilər Gülsabaha
Bizim də sözümüz var.

Baba təkcə sənin yox,
Babamızdı bizim də.
Sevinc yuva salmışdı
Gülsabahın üzündə.

Razılaşdı o saat,
Şirin-şirin qımışdı.
Bu gün o, babasını
Təzədən tanımışdı…

**1978**

## DƏHŞƏTLİ ƏSƏR

Ürəyimdə sözüm var,
Qulaq asın, uşaqlar.
Bir qəhrəman şəhərdən
Söhbət açım sizə mən…
Tarixlərin şahidi
Volqoqrad şəhəri.
Necə boğum qəzəbi,
Necə udum qəhəri?
Məzarla rastlaşıram
Burda hər addım başı.
Titrəyən ürəyimə
Axır gözümün yaşı.
Burda vətən yolunda
Ölən igidlər yatır.
Yurdumun hər yerindən
Gələn igidlər yatır.

Aman, bu dəm gözlərim
Bir binaya sataşır.
Titrəyirəm yerimdə,
Qəzəbim aşıb-daşır.
Dağılmış binaya bax,
Gör neçə güllə dəyib.
Tarixin bənizinə
Yağlı bir sillə dəyib
41-45 arası.
Göynəyəcək həmişə
Bu torpağın yarası.
O gün ki hücum çəkib
Bura yağı qoşunu,
Güllələr "sığallayıb"
Körpələrin başını.
Yandırır yanağımı
Gözlərimdən axan yaş.
Mamayev təpəsinə
Qalxıram yavaş-yavaş.
Dolan qara buluda
Bənzəri var gözümün.
Xatirə məzarı var
Bu təpədə Həzimin.
İgid qəhrəmanımın
Həsrətini duyuram.
Məzarının üstünə
Bakıdan gətirdiyim
Çiçəkləri qoyuram.
Sanki dillənir Həzi:
– Bakı da bura kimi
İndi qarmı, eloğlu?
Qəhrəman oğulların
Arasında mənim də
Adım varmı, eloğlu?

– Adın qəhrəmanların
Arasındadır, Həzi!
Adın yaşayanların
Sırasındadır, Həzi!
…Dəhşət basır adamı,
Eh, bu necə təpədir?
Qardaşlıq məzarları
Dənizsə,
Onda bura
Ən böyük bir ləpədir.
Lərzəyə düşür hər yan,
Danışdıqca Levitan.
Sanırsan müharibə
Qurtarmayıbdır hələ.
Tanklar, toplar, mərmilər
Yenə də gəlir dilə.
Burda vətən yolunda
Eh, nə qədər ölən var!
Dünyanın hər yerindən
Bu təpəyə gələn var.
Ürəkləri odlayır,
Sözündə kəsərə bax.
Nifrət, o sözə nifrət.
Sən bu müharibənin
Yazdığı əsərə bax,
İdeyası fəlakət.
Misraları güllələr,
Bəndlərisə məzardır.
Gör o necə bəladır,
Gör o necə azardır.

**1970**
**Volqoqrad, Bakı**

# OVÇUNUN QOŞALÜLƏSİ, CEYRANIN QOŞA BALASI

Ovçu Səfər,
Durdu səhər.
Tüfəngini
götürdü o.
Yenə ova
gedirdi o.
Yeriyirdi
asta-asta,
Gəlib çıxdı
çeşmə üstə.
Durub baxdı
heyran-heyran,
Su içirdi
ana ceyran.
Qoşalülə
gəldi dilə,
İnildədi
yazıq ceyran.
Qan fışqırdı
yarasından.
Ovçu Səfər
sevinərək
Çıxdı kolun
arasından.
Eşitcək
addım səsini,
Toplayıb
son qüvvəsini
Qaçdı ceyran…

Getdi Səfər,
Qan iziylə
səhər-səhər.
Gözlərinə
bax ceyranın
Elə bil ki,
bir bulaqdı.
Məməsindən
süd süzüldü,
Yarasından
al qan axdı.
Mələdi o
yana-yana,
Silkələndi
bu dəm tala.
Anasına
doğru gəldi
İki quzu,
iki bala.
Dayan, ovçu!
Aman, ovçu!
Yaram verir
al qan, ovçu!
Mən onsuz da
əlindəyəm,
Heçə döndü
arzularım.
Heç olmasa
bir az gözlə,
Əmib doysun
quzularım.
Balaları
əmdi onu,
Göz qaraldı,

dizlər əsdi.
Ovçu Səfər
yaxın gəlib,
Can verən
ceyranı kəsdi.
O, başını
qaldıranda
Qanlı gördü
dağı, düzü.
Qoşalülə
tüfəng oldu
Quzuların
ağlar gözü.
Gizlənməyə
çalışdı o,
Alovlandı,
alışdı o.
Uğuldadı
sanki meşə,
Hər uğultu
qəzəb oldu.
Göydə pərən-
pərən düşən
Buludların
gözü doldu.
Döndü evə
ovçu Səfər,
Ürəyində
giziltilər.
Günahını
anladı o,
Hey özünü
danladı o.
Yuxusuna

girdi onun
Qanlı çöllər,
qanlı düzlər.
Yuxusuna
girdi onun
Ağlar gözlər.
Keçibsə də
neçə illər,
O günləri
unutmayıb
Ovçu Səfər.
O zamandan
qoşalülə,
Gəlməyibdir
hələ dilə…

## PƏLƏNGBALA

Dedi: – Xoşuma gəlmir
Həyət-baca, ev-eşik.
Bir gün acıq eləyib
Meşəyə getdi pişik.

Kimi gördü söylədi:
– Görün necə qəşəngəm?!
Tanımırsınız məni? –
Pələng oğlu pələngəm.

Uzunqulaq dovşanın
Canına qorxu düşdü.
Bir bəhanə gətirib,
Tez aradan sivişdi.

Tülkü girdi deşiyə
Canının qorxusundan.
Səs düşdü ki, meşəyə
Gəlib güclü bir heyvan.

Dedi: – Birdən məni də
Zalım keçirər ələ. –
Ağacın kəlləsinə
Dırmandı qoçaq dələ.

Hamı Pələngbaladan
Danışdı orda, burda…
Xəbər çatdı ayıya,
Xəbər çatdı boz qurda.

Qoşulub bir-birinə
Onlar düşdülər yola.
Dedilər: – Gedib görək
Necədir pələngbala?

Pişiyin gəzişdiyi
Yerə gəldilər onlar.
Ayı dedi boz qurda:
– Söylə, nə təklifin var?

Sən gizlən xəzəllikdə,
Mənsə ağaca qalxım.
Burdan gəlib keçəndə
Pələngbalaya baxım.

Qurd lələ, sənin işin
Olacaq xeyli asan.
Xəzəllərin altından
Sən də qalxıb baxarsan.

Ayı qalxdı ağaca,
Boz qurd gizləndi yerdə.
Görək pələngbalanın
İşi qaldı nə yerdə? –

Nə ət tapdı meşədə,
Nə də ki, yağlı siçan.
Lovğa pişik az qala
Öləcəkdi acından.

Özünə yem axtardı,
Keçdi neçə dağ, dərə.
O gəldi yavaş-yavaş
Boz qurd gizlənən yerə.

Qurd başını yuxarı
Qaldıranda bir qədər,
Qulağına səs gəldi,
Xışıldadı xəzəllər.

Pişiyin gözlərinə
İşıq gəldi elə bil.
Düşündü: – Belə fürsət
Heç ələ düşən deyil.

Siçan gizlənib burda,
Tutub yeyərəm indi.
Bircə anda tullanıb,
Qurdun belinə mindi.

Bu ki, siçan deyilmiş,
Pişik də, Qurd da çaşdı.
Biri o yana qaçdı,
Biri bu yana qaçdı.

Tez ağaca dırmandı
Lovğa pişik qorxudan.
Ayı tir-tir əsirdi,
Bu nə işdir, ay aman!

Gəlir məni yeməyə, –
Ayı yumub gözünü,
Ağacın kəlləsindən
Yerə atdı özünü.

Dalına baxa-baxa
Meşədən qaçdı pişik.
Dedi: – Necə rahatmış
Həyət-baca, ev-eşik!

Daha onun arası
Yoxdur lovğalıq ilə.
O gündən lovğa pişik
Həyətdən çıxmır çölə…

## BAYQUŞ VƏ BİTDİYƏN

Bir dəfə əmr elədi
Quşların şahı bayquş:
– Gəlsinlər hüzuruma,
Qalmasın bir dənə quş!

Carçılar car çəkdilər,
Hamıya çatdı xəbər.
Buraxıb işlərini
Quşlar uçub gəldilər.

– Hamı gəlibmi, söylə? –
Şah soruşdu vəzirdən.
– Şahım, hamı gəlibdir,
Təkcə yoxdur bitdiyən.

Deyir: – Şah ağıllı söz
Deməyibdir heç zaman.
O danışanda ətim
Tökülür batman-batman.

Şah əmr etdi qırğıya:
– Tez ol, tap gətir onu!
Bir balaca boyu var,
Pozub bizim qanunu.

Caynağında gətirdi
Boz qırğı bitdiyəni.
Şah güldü: – Bu yaramaz,
Saya salmırmış məni?!

Caynağımdan qurtarmaq
Olmayacaqdır asan.
Cəzan da çox böyükdür,
Çünki əmri pozmusan.

Səni çəkdirəcəyəm,
Ətin olsa bir batman,
Söz verirəm ki, sənin
Keçərəm günahından.

Dilə gəldi Bitdiyən:
– Yalançı deyiləm mən.
Heç qəribə gəlməsin
Ay quşlar, sizə sözüm.

Şah sağ olsun, mənim də
Var öz daşım, tərəzim.
Bayquş güldü, bu sözlər
Gəldi onun xoşuna.
Çoxlu bəxşiş verdilər
O gün çəpər quşuna…

## QIZIL İLAN

Deyirlər ki, çox- çox kasıb
Kişi varmış, adı Nağı.
Bir övnəlik çörək üçün
Dolanarmış düzü, dağı.

Tikan satan bu kişinin
Bir oğlu, bir qızı varmış.
Bu fağırın əllərində
Üç adamın gözü varmış.

Dəhrəsini, yabasını
O, hər səhər götürərmiş.
Gündə azı üç-dörd vələ
Tikan qırıb gətirərmiş.

Çörək bükdüyü dəsmalı
Bir kölgəyə qoyarmış o.
Bir cam qatıq, bir yuxayla,
Çarə nədir, doyarmış o.

Qolunda hey qalmasa da,
Qocalsa da Nağı kişi,
İşləyirdi, tikan qırmaq
Olmasa da qoca işi.

Bir dəfə o, bərk acıbmış,
Gəlib ki, açıb dəsmalı,
Bir az qatıq çörək yesin, –
Yazıq kişi çaş-baş qalıb.

Görüb ki, bir qızıl ilan
Camdan yalayır qatığı.
Yaba ilə bu kafiri
Vurmaq istəyəndə Nağı,

Qızıl ilan dilə gəlib,
Deyib: – Əl saxla, ey insan!
Görürəm ki, tikan qırmaq
Sənin üçün deyil asan.

Hər gün bura mənim üçün
Bir cam qatıq gətirərsən.
Qabını boş qaytarmaram,
İki qızıl götürərsən.

İndi sənə dediyimi
Bir kimsə bilməsin amma.
İki qızıl salıb getdi,
Qızıl ilan dəmir cama.

Tez götürüb qızılları,
Sevincək üz qoydu kəndə.
İki qızıl qazanmışdı
Nağı kişi bircə gündə…

***

Bir cam qatıq aparармış
İlan üçün o, hər səhər.
Qabda qızıla dönərmiş
İlanın tökdüyü zəhər.

Bu münvalla keçdi günlər,
Bəxti gülmüşdü üzünə.
Nağı söküb daxmasını
Bir ev tikdirdi özünə.

Beş-altı ayın içində
Sel oldu dövləti, varı.
Ona qibtə edərmişlər
Kəndin varlı adamları.

***

Bir gün Nağı oğlu ilə
Qatıq göndərdi ilana.
"Özün gözə görünmə ha", –
Bərk-bərk tapşırdı ki, ona.

Oğlan gətirib qatığı
Qoydu kolun kölgəsinə.
Gördü qızıl ilan gəlir,
Uzaqlaşdı sinə-sinə.

İlan yaladı qatığı,
Öz-özünə dedi Həsən:
– Qızıl üçün gərək buna
Hər gün qatıq gətirəsən.

Öldürərəm bu əfini,
Get-gəl ilə yoxdur aram.
Yığıb bütün qızılları
Birdəfəlik apararam.

Yerdən yekə daş götürüb,
Tulladı qızıl ilana.
Quyruğu qırılmış əfi
O saat cumdu oğlana.

Neçə yerdən çaldı onu,
Həsən tapşırdı canını.
İlan acıqlı-acıqlı
Yalayırdı öz qanını.

***

Ata gözlədi, gözlədi,
Harda qaldı görən Həsən?
Tez barmağını dişlədi, -
Burda bir iş var deyəsən?!

Gəlib gördü oğul hanı? –
Oğul şişib damcan olub.
Həsənin öldüyü yerdə
İlanın quyruğu qalıb.

Kişi dəfn etdi oğlunu,
Hər gün ağladı, ağladı.
El-obanın adətincə
Bir il ona yas saxladı.

Gəlib ilanın yanına
Dedi: – Dost olaq yenidən! –
Bir quyruq nə olan şeydi,
Bir oğul itirmişəm mən.

Davam etsin mehribanlıq,
Keçdi keçən, oldu olan…
Gildir-gildir ağlayaraq
Dilə gəlib dedi ilan:

–Tutmaz daha dostluğumuz,
Gəl üz vurma, Nağı kişi!
Səndən oğul dağı getməz,
Məndən quyruq dağı, kişi!

Salamat qal, qayıt yenə
Ötən anlara, anlara.
Pul qazanan əllərin var,
Yenə də güvən onlara…

**1977**

## QARĞA VƏ İLAN

Bir qarğa yaşayırdı
Bir çayın sahilində.
Nəğmələr oxuyardı
Həmişə öz dilində.

Yuva tikərdi hər il,
Yumurtlayardı qarğa.
Hərdənbir yem dalınca
Uçardı qorxa-qorxa.

Yazığın qanadları
Baxmazdı heç sözünə.
Həsrət qalmışdı axı
Qarğa bala üzünə.

Onun qonşuluğunda
Bir ilan yaşayardı.
Qarğa yumurtasını
Evinə daşıyardı.

Yeyərdi acgöz-acgöz,
Ancaq ilan doymazdı.
Qarğanın kədərini
Anlamazdı, duymazdı.

Qarğa fəğan edərdi,
Neyləsin, neçə ildir
Bala çıxara bilmir, –
Ağlardı gildir-gildir.

Yazığın ürəyində
Nə qədər dərdi vardı.
Gücü çatsa, ilanın
Gözlərini oyardı.

Hər yumurta bir bala,
Hər yumurta bir arzu.
Şirin övlad səsinə
O, qalmışdı tamarzı.

Bala dərdi yamandır,
Neyləsin indi qarğa?
Çarələr düşünərdi
O fağır qorxa-qorxa.

Bir gün bağda uçanda
Gördü bir göyçək gəlin
Çarhovuzun yanında
Yuyur ayağın, əlin.

Açıb boyunbağını
Qoyubdur bir tərəfə.
İncilər, mirvarilər
Əcəb düzülüb səfə.

Birdən nə düşündüsə,
Dörd yana baxa-baxa,
Yumub qanadlarını
Görün neylədi qarğa? –

Enib boyunbağını
Götürdü dimdiyinə.
Gəlin peşiman oldu
Soyunub çimdiyinə.

Geyinib paltarını,
Haray saldı, gəldilər.
Elə ki, hay-harayın
Səbəbini bildilər,

Qarğanın arxasınca
Yüyürdülər adamlar.
Qarğa baxıb sevindi:
– Gör nə qədər adam var!

Qarğa heç tələsmirdi,
Uçaraq yavaş-yavaş.
İlanın yuvasının
Yanına gəldi birbaş.

Budur, ilan uzanıb,
Günə verir özünü.
Lovğa-lovğa qarğaya
Zilləyəndə gözünü,

Quş gördü ki, az qalıb
Çatsın ora adamlar.
Atıb boyunbağını
Nəğmə oxudu: – Qarr, qarr…

Boyunbağı ilanın
Yanındadır gördülər.
Ağac ilə, daş ilə
İlanı öldürdülər.

Alıb boyunbağını
Onlar dönəndə kəndə,
Qarğa şənlik edirdi
Allı-güllü çəməndə.

– Öldürtdüm düşmənimi,
Bəxtiyaram, bəxtiyar.
Qarr… Qarr…
Yetəcəyəm arzuma,
Çox sağ olsun adamlar,
Qarr… Qarr…

Yəqin ki, eşitmisən
Bu xəbəri, ay Solmaz:
"Buynuzsuzun qisası
Buynuzlu qoçda qalmaz!"

**1977**

## BEÇƏLƏR

Pətəyin qarşısında
Duman qalxdı elə bil.
Babasını çağırdı
Bizim balaca Ramil.

Baba gəlib yaxına,
Bir an getdi xəyala.
– Arı beçələyibdir,
Duman hanı, ay bala?

Uçub qondu beçələr
Tutun bir budağına.
Ayağının ucunda
Baba gəldi yaxına.

Dedi ki, beçələrə
Lazımdır təzə pətək.
Ramil öz babasına
Kömək etdi sevincək.

– Oğul, hər şeydən əvvəl
Yem gərəkdir onlara.
Baba yeşik gətirib,
Şirə səpdi şanlara.

Sonra qoydu yeşiyi
Beçələrin yanına.
Beçələr darışdılar
Şirin şanın canına.

Baba yavaşca örtdü
Qapağını yeşiyin.
Hazırdır beçələrin, –
Dedi, – evi, eşiyi…

Çıxıb kiçik deşikdən
Arılar uçdu bir-bir.
Ramil hay-haray saldı:
– Arılar qaçdı bir-bir!

Baba güldü: – Ay oğul,
Ağlama, qaçmır onlar.
Yenə qayıdacaqlar,
Uzağa uçmur onlar.

Sevinmək əvəzinə
Ağlayırsan bəs niyə?
Beçələr gedib sənə
Təzə bal gətirməyə…

## TARLA DÜŞƏRGƏSİNDƏ

Ana yüyrük asmışdı
Tarla düşərgəsində.
Şeytan qız yellənirdi
Ağacın kölgəsində.

Gəlincik qucağında
Yuxuya getdi körpə.
Ana getdi güllərə,
Çiçəklərə su səpə.

Haray saldı böyüklər,
Haray saldı uşaqlar.
Ora baxın, qartalın
Caynağında uşaq var!

Ana saçını yoldu,
Ana fəğan qopardı:
– Ay adamlar, qoymayın,
Balamı quş apardı!

Qoruqçu Nəsib kişi
Qartalı nişan aldı.
Güllə açılan kimi
Qartal uşağı saldı.

Qulaqlar tutulurdu
Ananın fəğanından.
Düşən salamat qalar
Buludların yanından?

Qartalın caynağından
Düşən gəlincik idi.
– Bu mənim balam deyil,
Onun gəlinciyidi!

Adamlar gülüşdülər,
Sevinib qaçdı ana.
Körpəsini yüyrükdən
Alıb basdı bağrına!

## ŞANAPİPİK ƏFSANƏSİ

Bu quş alabəzəkdi,
Sanki uçan çiçəkdi.
Adı nədir bəs onun? –
Soruşdu bizim Ülkər.
– Ona həm şanapipik,
Həm də hop-hop deyirlər.
Fikirləşib bir qədər,
Belə söylədi Ülkər:
– Hop-hop şanapipiyin
Familyasıdı bəlkə?

***

Ata güldü: – Ay qızım,
Bir az yaxın gəl mənə.
Bir əfsanə danışım
Bu quş haqqında sənə.

Qədimdə, lap qədimdə
Bir qız varmış, qız nə qız!
Saçı bir topa bulud,
Gözləri bir cüt ulduz.

Bir oğlan görüb onu,
Yanağı dönüb közə.
O bəxtəvər igidə
Könül verib bu gözəl.

Gözlərində qalmayıb
İki gəncin diləyi.
Bir gün toy-düyün olub,
Qara zurna mələyib.

Dağlara səda düşüb
"Vağzalı"nın səsindən.
Al-əlvan güllər qalxıb,
Torpağın sinəsindən…

Təzə bəyin anası
Sevincdən əl-qol açıb.
Gəlinin qədəmləri
Dəyən həyət gül açıb.

Bəzək vurub bu evə,
Çırmalayıb qolunu.
Gözləyib ehtiramla
Böyüklərin yolunu.

Gəlinin qanacağı
Mat qoyub dostu, yadı.
Qaynananın dilindən
Düşməyib onun adı.

Bir gün daraq götürüb
Həmin gəlin əlinə,
Yenə sığal çəkirmiş
Öz xurmayı telinə.

Birdən qoca qaynata
Görünübdür həyətdə.
Daraq saçında qalıb,
Gəlin donub heyrətdən.

Düşünüb, bu nə işdi,
Kim mənə etdi qarğış?
Xəcalətdən ölürəm,
Daş olaydım, ya da quş!

Saçımı darayanda
Məni gördü bu qoca…
Birdən gəlin quş oldu,
Uçub qondu ağaca…

***

Qızım, hop-hop həyadan
Quşa dönən gəlindi.
Sən onun başındakı
Darağa bax gəl indi.

Şana – daraq deməkdi,
Yadında qalsın, Ülkər.
Ona görə bu quşa
Şanapipik deyirlər…

**20. 06. 1983**

# DUZ

Oğrular gəlib
evə çıxdılar.
Çəkidən yüngül,
Qiymətdən ağır
Nə var, yığdılar.

Otaq qaranlıq,
Evdə yox kimsə.
Birdən birinin
Bir yumşaq kisə
Dəydi əlinə.
Tez barmağını
Vurdu dilinə.

Halı dəyişdi,
O, gəldi dilə.
Dostuna dedi
Pıçıltı ilə:

– Nə götürmüsən,
Yerinə qaytar.
– Nə oldu sənə,
Yoxsa gələn var? –

Dostuna baxdı
Dost maddım-maddım:
– Ev sahibinin
Duzunu daddım.

Gərək əliboş
Dönək geriyə.
Xəyanət olmaz
Duza, çörəyə…

**1981**

# “Bulud fayton” kitabından

## İŞIQ, SU, TORPAQ, HAVA, BÜTÜN DƏRDLƏRƏ DƏVA…

### VƏTƏNİM

Mənə dayaq, mənə həyan olanım,
Pərvanə tək qoy başına dolanım!
İşıq olub gözlərimə dolanım,
Çiçək olub ürəyimdə bitənim! –
Vətənim!

Gülüm solsa, yağış olub yağanım,
Kürə dönüb damarımda axanım,
Hara getsəm, yollarıma baxanım,
Dara düşsəm, köməyimə yetənim,
Vətənim!

Dağlarına baxıb gəlir həvəsim,
Xəzərindən əsən külək – nəfəsim.
Bu dünyada  söylə varmı əvəzin? –
Qurban sənə ruhüm, canım, bədənim,
Vətənim!

**05.06.2015**

## UNUTMA Kİ…

Unutma ki, heç zaman
bu torpağa bağlısan,
Azərbaycan qızısan,
Azərbaycan oğlusan!

Tomrisin, Xətainin
qanı axır qanında,
Yurdumun havası var
nəfəsində, canında.

Qəhrəman babaların
daşa dəyməyib oxu,
Sən də öz hünərinlə
düşmənə meydan oxu!

Tənha qoyma dostunu
dar ayaqda heç zaman,
Bu vətənə, bu elə
sevgin qoy olsun ümman!

Əllərinlə ucalsın
yurdumuzun bayrağı,
Sən haqqın, ədalətin
dayağı ol, dayağı!

Möhkəm ol öz əhdində,
möhkəm ol öz sözündə,
Əməlinlə, işinlə
ucal elin gözündə!

Utandırma heç zaman
öz qohum-qardaşını,
Hünər göstərib, ucalt
yurdumuzun başını!

Pisliklərdən uzaq qaç,
yaxşılıq et həmişə,
Qoy köksündə ürəyin
dönsün nurlu günəşə!

Oxu, öyrən, öyünmə,
başını sal aşağı,
Ömrünə bəzək olsun
elmin nuru, işığı!

El yolunda ən uzaq
səfərlərə hazır ol,
Ən ağır döyüşlərə,
zəfərlərə hazır ol!

**30.04.2014**

## LƏLƏTƏPƏ

Çox gəzsəm də dünyanı
Görmədim belə təpə.
Dönüb söz kürsüsünə
Elə bil Lələtəpə.

İgidlər düşmənlərin
Oyacaqdır gözünü.
Tanklar, toplar deyəcək
Bu kürsüdən sözünü.

Bu təpəni geriyə
Qaytardı Mais, Şükür.
Döyüşdən qalib çıxdıq,
Şükür, Allaha şükür!

İgidlər yandırdılar
Sanki sönən çırağı,
Bu təpədə nur saçır
Azərbaycan bayrağı!

Bu təpə bəxtəvərdi,
Bayraq boyu ucalıb.
İgid oğullarımız
Bu bayraqdan güc alıb.

Gendən baxan yağını
Yandır indi, yax indi.
Bu təpədən baxanda
Qələbə çox yaxındı…

Uçmaq istəyirik biz
Çevrilib qızıl quşa.
Bu bayrağa göz dikib,
Qubadlı, Laçın, Şuşa!

**24.04.2016**

## TANRI YANDIRAN OCAQ

Elə yanan yoxdu ki,
Sonu külə dönməsin!
Elə ocaq yoxdu ki,
Yanıb, yanıb sönməsin.

Günəş min, milyon ildi
Yanır, sönməyir ancaq.
Möcüzədir, möcüzə
Tanrı yandıran ocaq…

**26.05.2016**

## HEÇ VAXT SOLMAYAN ÇİÇƏK

Bu çiçək yer üzündə
Çiçklərin şahıdı.
Bu çiçək neçə-neçə
Əsrlərin şahidi…

Onsuz bu yer üzündə
Bircə gül-çiçək olmaz…
Milyon illərdir açan
Bu çiçək heç vaxt solmaz.

Yeganə çiçəkdi ki
Yaşaya bilir susuz…
Yeganə çiçəkdi ki,
Hamıya çatır pulsuz.

Bu çiçəkdən nur alır
Bütün çiçəklər, güllər.
Bu çiçəksiz zülmətə
Qərq olardı könüllər…

Hər güldən çox sevirəm
Mən bu sarı çiçəyi…
O günəşdi, şəfəqlər
Sarı-sarı ləçəyi…

**22.05.2016**

## KAŞ

Baxmaqla doymaq olmaz
Bizim gözəl dünyaya.
Kaş bir nərdivan qoyub,
Qalxa biləydim Aya!

Üzümü söykəyərək
Onun parlaq üzünə,
Qulaq asa biləydim
Söhbətinə, sözünə.

Şirin-şəkər kəlmələr
Növbəyə düzüləydi.
Nağıllar ay nuru tək
Üstümə süzüləydi.

Ulduzlar bənzəyirlər
Şəfəq saçan noğula.
Kaş mənim həyatım da
Bənzəyəydi nağıla!

**16.11.2013**

## GÜNƏŞ ÇİMİR XƏZƏRDƏ

Gözünə getmir çimir,
Günəş dənizdə çimir. –
Səhər qalxır Xəzərdən,
Gen olsun bədnəzərdən!

Mat qalmışam hüsnünə,
Gözüm ondan üzülmür.
Dənizdən çıxır, ancaq
Üstündən su süzülmür…

**25.07.2014**

## EL VƏ DİL

Əvvəlcə evini sev,
Sonra yurdu, elini.
Əvvəlcə ananı sev,
Sonra ana dilini!
El yoxdusa, dil yoxdu,
Dil yoxdusa, el yoxdu…

**15.06.2014**

## TORPAQ, SU, İŞIQ VƏ HAVA

Hava, su təmiz olanda
Hamı, hər kəs tapar şəfa!
Həyatın dörd ünsürüdü
Torpaq, su, işıq və hava!

Yaz yağışı səpildikcə,
Bəzənər çöllər, yamaclar!
Su atadı, torpaq ana,
Övladdı otlar, ağaclar!

Günəş gülər, külək əsər,
Şaqqıldayıb axar sular!
Hava – həyat cövhəridi,
İşıq – tükənməz arzular!...

**14.11.2015**

## MAVİ YORĞAN

Bu dənizin qoynunda
Oy, nə qədər balıq var.
Dəniz yorğan altında
Mürgüləyir balıqlar…

**09.10.2016**

## HAVA

İnsanı göyə qaldırıb
Nə zamansa hava şarı!
Hava həmişə olubdur
Canlıların havadarı!

O, yelkənli qayıqlara
Elə bil ki, qanad verib.
İşləyib yel dəyirmanı, –
Külək ona həyat verib.

İndi insan mehdən belə
Öyrənib işıq almağı.
Tanrı bizə göstərməsin
Bir an havasız olmağı!

Küləyin qanadlarında
Qəlbimiz quş kimi uçur.
Hava olmasa,  budaqlar
Yazda olmaz puçur-puçur.

Hava çatışmayan yerdə
Ocaq da qalamaq olmaz.
Hava, su olan bağçada,
Heç zaman gül-çiçək solmaz.

Özüylə həyat gətirir
Elə ki sərin meh əsdi.
Hava saçımızda sığal,
Ciyərimizdə nəfəsdi…

Nə yaxşı günəş nur saçır,
Nə yaxşı ki, külək əsir.
Maşın yerdə şütüsə də,
Havanın üstündə "gəzir".

Müsibət olur yaşamaq
Orda ki, hava, su çatmır…
Təkərin, şinin içində
Havanın havası çatmır…

Bura odlar diyarıdı,
Kibrit çəksən, hava yanar.
Hava pis olan diyarda
Bəşər oğlu havalanar.

Günəşə, havaya, suya
Borcludu hər gül, hər yarpaq.
Həyatın dörd sütunudu
Hava, su, işıq və torpaq…

**22.11.2015**

## GÜN VƏ AY

Gecə-gündüz hey axır,
Sanma bulaq, çay yatır.
Ay çıxanda Gün batır,
Gün çıxanda Ay batır…

Şəfəqlərə qərq edir
Dərəni, dağı Günəş.
Gecənin şahı Aydı,
Gündüzün şahı Günəş…

**2014**

## AY QAYIĞA BƏNZƏYİR

Gör səmada nə qədər
Topa-topa bulud var.
Göylər sanki dənizdi,
Dalğaları buludlar.

Səmanı gündüz günəş,
Gecələr ay bəzəyir.
Nur saçan hilala bax,
Bir qayığa bənzəyir.

Heyrətlə boylanıram,
Möcüzədir göy üzü.
Ay bulud dalğaları
Yara-yara hey üzür…

**14.07.2015**

## DƏNİZƏ YAĞAN YAĞIŞ

Ləpədöyəndə gəzib,
Söhbət eləyirdik biz.
Birdən yağış başladı,
Tüklərim oldu biz-biz.

Bumbuz damlalar sanki
Hey məni çimdiklədi.
Elə bil bir dəstə quş
Belimi dimdiklədi…

Yağış yağdı sahilə,
Yağış yağdı Xəzərə.
Qəlbimi ovsunladı
Bu qəribə mənzərə…

Güc alıb  mənə baxan
Təbəssümlü baxışdan,
Qaçıb girdim dənizə
Qorunmaqçın yağışdan…

**27.06.2015**

## TƏMİZKAR DƏNİZ

Çaylar daşıb özüylə
Nələr, nələr gətirir?!
Xəzər bilmir neyləsin,
Sakitcə köks ötürür…

Sevmir natəmizliyi
Durub məqam gözləyir.
Arabir dalğalanıb,
Özünü təmizləyir.

Dəniz çox təmizkardı,
İşini yaxşı bilir…
Üstümüzə qaytarır
Atdığımız zibili…

Dalğalanır, kükrəyir
Yoxdur başqa əlacı.
O, sahilə tullayır
Bütün ağac-uğacı…

**04.07.2016**

## KƏPƏNƏYİN NAĞILI

Babamın maşınında
Gəzməyə getdim dağa.
Hər yan gül-çiçək idi,
Qalmışdım baxa-baxa.

Meh əscək yellənirdi
Ətir saçan çiçəklər.
Çəmənin üstü ilə
Uçurdu kəpənəklər…

Dağların saf havası
Yaman gəldi  xoşuma.
Şüşəni endirdim ki,
Hava dolsun maşina.

Gəzdik çölü-çəməni,
Su içdik buz bulaqdan.
Dərib evə gətirdik,
Yarpızdan, quzqulaqdan…

Anama vermək üçün
Xeyli gül-çiçək dərdim.
Şəhərə qayıdanda
Bilirsiniz nə gördüm?

Dərdiyim çiçəklərin
Üstündə bir kəpənək!
Bu biçarədən ötrü
Bir də gerimi dönək?

Bəlkə dərdiyim çiçək
Onun çiçəyi imiş?
Onu maşina salan
Sevən ürəyi imiş?!

Bu kəpənəyə baxın,
Çıxıb uzaq səfərə.
Minib maşınımıza
Dağdan gəlib şəhərə…

Şüşəni endirən tək,
Qanad açdı kəpənək.
Başımızın üstündə
Uçdu-uçdu kəpənək.

Ondan soruşdum: – Niyə
Tez-tələsik uçursan?
Səndən pul istəyən var,
Hara belə qaçırsan?!

Xoş gəlmisən şəhərə,
Ancaq tələsmə, düşün!
Sərçənin dimdiyinə
Tuş gəlsən bitdi işin.

Evinə qaytarardıq
Qayıtsaydın maşına.
Qorxuram bu şəhərdə
Nəsə gələ başına.

Bu yazığın işinə
Mat-məəttəl qalmışam.
Acıyıram halına,
Bulud kimi dolmuşam.

Görən bir də sevinib,
Bir də güləcəkmi o?
Gül-çiçəkli çəmənə
Dönə biləcəkmi o?

Uçdu, uçdu, nə olar
Təki canı sağ olsun!
Seyrəngahı yenə də
Çəmən olsun, dağ olsun!

**28.06.2015**

## ÇƏMƏN ANA VƏ ÇİÇƏK

Çəmən ana hirsləndi
Boynubükük çiçəyə:
– Niyə könül verirdin
Bir sərsəri küləyə?!

**14.06.2014**

# ŞƏHƏRƏ KÖÇƏN ÇƏMƏN

Dağlardakı çəmənliyi
Şəhərə köçürmək üçün,
Yamaclardan kəsərək çim,
Maşınlara yığdıq çin-çin.
Yol boyu otlar, çiçəklər
Ağladılar için-için…

Şəhərə yetişən kimi
Boylanıb o yan, bu yana,
Təzə çəmən düzəltdik biz
Çimləri düzüb yan-yana.

Çiçəklərin gözü dolub,
Güllər olub qəlbi kövrək.
Ay şəhərə köçən çəmən,
Təzə yurd yerin mübarək!

Səni bitdiyin torpaqla
Birgə bura gətirmişik.
Hər an nazını çəkməyi
Boynumuza götürmüşük.

Çəmənim, sən qəribliyə
Salma söylədiyim sözü.
Yamyaşıl ol, daim gülsün
Sənə baxanların gözü!

**13.06.2014**

## QOŞA BULAQ

Bu dağın yamacında
Qoşa bulaq çağlayır.
Otları, bitkiləri
Hər an yaşıl saxlayır.

Qoşa bulaq hey axıb,
Dörd tərəfi bəzəyir. –
Quraqlığa tuşlanan
Cüt lüləyə bənzəyir…

**04.06.2015**

## ATALAR SÖZÜ

Onlar tarixdən
Süzülüb gəlib.
Muncuq tək sapa
Düzülüb gəlib.

Müdrik olmasa
Atalar özü,
Məna kəsb etməz
Atalar sözü.

Bilir böyüklər,
Bilir uşaqlar:
Hər kəlməsində
Onun işıq var.

Söz yol göstərir,
Söz qapı açır,
Sanki günəşdi
Söz şəfəq saçır…

Göstərir bizə
Hər an doğru yol.
Deyir ki, zaval
Yoxdu doğruya.

Hər kəlmə üstdə
Gərək düşünək.
Sözün istisi
Qoymur üşüyək.

Kəlmələr köz tək
İsidir bizi,
Qaynar ocaqdır
Atalar sözü…

Hər kəlməsində
Məna uyuyur.
Müdrik sözləri
Müdriklər duyur…

**30.05.2016**

## KƏPƏZ, GÖY VƏ GÖYGÖL

Kim tanımır
Kəpəzi? –
Yay-qış ağdı
təpəsi.
Keşik çəkir
Göygölə,
Qonaq gəlib
göy gölə.

Göl göydədi,
göy göldə,
Min büsat var
Göygöldə…

**12.03.2016**

## UD

Uddu, uddu, uddu bu,
Elə bil ki, oddu bu!
Közərib için-için
Dincliyimi uddu bu!

O dinəndə qəlbimdə
Sanki ulduz sayrışır…
Muğam uda yaraşır,
Ud muğama yaraşır.

O səs haqqın səsidir,
Qəlbimizi isidir.
Ömrümüzə nur saçan
Muğamın şöləsidir.

Bənzəri yox daddı bu,
Dadımıza çatdı bu!
Üşüyən qəlbimizdə
Qaynar ocaq çatdı bu!

İçimdəki zülməti
Udum-udum uddu bu!
Uddu, uddu, uddu bu,
Bir sehrli oddu bu…

**13.03.2016**

## ŞİRİN TORPAQ

Böüyrtkən kollarıyla
Doludur yamac, dərə…
Biz söhbət eləyirdik
Böyürtkən dərə-dərə.

Böyürtkənlər qapqara,
Böyürtkənlər şipşirin.
Birdən belə söylədi
Bizim balaca Şirin:

– Yəqin ki, şipşirindi
Bu yerlərin torpağı.
Yoxsa bu böyürtkənlər
Dadlı olmazdı axı?!

**21.05.2016**

## YAZIN BAYRAĞI

Yeri-göyü zəbt eləyib,
Qışın bəyaz qoşunu.
Qar altında novruzgülü
İtiribdir huşunu.

Mürgüləyən bənövşənin
Xəbəri yox xəbərdən.
Axıb gedən çayları da
Şaxta salıb təpərdən.

Nə qara, nə də çovğuna
Təslim olmur adamlar.
Hərəsinin ürəyində
İlk baharın odu var…

Onlar ocaq qalayanda
Qışı tutar sancılar.
Tüstü yazın bayrağı tək
Bacalara sancılar…

**26.01.2016**

## PALID

Palıdam mən, palıdam,
Başım çatır buluda.

Meşələr nəhəngiyəm,
Ucalıram mən göyə!

Yerə gedir ki, zoğum,
Rahatca göyə qalxım.

Başım buluda çatar,
Kölgəmdə sürü yatar.

Koğuşumda gecələr,
Qərib yolçu gecələr…

Baxma gövdəm nəhəngdi,
Yarpaqlarım qəşəngdi…

Elə ki əsir külək,
Qozalarım sırğa tək,

Budağımda yellənir,
Yarpaqlarım dillənir.

Yerə kölgə salıram,
Çox mehriban oluram.

İşimdən zövq alıram,
Xəyallara dalıram…

Mən palıd ağacıyam,
Meşələrin tacıyam…

**10.04.2016**

## VƏLƏS

Vələsə bax, vələsə,
İstəyir ki, yel əsə,
Küləyin sinəsində
Sehrli saza dönə.
Budaqları dil aça,
Həzin layla tək dinə.
İstəyir ki, titrəyən
Yarpaqları oxuya,
Üstündəki yuvada
Quşlar gedə yuxuya!

**10.04.2016**

## İSTİRAHƏT ELƏMİR

Bir həftədi hey yağır,
Göydən leysan ələnir.
Bəs yağış bazar günü
İstirahət eləmir?

**20.11.2016**

## GÖYRÜŞ – VƏN

Göyrüşəm mən, göyrüşəm,
Dərindədi göy rişəm.
Boy atıram, mən gərək
Buludlarla görüşəm!

Külək mizraba dönsə,
Budağımda şərqi var.
Mənə vən də deyirlər,
Vən, göyrüş, nə fərqi var?

Yarpaq dodaqlarımdan
Həzin mahnı süzülər.
Mən oxuyanda, quşlar
Tamaşaya düzülər.

Şux palıdın, vələsin
Yaxın dostu mənəm, mən.
Meşənin yaraşığı
Göyrüşəm mən –
vənəm mən!

**23.03.2016**

## QULAQLI VƏLƏS

Quzunu qulaqlayıb,
Nəvəm bağçaya çəkdi.
Hər tərəf yaşıl çəmən,
Hər tərəf gül-çiçəkdi…

Elə ki, çəmənliyə
Quzusunu ötürdü.
Göz dikdi ağaclara,
Onu fikir götürdü…

Vələs budaqlarına
Durub maraqla baxdı.
Yarpaqların hərəsi
Elə bil bir qulaqdı.

Baba, mənim quzumun
İkicə qulağı var.
Vələsə bax,  vələsə,
Bu qədər qulaq olar?!

Sanki ağacın gözü
Dikilib uzaqlara.
Nə isə pıçıldayır
Külək bu "qulaqlar"a…

**24.05.2016**

## GİVİC

Bizim kənddə qocalar
Yemşana givic deyir.
Təəccüblə baxıram, –
Baba, bu givic deyil!

Babam baxır nənəmə,
– Gör nə deyir bu uşaq?! –
Min ilin sərçəsinə
Civ-civ öyrədənə bax!

Əzəl gündən söz olub
Bu dünyanın yaşıdı.
Söz özündə keçmişdən
Nələrisə yaşadır.

Birdən düşər  it-bata,
Sözü qorumalıyıq!
Ocağımızda qalan
Közü qorumalıyıq.

Nənəm: – Çox faydalıdır,
Bu yemşan – givic, – deyir.
Ondan çay dəmləmişəm,
Yaxına gəl, iç! – deyir.

**21.01.2016**

## XIRNAVA

Çatılıbdır yenə də
Göyün bulud qaşları.
Sel təsbeh tək oynadır,
Xırda-xuruş daşları.

Onları qova-qova,
Elə bil çıxıb ova,
Çala-çuxur yaradıb
Sel yeri ova-ova.

Xırda-xuruş daşlara
Bu kənddə xır deyirlər.
Sel onları aparır
Əvvəl-axır! – deyirlər.

Gəlib dolduğu üçün
Xırda daşlar – xır nova,
Sel oyan çuxurların
Adı qalıb xırnava…

**19.01.2016**

# KÜLƏYİN NƏĞMƏLƏRİ

## XOŞ GƏLMİSƏN, AY KÜLƏK

Nəfəs ala bilmirdik,
Hava gətirdin bizə!
Xoş gəlmisən, ay külək,
Sən bizim kəndimizə!...

Otur dincəl bağçada,
Hey əsirsən, əsirsən.
Bura xoşuna gəlmir,
De, hara tələsirsən?!

– Gül-çiçəyi kökündən
Qoparmaq istəyirəm.
Yaxşı nə var, özümlə
Aparmaq istəyirəm...

**17.11.2013**

## ÇOBAN KÜLƏK

Buludlar sürü-sürü,
Buludlar qatar-qatar.
Dəli külək onları
Öz qabağına qatar.

Qaranlığa sancılar
Qızıl-qızıl fişənglər.
Yol göstərir elə bil
Şümşürüklər – şimşəklər!

Çoban külək hirslidi,
Od çıxır nəfəsindən.
Az qalır qulaq bata
Harayından, səsindən.

O bəhanə axtarır
Çomağını çaxmağa.
Buludları gətirir
Kəndimizdə sağmağa…

**09.07.2014**

## RƏSSAM KÜLƏK

Günəş çıxır təzəcə,
Hər şüa qızıl oxdu.
Yer üzündə dənizdən
Gözəl bir tablo yoxdu.

Əsrarəngiz lövhələr
Hər an, hər an dəyişir.
Balıqçı qayıqları
Dalğalarla döyüşür.

Ulu Tanrı min rənglə
Bəzəyibdir cahanı.
Küləyin fırçasından
Qüdrətli fırça hanı?

**07.07.2014**

## KÜLƏK VƏ DALĞA

Külək əsir, yellənən
Dəniz necə gözəldir!
Külək memardı sanki,
Sudan dalğa düzəldir…

**24.09.2014**

## OĞRU KÜLƏK

Dondurma almaq üçün
Həyətə yüyürdüm mən.
Birdən külək pulumu
Alıb qaçdı əlimdən.

Aşıb getdi o yana
Dırmanaraq hasara.
O, pulumu əlimdən
Qapıb qaçdı bazara…

Məni peşman elədi,
Güllə dəysin gözünə!
Bilmirəm bir manata
Nə alacaq özünə?

**24.06.2014**

## KÜLƏKLƏR ARASINDA

Gah Xəzriyə tuş gəlir,
Gah da ki Giləvara.
Küləklər arasında
Qalıbdır gül avara…

**15.12.2014**

## KÜLƏYİN İNTİQAMI

Adamlar çıxıb gedib,
Sahildə zibil qalıb. –
Dəniz yaman hirslənib,
Üzünü bulud alıb…

Hey kükrəyir, çırpınır,
Külək haray qoparır –
Zibili adamların
Arxasınca aparır…

Külək çatıb şəhərə,
Dönüm onun gözünə!
Yerə zibil atanın
Zibil çırpır üzünə!

**25.07.2014**

## XƏZRİ, ƏS

Yandırdı çölü-düzü,
Giləvar qırdı bizi!

Ala bilmirik nəfəs,
Xəzri əs, xəzri, əs!

Yoxdu sənin bənzərin,
Əs, sevindir Xəzəri!

Dalğaları əzizlə,
Havamızı təmizlə!

Ürəyimizdə həvəs,
Rahatca alaq nəfəs!

Xəzri əs!
Xəzri, əs!

**10.09.2015**

## XƏZRİ VƏ GİLƏVAR

– Xəzri, Giləvar nədir, –
Söylə görüm, ay Mələk?
– Xəzri soyuq küləkdi,
Giləvar isti külək.

– İndisə sualıma
Sən cavab ver, ay Bəsti.
Nə üçün Xəzri soyuq,
Giləvar olur isti?

– Yel əsəndə elə bil
Həyat gəlir, can gəlir.
Giləvar isti yerdən,
Xəzri şimaldan gəlir!

**24.09.2014**

## XƏZRİ ELƏ GƏLDİ Kİ

Xəzər cilvələnsə də,
Əsirdi isti külək!
Boğanaq qoymurdu ki,
Rahat danışaq, gülək.

Taqətimiz qalmadı,
Nəfəsimiz üzüldü.
Giləvar gilə-gilə
Canımızı üzürdü.

Onun qaynar nəfəsi
Çiçəkləri saraltdı.
Cənubdan əsən külək
Hövsələmi daraltdı.

Xəzər cilvələnsə də,
Yox çimməyə həvəsim.
Sanıram ki, indicə
Kəsiləcək nəfəsim…

Birdən möcüzə oldu,
Giləvar oldu Xəzri.
Şimaldan gələn külək
Dolandı bütün ərzi.

Min şükür bu havaya,
Min şükür bu günəşə!
Bütün dalğa yelpiklər
Düşdü bir anda işə!

Belə də külək olar,
Damı-daşı uçurtdu. –
Xəzri elə gəldi ki,
Giləvarı qaçırtdı…

**08.07.2016**

## HASARLAR SÖKÜLMƏSƏ

Hanı bal kimi əncir,
Qara şanı, ağ şanı?
Abşeron bağlarının
İtib şöhrəti, şanı…

Külək aşa bilmirsə
Usa hündür hasarı,
Tənəkləri ha sula,
Yaramızı ha sarı.

Gərək qumun üstünə
Günəş şəfəqlər səpə.
Gərək Xəzri, gilavar
Yanaqlarımdan öpə.

Gərək qumun üstünə
Salxımlarım sallana.
Gərək külək öpə ki,
Gilələrim ballana! –

Haray salır, qışqırır
Abşeronun üzümü:
– Hasarlar sökülməsə,
Görməzsiniz üzümü…

**06.07.2016**

## XƏBƏRİ YOXDU

Dalğalar hey çırpılır
Qayalara hirs ilə. –
Külək yatıb, dənizin
Xəbəri yoxdu hələ…

**03.07.2016**

# ÖMRÜN BAHARI, YAYI, TANRININ SEVGİ PAYI

## NƏNƏLƏR, BABALAR, NƏVƏLƏR

Bizim həyatimizdə
Gör nə qədər uşaq var!
Böyüklər olmasaydı,
Neyləyərdi uşaqlar?!

Kim onlara budaqdan
Meyvələr qopardı?
Kim onları bağçaya,
Məktəbə apardı?

Kim əllərindən tutub
Yıxılmağa qoymazdı?
Təptəzə çiçək kimi
Kim onlara qıymazdı?

Nəvələrin əlindən
Tutan baba-nənələr
Bəlkə istəyirlər ki,
Uşaqlığa dönələr?!

Ay nənə, nə yaxşı ki,
Nənələr, babalar var! –
Yoxsa balacaların
Qayğısına kim qalar?!

**10.11.2013**

## BİTDİLİCƏ

Babam kiçik bacıma
Bitdilicə söyləyir.
Bilirsən evimizdə
Bitdilicə neyləyir?

Xətrinə dəyən kimi
Əl uzadır saçıma.
Kimin nə həddi var ki,
Bir söz desin bacıma?!

Bitdilicə hamını
Barmağına dolayır.
Əl uzatsan, adamı
Gicitkən tək dalayır.

Yenə yazı masama
Çıxıb bu Bitdilicə.
Canımı boğazıma
Yığıb bu Bitdilicə.

Hey töküb-töküşdürür,
Yığışdıransa, mənəm.
Baxıb bu cubbuş qıza
Sevinir babam, nənəm…

Axır ki, mən dözməyib
Verdim belə bir sual:
–Ay baba, Bitdilicə
Nə deməkdi, başa sal?!

Babam gülümsəyərək
Sığal çəkdi saçıma.
Sonra da sevə-sevə
Belə dedi bacıma:

– Ağac əkdim,
gül əkdim,
Bitdi, bitdi,
Bitdilicə!
Elə bilmə ki, işim
Bitdi, bitdi,
Bitdilicə!
Bircə damcı boyun var,
Balacasan hələ sən,
Bitdilicə!
Qupquru səhralara
Yağış ol, nur çilə sən,
Bitdilicə!
Yamacları, düzləri
Yaşıllığa bələ sən,
Bitdilicə!
Yamyaşıl ot torpağı
Örtdü, örtdü,
Bitdilicə!
Güllər sənin boyunu
Ötdü, ötdü,
Bitdilicə!
Qoşulub bülbüllərə
Ötdü, ötdü
Bitdilicə!

Bəxtəvərə dönərəm
Köksümdə yuva qursan,
Bitdilicə!
Bir damcı şeh içində
Bərq vuran körpə nursan,
Bitdilicə!
Gül ləçəyi səninçün
Yekə evdi,
Bitdilicə!
Cırtdan sənin yanında
Sanki divdi,
Bitdilicə!
Təkcə səni baba yox,
Hamı sevdi,
Bitdilicə!
– Məni vecinə almır,
Kefdi, kefdi
Bitdilicə!
Baba, bir mənə də bax,
Hörmətim yox
Bitdilicə?!
Nəsə mızıldanır o,
Baş açmıram dilindən,
Bitdilicə!
Böyüsəydin, canımız
Qurtarardı əlindən,
Bitdilicə!

**22.06.2014**

## ƏVVƏL DƏRS, SONRA MEYVƏ

Sara balaya de ki,
Əvvəl öyrənsin dərsin,
Sonra düşüb həyətə,
Dadlı meyvələr dərsin…

**23.11.2013**

## SƏNİ ÇOX İSTƏYİRƏM

Sara deyir:
– Ay baba,
Batma kədərə, qəmə,
Səni çox istəyirəm,
Bunu heç kimə demə!

Qollarını geniş aç,
Qaçıb gəlim qucuna.
Ancaq nənədən xəlvət
Konfet qoy ha ovcuma!

**10.11.2013**

## SARAYA BAX

Yekə-yekə danışır,
Sən bizim Saraya bax.
Deməzsən ki, uşaqdı
Həmişə qucağında
Olmasaydı oyuncaq…

**11.08.2014**
**Bələk. Türkiyə**

## SU SÜRÜŞKƏNİ

Necə gözəldi
Su sürüşkəni!
Kim fikirləşib
Bu sürüşkəni?!

Sanki çevrilir
Su köhlən ata.
Arxadan gələn
Çətin ki, çata!

Dönürəm yaydan
Sıyrılan oxa.
Hovuza çatıb,
Deyirəm: – Oxxay!

Mən baş vuranda
Suya hər dəfə,
Elə bil ki, ox
Dəyir hədəfə.

Qışqırıq, gülüş
Göyə ucalır.
Hovuzun suyu
Sanki əl çalır…

**15.08.2014**
**Bələk. Türkiyə**

## SAÇ VƏ SAQQAL

– Bu necə olan işdi,
Baba, bu kişiyə bax! –
Saqqalı qapqaradı,
Saçları isə dümağ…

Baba güldü, gözündə
Ulduz tək bərq vurdu yaş:
– Bala, saqqal o saçdan
Cavandı iyirmi yaş…

**2014**

**GÖZMUNCUĞU**

Nənə nəvəni
Bağrına basdı,
Qolundan qəşəng
Bir muncuq asdı.

– Pis göz kor olsun! –
Ucaldı səsi,
Dedi: – Nəvəmə
Qoy göz dəyməsin!

Mənim balama
Baxsa bəd nəzər,
Bu muncuq onu
Kor edər, əzər.

O gündən tamam
Dəyişib uşaq.
Bir kənar adam
Gələndə qonaq,

Gözmuncuğunu
Gizləyir Süsən.
Deyir ki, ona
Göz dəyər birdən!

**2014**

## ƏRİYƏN ŞOKOLAD

– Ay baba,
bu şokoladı
Niyə yemirsən,
əridirsən?
– Sara, deyəsən
Şokoladı
İsti əritmir,
sən əridirsən…

**2014**

## BABAM VƏ QIŞ

Babam qışa bənzəyir,
Saç-saqqalı dümağdı.
Elə bil zirvəsinə
Qar ələnən bir dağdı.

Təbəssümü bənzəyir
İşıq saçan günəşə.
Qış soyuq olur, babam
İpistidi həmişə…

**13.10.2014**

## ÇİÇƏKLİ BALKON

Bizim çiçəkli balkon
Sanki dönüb gülzara.
Sara güllərə baxıb
Belə deyir Gülzara:

– Nənəm bu çiçəkləri
Bəsləyir sevə-sevə.
Bilmirəm  bu gülləri
Niyə gətirmir evə?

– Otaq istidi, onlar
Evdə saralar, solar.
Mənim ağıllı balam,
Hər şeyin öz yeri var.

Gülümsəyən güllərə
Yenə baxıb sevindi.
Sara soruşdu: – Balkon
Çiçəklərin evidi?

**18.11.2015**

## MƏNİM ƏKDİYİM AĞAC

Dəfn etmək mümkün deyil,
Dərin olsa da çuxur, –
Toxum safsa, üstünü
Örtsən də, yerdən çıxır!

Mən bir iri qozanı
Qalın torpaqla örtdüm.
Pöhrə verib qalxdı o,
Boyu boyumu ötdü.

Körpə fidan boy atıb,
Döndü nəhəng ağaca.
Kölgə saldı  yay günü
Gün dağlayan yamaca…

Mənim əkdiyim ağac
Bu torpaqdan güc aldı.
Mən sevindim, o isə
Gündən-günə ucaldı…

**10.01.2016**

## MƏKTƏBSİZ ADAM

Məktəb üzü görməyəndən
Çətin ki, adam ola!
Mənə məktəbli deyirlər, –
Məktəbsiz adam olar?

**06.06.2015**

## DONDURMA

Nə şokolad, nə qarpız
Onu əvəz eləmir.
Nə qədər çox olsa da,
Dondurma bəs eləmir!

**14.07.2015**

## KRAN

Krana bax, krana,
Boyu necə ucadır! –
Özü hündürdür deyə,
Özgəni də qaldırır,
Özgəni də ucaldır…

**29.06.2014**

## PİYADA KEÇİDİ

Səliqəylə rənglənib,
Bu hissədə yol ağdı.
Zebrin dərisi kimi
Keçid zolaq-zolaqdı.

Küçənin ortasında
Gör nə qədər zolaq var!
Piano dilləridir
Elə bil bu zolaqlar.

Toxunanda ayaqlar
O piano dinəcək.
Sirli, sehrli səslər
Nəğməyəmi dönəcək?!

Ayaq bassan kənara,
Yad səslər qulaq deşər.
Diqqətli ol, yoxsa sən
Bizi salarsan işə…

Sehrli bir körpüdü
Bu piyada keçidi.
Kim keçiddən keçmirsə,
Adam deyil, keçidi…

**12.01.2015**

## XƏTT

– Sənə kitab almışam,
Götür apar, ay Qəşəm!
Öyrənəcəyin mətnin
Altından xətt çəkmişəm.

– Bu çox çətin şeirdi,
Əmi, səndən küsdüm mən! –
Altından yox, sən onun
Xətt çəkəydin üstündən!

**22.06.2014**

## YOLUN YOLU

İnanmışıq yalana,
Dirənmişik dalana.
Elə bil maşınların
Əli, qolu bağlıdı.
Nəvəm gülür, ay baba,
Yolun yolu bağlıdı…

**06.01.2016**

## AMANDI, QOYMA, GƏLDİ

**"Göyərçin"in məktəblərdə yayılmasına qadağa qoyan bəzi əmi, dayı, xala və bibilərin dilindən**

Qoymayın uşaq görə
"Göyərçin"in üzünü.
Birdən nəsə oxuyub,
O, tanıyar özünü…

Vaxtında uçurmasan,
Təpə dönüb dağ olar!
Böyüyündə uşaqlar,
Üzümüzə ağ olar!

Amandı, “Göyrəçin”in
Ayağına ip bağla!
Uşaqlar həsrət qalsın
Hekayəyə, nağıla!

Qoyma uça, amandı
Evimizi uçurar.
Uşaqlar ayılsalar,
Əməyimiz puç olar.

“Göyərçin”i oxuyan
Bizi çətin dinləyər.
Birdən göyrəçin olub,
Onlar bizi dənləyər…

**PS.**

Göyərçindən nə yaman
Qorxurmuş yarasalar.
Məmur nadan olanda
Ürəyə yara salar!
Kim oyada bilər fil
Qulağında yatanı!
Ay əmilər, dayılar,
Ay xalalar, bibilər,
Yerinizə utanım!

**15.01.2016**

## PARTHAPART AŞİQLƏRİ

Biz parthapart aşiqiyik,
Bağlamayın yolumuzu.
Pistonlara xərcləyirik
Olan-qalan pulumuzu.

Bizimki şordu, ayrandı,
Bizimki soğan- çörəkdi.
Kitab nəyimə lazımdı,
Jurnal nəyimə gərəkdi?

Nə olsun ciblərim boşdu,
Sındıraram heç özümü?!
Mən bir partıltı səsinə
Qurban verərəm özümü…

**15.01.2016**

## TUM ÇIRTLAYAN QIZ

Skamyada əyləşən
Yaraşıqlı bir qızsan.
Etdiyini görməsəm,
Sanardım ki, ulduzsan.

Tum çırtlayıb tökürsən,
Elədiyindən usan!
Yerdə zir-zibilə bax –
Mat qalmışam, –
Sən busan?!

**09.07.2014**

## PAYIZA BAX, QIŞA BAX
## QARA BAX, YAĞIŞA BAX…

### BULUD FAYTON

İldırım şaqqıldayır,
Tez eləyək yır-yığış!
Minib bulud faytona
Kəndə tələsir yağış…

Çöllər, çəmənlər düşüb
İslanmaq həvəsinə,
Gurultular bənzəyir
Təkərlərin səsinə…

**18.11.2013**

### BULUD ƏLƏKLƏR

Qar ələnir aramsız,
Əsir sərin küləklər.
Onların əllərində
Nəhəng bulud ələklər…

Xeyir-bərəkət yağır,
Dəyirmanlar dolacaq.
Qar un olmasa belə,
Unumuz bol olacaq…

**03.02.2014**

# DƏRZİ PAYIZ

Kirpiyə bax, kirpiyə,
Necə qəşəng görünür!
Xəzəllikdə ağnayıb,
Sarı kürkə bürünüb…

Canı yanmış özünə
Necə gözəl don seçib?! –
Dərzi payız əyninə
Bir qızılı don biçib.

Onun biz-biz çuxası
Elə bil ki, tunc olub.
Oxlarının üstünə
Çoxlu xəzəl sancılıb.

Bu mənzərəyə baxır
Hamı ayaq saxlayıb.
Budaqlar oxa dönüb,
Oxlarsa yarpaqlayıb…

Yeriyir asta-asta,
Gör necə gözəl gəlir?! –
Elə bil üstümüzə
Bir topa xəzəl gəlir…

**16.07.2014**

## HƏKİM PAYIZ

Sanki bir sehrli əl
Ağacları bəzəyir.
Sarı-sarı yarpaqlar
Qızıl dişə bənzəyir.

Payızda əsən külək
Yaxşı bilir işini.
Sanki həkimdir, çəkir
Ağacların "diş"ini.

Meşə küsüb payızdan,
Ürəyi qırıq qalıb.
Sarı yarpaqlar düşən
Budaqlar mırıq qarıb…

**09.11.2015**

## MƏNƏ QANAD OL

Payız yaxınlaşsa belə,
Hər tərəf güldü, çiçəkdi.
Qarışqa uçan yarpağa
Baxıb, dərindən ah çəkdi…

Ürəyindən uçmaq keçdi,
Baxıb sağa, baxıb sola,
Dedi: – Göydə uçan yarpaq,
Mənə qanad ol, nə olar!

**23.10.2013**

## SƏXAVƏTLİ QIŞ

Hər yan
bəmbəyaz,
dümağ,
Qışdan artıq
nə umaq?
O bizdən şaxtasını,
Qarını əsirgəmir.
Səxavətlə xərcləyir,
Varını əsirgəmir…

**01.02.2014**

## BİZ YUXUDA OLANDA

Biz yuxuda olanda
Gəlibdir şəhərə çən.
Saatımız yatmayıb,
İşləyib səhərəcən…

Yağıb, yağıb sübhəcən,
Dizə qədər qar çıxıb.
Qatı duman elə bil
Gecəyə qahmar çıxıb.

Əqrəblərin qolunu
Duman bağlayammayıb.
Onları öz yolundan
Heç nə saxlayammayıb…

**09.02.2014**

## İLK QAR

Göydən gələn qara bax,
Dörd tərəfi bürüyür.
Ancaq çox heyf ki, qar
Yerə düşüb əriyir.

Təkcə evin damında
Adda-budda ağarır.
Fatimə çölə baxıb,
Atasını çağırır.

Deyir: – Bir bax, qış gəlir,
Adam soyuqdan donur.
Qar hər yeri bəyənmir,
Damın üstünə qonur…

**08.01.2015**

## QIŞ GƏLİB AD GÜNÜMƏ

Ad günümün yolunu
Gözləyirəm nə vaxtdan.
Qonaqlarım gələcək
Yaxından, həm uzaqdan…

Təptəzə hədiyyələr
Üst-üstə qalanacaq.
Şamları söndürəndə
Mənə əl çalınacaq.

Heyf ki, arzularım
Qaldı mənim gözümdə.
Hara baxsan dümağdı,
Mat qalmışam özüm də.

Gələn kimi göstərdi
Kiçik çillə özünü.
Adam qardan, çovğundan
Aça bilmir gözünü.

Yollar tamam bağlanıb,
Bir bax mənim günümə. –
Nənəm-babam gəlməyib,
Qış gəlib ad günümə…

**31.01.2014**

## GÖZLƏRİM DÜŞÜB QARA

Səhərəcən qar yağdı,
Hara baxsan, dümağdı…

Tutub dağı, düzü qar,
Qamaşdırır gözü qar.

Ağ da görünür qara,
Gözlərim düşüb qara…

**02.02.2014**

## BİR AĞ, NƏHƏNG QUŞDU BU

Bir ağ, nəhəng quşdu bu,
Qanadlanıb uçdu bu!

Kirpiklərini qırpdı,
Qanadlarını çırpdı…

Əsdi soyuq küləklər,
Uçuşdu ağ lələklər.

Üstündən keçdi bir az,
Hər yan oldu bəmbəyaz…

Qışdı, qışdı, qışdı bu,
Bir köçəri quşdu bu.

O qonaqdı yazacan…
– Bəs gələcək yaz haçan?

– Nə vaxt güllər açacaq,
Qış uzağa uçacaq…

**21.06.2014**

## QIŞ YOLLARI BAĞLAYIB

Qar ələyir buludlar,
Göydə nə çox bulud var!

Lopa-lopa qar yağır,
Göyün sözü var, yağır…

Yağdı, o qədər yağdı,
Hara baxsan, dümağdı…

Heç kəs yolun qarını
Kürümür ki, kürümür.

Gözünə dönüm qarın,
Ərimir ki, ərimir…

Qış yolları bağlayıb,
Gedənləri saxlayıb.

Küçələr dönüb buza,
Buzbuzadır, buzbuza…

**04.02.2014**

## QAR NİYƏ BUZA DÖNDÜ

Bəyaz, kövrək qar idim,
Üstümdə çox gəzdilər.
Qolumu, qabırğamı
Sındırdılar, əzdilər.

İməkləyir üstümdə
Avtobuslar, maşınlar.
Buza döndüm ki, qorxub,
Məni tapdamasınlar…

**05.02.2014**

## BU QAR NİYƏ ƏRİMİR

Maşınlar dəymir gözə,
Qar yolları bağlayıb.
Qış işə gedənləri
Bu gün evdə saxlayıb.

Bayıra çıxmır deyə,
Qırxmayıbdır üzünü –
Nəvə öz babasına
Zilləyibdir gözünü.

Gah çöldə yağan qara,
Gah saqqalıma baxıb,
O, gülür: – Babanın da
Üz-gözünə qar yağıb.

Çöldə qar suya döndü,
Nəvəm baxıb kirimir.
Deyir: – Bəs  niyə sənin
Üzündə qar ərimir?!

**09.01.2015**

## TƏPƏDƏ ƏYLƏŞƏN QIŞ

Axır ki, ilk qar yağdı,
Dağların başı ağdı.

Nə olsun ki, palçıqdı,
Yollar hələ açıqdı.

Kövşənlər  gözləyir qar,
Ağarmağa ümid var.

Qış təpədə əyləşib,
Düzənləri seyr edir.

Təbəssümlə paltosuz
Gəzənləri seyr edir…

**06.01.2016**

## GƏZDİM DÜZÜ-DÜNYANI, YURDUMDAN GÖZƏL HANI?

### NƏ YAXŞI Kİ, SKAYP VAR

Baxıb baba-nənəmə,
Həsrətdən alışıram.
Nə yaxşı ki, skayp var,
Onlarla danışıram.

Dayanırıq üz-üzə,
Dayanırıq göz-gözə.
Ötənləri anırıq,
Söykək olur söz-sözə…

Bir kəlmə eşidən tək
Doğma ana dilində,
Mən özümü sanıram
Öz obamda, elimdə.

Deyirəm ki, ay baba,
Niyə bizə gəlmirsən? –
Axı skaypda məni
Qucaqlaya bilmirsən?!

**09.07.2014**

### FATEHLƏ SÖHBƏT

Uzaq Amerikadan
Nəvəm məktub göndərib.
Elə bil ki, ömrümü
Gülüstana döndərib.

Yazır ki, heç bilirsən
Burda nə çox nağıl var?
Yollarını gözləyir
Yazılmamış nağıllar.

Hər ağac bir xatirə,
Hər qaya bir yazıdı.
Ay baba, Amerika
Nağıllar dünyasıdı…

Baxıb sizi anıram
Göydə aya, ulduza.
Sən ki nağıl sevənsən,
Tez ol, gəl yanımıza!

– Adiləşən ömrümü,
Fateh, gülzara döndər.
Orda nağıl çoxdusa,
Bir az yaz mənə göndər!

– Vətəni düşünəndə
Qəribliyimiz itir.
Pəncərəmin önündə
Hər gecə nağıl bitir.

Ay baba, gəl, nə olar,
Gəl bizi gör gözünlə!
Burdakı nağılları
Yığıb apar özünlə…

**2014**

## FATEHİN GÜLÜŞÜ

Fateh qərib diyarda
Qərib saymır özünü.
Tez-tez xatırlayır o,
Azərbaycan sözünü.

Babayla danışanda
Sanki nurlanır üzü.
Bacısı Fatiməylə
Oxuyur himnimizi.

Skaypla danışanda
Nə etdiyini bilir.
İngiliscə danışır,
Azərbaycanca gülür…

**14.12.2014**

## AY OĞLAN, ADIN NƏDİ?

Skayp açıldı, gəldi
Nəvəmin kövrək səsi.
Gördüm ki, danışmağa
Yoxdu onun həvəsi.

İngiliscə soruşdum:
– Ay oğlan, adın nədi?
Nəvəm üzümə baxıb,
Yavaşca belə dedi:

– Qəribə sualınla
Çaşdırırsan adamı.
Sən özün qoymamısan,
Baba, mənim adımı?!

**23.05.2015**

## FATİMƏ QAR İSTƏYİR

Fatimə bərk darıxır,
Bakını salır yada.
Soruşur burda nə vaxt
Qar yağacaq, ay ata?

Gursel gülür, ay qızım,
Qış olmur ha Venisdə.
Qar tapmaq müşgül işdi,
Məndən başqa şey istə!

Fatimə fikirləşir,
Gözləri hey yol çəkir.
Elə bil ki, üzünə
Duman çökür, çən çökür.

Xatırlayır Bakının
Göz oxşayan qışını.
Belə deyir astadan
Yelləyərək başını:

– Eyni cür havalardan
Daha gəlmişəm cana.
Ata, bizi də götür,
Dönək Azərbaycana!

**14.12.2014**

## SƏNİ BİR SEVƏN DƏ ARTDI

Elə bil ki, məni görüb
Sevindi Sakit okean. –
Səni bir sevən də artdı,
Kefindi, Sakit okean!

**06.08.2015**
**Santa Monika**

## SAKİT OKEAN, DİNC DUR

Adın sakit olsa da,
Sakitlik sənə yaddır.
Daim kükrəyib daşmaq
Sənin üçün həyatdır.

Yepyekə gəmilərə
Açıq olur qucağın.
O qədər nəhəngsən ki,
Yoxdur ucün-bucağın.

Bu qabarma nədəndi, –
Nə tufan var, nə külək?!
Sakit okean, dinc dur,
Qoy bir az rahat çimək…

**01.08.2015**
**Santa Monika**

## SULAR SƏLTƏNƏTİ

Mən Sakit okeanda
Çimdikcə axşam-səhər,
Yadıma düşür Bakı,
Yadıma düşür Xəzər.

Yox ucu, yox bucağı,
Möcüzəli sudur bu.
Yer üzünün ən böyük
Okeanı budur, bu!

Üstündə nəhəng-nəhəng
Gəmilər yük daşıyır.
Qoynunda akulalar,
Balinalar yaşayır.

Dərinə getsən, sənin
Başından dalğa basar.
Sahillə arasına
Çəkibdir dalğa hasar…

Bu sular səltənəti –
Möcüzəli bir cahan!
Adı sakitdir, niyə
Sakit durmur bircə an?!

**05.08.2015**
**Los Anceles, Venis**

## SAKİT OKEAN

Sakit okeana bax,
Suyu necə təmizdi.
Sahilində dayanan
Sanır ki, o, dənizdi.

Suyunun yarısını
Dənizlər, göllər tutmaz.
Onu bircə yol görən
Ömrü boyu unutmaz.

Qoynunda akulalar,
Balinalar yaşayır.
Özü nəhəng olana
Sakitlik çox yaraşır…

**08.08.2015**
**Los Anceles, Venis**

## VENİS

Hava səpsərin olur
Venisdə axşam-səhər.
Okeana yaraşır
Sahilindəki şəhər.

Həyətləri il boyu
Yaşıl otlar bəzəyir.
Hər küçə gül-çiçəkli
Çəmənzara bənzəyir.

Qərib saymır özünü
Alma, heyva, nar burda.
Dönüb ev sahibinə
Əbədi bahar burda.

Cərgəylə düzülsə də,
Heyran qalmışam buna –
Bir-birinə bənzəmir,
Bircə ev, bircə bina.

Qəriblik hiss eləmir
Kim ki bura buyurdu.
Sakit okean kimi
Dayağı var bu yurdun…

**07.08.2015**
**Los Anceles, Venis**

## OKEANDAN ƏSƏN MEH

Burda oxuyan quşlar
Səsimizə səs verir.
Okeandan əsən meh
Şəhərə nəfəs verir.

Gəz Venis bulvarını,
Qoy gülsün üzün bir az!
Kölgədə üşüdünsə,
Çıx günə, qızın bir az!

Günəşli gün olsa da,
O qədər isti deyil.
Yayın qızmar çağında
Yaylaqdasan elə bil.

**11.08.2015**
**Los Anceles, Venis**

## QIR MUZEYİ

Yamyaşıl çəmənlikdə
Göllər sanki yaradı.
Təbiət özü üçün
Qırdan muzey yaradıb.

Bu yerlər məskən olub
Şirə, pələngə, qurda.
Qədim heyvanlar batan
Qır gölləri var burda.

Vəhşilərin keçdiyi
Yol üstündə qır durub.
Heyvanlar batıb qıra,
Hamısını qır qırıb.

Bədənlər gölməçədə
Qaxac olub, quruyub.
Özləri ölənlərin
Qır izini qoruyub…

Qədim fillər, momontlar
Qır gölündə bişibdir.
Əvəzində adları
Tarixlərə düşübdür.

Bu muzeydə keçmişlə
Gələcək baş-başadı.
Qır onları öldürüb,
Qır onları yaşadıb…

Qorunur həmin göllər
İndi göz bəbəyi tək.
Bu göllərin sirrini
Hamı öyrənsin gərək!

Bura əsrarla dolu
Bir qaranlıq dərədi.
Qır gölləri keçmişə
Açılan pəncərədi…

**08.08.2015**
**Los Anceles, La Brea**

## ƏNCİR

Deyəsən əncir acıb,
Ağzını nə gen açıb?
Yeməyə nə verim ki,
O, məndən qalsın razı?! –
Atdım onu ağzıma,
Yumuldu açıq ağzı…

**05.08.2015**
**Los Anceles**

## SU KÜÇƏSİ

Evlərin arasıyla
Uzanır mavi küçə.
Ancaq avtomobillər
Çətin bu yoldan keçə.

Bu küçənin içində
Oy, nə qədər qayıq var,
Bu küçədə sakitcə
Üzür xırda qayıqlar.

İşıqlar suda çimir,
Bir aləmdi bu yerin
Həm gündüz,
həm gecəsi.
Evlərin arasıyla
Uzanır su küçəsi…

**16.08.2015**
**Los Anceles, Venis**

## HOLLİVUD BULVARINDA

Hollivud bulvarında
Gəzdim o baş, bu başa.
Bu küçə başdan-başa
Tamaşadır, tamaşa.

Yeridikcə yol boyu
Ulduza baxır gözüm.
Ulduzlar sıra-sıra,
Ulduzlar düzüm-düzüm…

Hər ulduzun önündə
Bir aktyor adı var.
Ürəklərdə onların
Sənətinin odu var.

Göydəki ulduzların
Bənzərini tapmadım.
Yerdəki ulduzların
Hamısını tapdadım…

**08.08.2015**
**Hollivud**

## BOTANİKA BAĞINDA

Los Ancelesdə getdim
Botanika bağına.
Çəmənlər ağacların
Döşənib ayağına.

Burda çiçək taparsan
Hər boyda, hər biçimdə.
Üzür iri balıqlar
Xırda çayın içində.

Burda cığırlar, yollar
Calanıbdır uc-uca.
Sayı yoxdur kolların,
Ağaclar hündür, uca…

Hər gül kolu möcüzə,
Hər ağac bir tamaşa.
Botanika bağıdır
Bu şəhər başdan-başa…

**13.08.2015**
**Los Anceles**

## KİTAB OXUYAN NƏVƏM

Kitab oxuya-oxuya,
Fatimə gedib yuxuya.
Hər yanı qaranlıq alıb,
Kitab sinəsində qalıb.

Gəzəcək doğma yurdunu,
Vətən ətrini udacaq.
Yuxusunda olsa belə,
Doğma nemətlər dadacaq.

Azərbaycan düzlərindən
Tər çiçəklər dərəcək o.
Yəqin nağılın ardını
Yuxusunda görəcək o…

**31.07.2015**
**Los Anceles, Venis**

## KİTABDAN TİKİLƏN EV

Sabah dərsə gedəcək,
Yuxu getmir gözünə.
Fatimə evcik tikib
Kitablardan özünə.

Yaddaşa həkk olunan
Əbədidir, əbədi.
O, kitab kərpiclərdən
Yapacaq elm məbədi…

**05.08.2015**
**Los Anceles, Venis**

## BALLI MAŞIN

Oy, maşının üstünə
Nə çox arılar qonub?
Heç belə də iş olar? –
Hamı heyrətdən donub.

Gülə-gülə söyləyir
Mənim böyük qardaşım.
Bir yeriyən pətəkdi
Elə bil ki, bu maşın!

Yola dana çıxanda
Bu sürücü çaşıbmış.
Əyləci bərk basanda,
Bal çəlləyi aşıbmış…

Necə yaxa qurtarsın
O, qanadlı qoşundan?
Arılar əl çəkərmi
Bal daşıyan maşından?!

**06.08.2015**
**Los Anceles**

## İT VƏ SAHİBİ

– Özü itindən qara,
İti özündən qara.
Qoşulub bir-birinə
Onlar gedirlər hara?

– Nəfəs alma dərindən,
Sakitcə dur yerində!
Ağaranda dişləri,
Pis olacaq işlərin…

**06.08.2015**
**Los Anceles**

## QURBAĞA VƏ ÇƏTİR

Qurbağa gəlsin deyə
Görənlərin xoşuna,
Yağışdan qorunmaqçın
Çətir tutub başına.

Əslində yağan yağış
Deyil onun vecinə.
Yoxsa qaçıb girərdi
Gölməçənin içinə…

**06.08.2015**
**Los Anceles**

## KÖKS ÖTÜRƏN NƏVƏLƏR

Baş qoyaraq köksümə
Nəvələr köks ötürür.
Ayrılıq yaman şeydi,
Məni fikir götürüb…

Bu sözün mənasını
Qürbətə düşən anlar.
Vətənin sinəsinə
Baş qoyub sanki onlar…

**08.08.2015**
**Los Anceles, Venis**

## NƏVƏMLƏ ÇİMƏRLİKDƏ

Sakit okean
hey cilvələnir,
köksümdən daşır
bir fərəh seli.
Mən Fatehə
üzmək öyrədirəm,
Fateh mənə
ingilis dili…

**11.08.2015**
**Marina del Rey**

## NƏVƏM FATİMƏYLƏ LOS ANCELESDƏ İLK GÖRÜŞ

Nəvəmi görmək üçün
Göylərə yüksəlmişəm.
Dünyanın o üzündən,
Bu üzünə gəlmişəm.

Yapışaraq uçmuşam
Sanki günəş zərindən,
Dənizlər, okeanlar,
Ölkələr üzərindən.

Fatimə əl eləyir,
Sevincdən əsir ürək.
Uçub qonur çiynimə
Bir xallı kəpənək tək.

Qucaqlayıb boynumu
Öpür, öpür üzümdən.
Bu uzaq, qərib diyar
Gözəlləşir gözümdə…

**11.08.2015**
**Los Anceles**

## DİBÇƏKDƏ BİTƏN ƏLLƏR

Fatimə rəsm çəkib,
Mat qalır kim ki baxıb.
Dibçəkdən gül yerinə
Balaca əllər qalxıb.

Fateh gülür: –Ay baba,
Gəl bu şəkillərə bax!
Əllərdən tutub dartaq,
Fatiməni çıxardaq!

**14.08.2015**
**Venis**

## AY BABA, XOŞ GƏLMİSİZ

Ay baba, xoş gəlmisiz
Biz yaşayan diyara.
Sənin söhbətlərindən
Çox çətin ki, doyaram...

Nə şirin danışırsan,
Qurban olum dilinə!
Biz burda gün görürük
Siz gələndən gələnə…

Gah çimib okeanda,
Gah gəzirik şəhərdə.
Sizin gəlişinizlə
Gözəlləşir şəhər də…

Sən hər şeyi görürsən,
Heç nə qaçmır gözündən.
Vətənin ətri gəlir
Hər kəlməndən, sözündən…

**29.07.2016**
**Venis**

## BABANIN DONDURMASI

Uşaqlar dondurmanı
Babadan tez yedilər.
Ona gözaltı baxıb,
Zarafatla dedilər:

– Boğazın ağrıyar ha,
Saçı, saqqalı ağsan.
Öz dondurma payını
Bizə ver, sən uşaqsan?!

**29.07.2016**
**Venis**

## FATEHİN HƏDİYYƏSİ

Qalib gəlib yarışda
Fateh bir şapqa udub.
Ancaq başına qoymur,
Onu əlində tutub.

Deyir ki, qayıdanda
Öz elmə, obama.
Bu şapqanı aparıb,
Verəcəyəm babama!

**30.07.2016**
**Venis**

## ÜZMƏ LÖVHƏSİ VƏ DALĞA AT

Sakit okean coşsa,
Vaxtı itirməz hədər.
Tək bircə çırtma ilə
Adamı yerə sərər…

Suların qoynundayıq,
İtirmədən bir anı,
Gözləyirik sahilə
Çapıb gələn dalğanı.

Biz üzmə lövhəsini
Qəlbimizdə min istək,
Dalğaların belinə
Qoya bilsək yəhər tək,

Minə bilsək üstünə,
Əgər aşmasa "yəhər",
Dalğa at aparacaq
Bizi sahilə qədər…

**31.07.2016**
**Santa Monika**

## QOÇ

Quzuydum,
toğluya döndüm,
indisə qoç olmuşam.
Quzum, toğlum,
şişəyim var,
Sanmayın qocalmışam!
Ora-bura qovlamayın,
Bir az dincələk qoyun!
Quzu – toğlu,
şişək olur,
Toğlu – qoç,
şişək – qoyun…

**03.08.2016**
**Venis**

## NƏ YAXŞI Kİ…

Nə yaxşı ki, babam var,
nə yaxşı ki, nənəm var,
Fəxr edirəm özümlə!
Kitabxanaya, dərsə
bizi babam aparır,
Dükan-bazar olanda
nənəm gedir bizimlə…

**03.08.2016**
**Venis**

## FATİMƏNİN İT OYUNCAĞI VƏ İT

Fatimə adamları
Güldürməyi xoşlayır.
Bir it oyuncağı var,
Hürdürməyi xoşlayır.

Düyməsini basdımı,
Bizdə qalmır baş-beyin.
İtini az hürdürsün
Bu dəcəl qıza deyin!

Gəzməyə gedəndəsə
İtə uzaqdan baxır.
Fateh gülür: – Fatimə
İtdən it kimi qorxur…

**09.08.2016**
**Venis**

## CİZGİ FİLMİNİN BAŞLANMASINA BİR AZ QALMIŞ

Güzgünün qabağında
Durur bizim Fatimə.
Özünə bəzək-düzək
Vurur bizim Fatimə.

Tellərini darayır,
Saçlarına bant taxır.
Qızın hay-həşirinə
Nənə maraqla baxır.

– Hara hazırlaşırsan
Mənim balam, de mənə?!
– İndicə cizgi filmi
Başlanacaq, ay nənə!

Baxacağam paltarı
Şəfəq saçan Qar qıza.
Qoy onlar görsünlər ki,
Mən də təmizkar qızam…

**09.08.2016**
**Venis**

## ƏN YAXŞI OXUCU

Xeyli kitab oxudum,
Yarışma çox uzandı.
Şükür, yaxşı oxucu
Adını mən qazandım!

Belə gözəl hədiyyə
Ala bilmir hər uşaq! –
Kitabxanada mənə
Verdilər bir oyuncaq.

Qəflətən söz verdilər,
Bilmədim heç nə deyəm.
Oxuduğum kitabdır
Mənim əsas hədiyyəm!

**16.08.2016**
**Venis**

## NƏVƏLƏRİM

Nəvələrim ən böyük
Dövlətimdir, varımdır.
Mən kükrəyən dənizəm,
Onlar dalğalarımdır…

**17.08.2016**
**Venis**

## URA, DƏRSLƏR BAŞLADI

Ura! Dərslər başladı,
Məktəbliyəm mən axı!
Daha evdə anamın
Dinc qalacaq qulağı…

Atam deyir məktəbdə
Birinci olmalısız.
Yaxşı oxuyub, çoxlu
Hədiyyə almalısız…

Bizi yola saldılar
Neçə şirin vəd ilə.
Biz məktəbə gedirik,
Anam çıxır tətilə…

**16.08.2016**
**Venis**

## MEYVƏ NİYƏ BAHADIR

– Söylə görüm Bahadır,
Meyvə niyə bahadır?
Uşaq bir az düşünüb,
Sonra köksün ötürür:
– Çünki ağac bir ildə
Bir dəfə bar gətirir…

**17.08.2016**
**Venis**

## HOLLİVUD GECƏLƏRİ

Maşınla gəzirik biz
İşıqlı küçələri.
Nağıllar dünyasıdır
Hollivud gecələri…

Şəhərin gur yerində
Ayrı bir yaraşıq var.
Adamların üzündə
Təbəssüm var, işıq var.

Tez ol, tez ol, bura gəl! –
Mən babamı çağırdım.
O,  baxıb gülümsədi:
– Hər yanda çal-çağırdı…

Göydə ulduz sayrışır,
Yerdə ulduz sayrışır.
Yerin-göyün ulduzu
Bir-birinə qarışır…

**17.08.2016**
**Los Anceles, Hollivud**

## SÜBH

Qaranlığı sevmirəm,
Doğmadır Günəş mənə.
Bezdim zülmət gecədən,
Hardasan, Günəş nənə?

Hey nəğmə oxuyuram,
Məni Günəş dinləyir.
Bir acgöz xoruz kimi
Ulduzları dənləyir…

Şəfəqlər nur çiləyir,
Külək gülür, meh gülür.
Çiçəklərin gözündə
Elə bil ki, şeh gülür…

**17.08.2016**
**Los Anceles**

## BİZON

Acıqlıdır yamanca,
Görürsən bu bizonu? –

Buynuzları itidir,
Əvəz etməz biz onu…

Qayğıyla, nəvazişlə
Ram eləyək biz onu…

**2016**

## NAĞIL-HƏKƏT

Boş-boşuna danışığa
Babam "nağıl-həkət" – deyir.
"O yerdə ki, söz-söhbət var,
Azalır bərəkət", – deyir.

İş olan yerdə nə qiybət,
Nə də bir "nağıl-həkət" var..
O yerdə ki, hərəkət var,
Orda xeyir-bərəkət var…

**17.08.2016**
**Venis**

## BİLİKLƏR ÖLKƏSİNƏ SƏYAHƏT

Müəllim sual verdi
Məni xəyal apardı…
Ürəyim dəniz kimi
Dalğalandı, qabardı.

Cavab axtarıb onun
Niyəsi, bəlkəsinə,
Uzun bir səfər etdim
Biliklər ölkəsinə…

Mən az getdim, üz getdim.
Dərə, təpə düz getdim.
Heç bilmədim bu yolu
Əyri getdim, düz getdim?!

Düşünəndə ki, yəqin
Çatdım mənzil başına,
Sevimli müəllimim
Yenə çıxdı qarşıma…

Ömrümün sonunacan
Minnətdaram mən ona!
Yanından getdim, yenə
Qayıtmışam yanına…

Hey oxudum, öyrəndim,
Vaxtım getmədi hədər.
Uzun bir yol var imiş
Məndən müəllimə qədər…

Dönüb uşaq olaram
Bir yol üzümə baxsa.
Yollar ondan başlayıb
Onda bitirmiş yoxsa?

Sanki döndüm məbədə
Düşüb elmin izinə…
Onunla aramızda
Var imiş bir xəzinə…

Çiçəklərin ətrindən
Necə doysun ac arı?
Bilik xəzinəsinin
Onda imiş açarı!

Necə doğma tək baxıb,
Uzun illər o, yada?
İstəyib qəlbimizdə
Elmə həvəs oyada.

Bilmədiklərim hələ
Bildiklərimdən çoxdu…
O göstərən yolların
Deyəsən sonu yoxdu…

**17.08.2016**
**Venis**

## YUXU GÖRÜRÜK NECƏ

Heç nə, heç nə gözlərin
Yerini verə bilməz.
İnsan gözü yumulu
Heç yanı görə bilməz.

Təki gözümüz görsün,
Biz dözərik zülmə də.
Gözümüzü yumanda
Hər yan dönür zülmətə…

Lap mən çaşıb qalmışam,
Qaranlıq olur gecə.
Gözlərimiz yumulu
Yuxu görürük necə?

**18.08.2016**
**Los Anceles**

## QUMDAN SALDIĞIM ŞƏHƏR

Okean sahilində
Bəxtim güldü üzümə,
Sahildə qumu eşib,
Evcik tikdim özümə.

Kiçik çarhovuzuma
Arxdan küçə də çəkdim.
Qumdan saldığım şəhər
Baxın necə qəşəngdi!

Hər şey yerli-yerində,
İşim qalmayıb daha…
Saldığım bu şəhərə
Bir cüt göz gərək baxa!

Sonra qonaq çağırdım
Okeanı evimə,
Gəldi, ancaq dalğalar
Ağı qatdı kefimə.

Bircə anın içində
Sular tufan qopardı,
Evimə yerləşmədi,
Onu yuyub apardı…

**21.08.2016**
**Venis**

## UYUQ CİBİNDƏKİ YUVA

Pomidorlar deşik-deşik,
Günəbaxan oyuq-oyuq.
Quşlar baxıb qaçsın deyə
Babam bağda qurub uyuq.

Bir kimsəylə yoxdu işi,
İtimiz bulayır quyruq.
Qaratoyuq qıqqıldayır,
Sığırçınlar düşüşüb duyuq…

Uyuq əlində bir ağac
Dursa da çəpər dibində.
Qəşəng bir yuva qurublar
Sərçələr onun cibində…

**21.08.2016**
**Venis**

## TELSORAN, TOZSORAN VƏ TEZSORAN

Nənə ev yığışdırır,
Tozsoran uğuldayır.
Anam fenlə bacımın
Saçını qurulayır.

Bəsdirin də, ay nənə,
Səsdən ağrıyır başım…
Evimizdə uğultu
Uğultuya qarışıb.

Birinizdə telsoran,
Birinizdə tozsoran…
Bunlar lap ləng işləyir,
Yoxdumu bir tezsoran?

**28.09.2016**

## DUBAYA YAĞIŞ YAĞIR

Ötür başımız üstdən
Buludlar ağır-ağır.
Möcüzədir, möcüzə,
Dubaya yağış yağır…

Güllərin gözlərinə
Gecə getməyib çimir.
Otlar, ağaclar, kollar
Sevinclə çimir, çimir…

Səhra isə səs vermir
Damlaların səsinə! –
Neyləyəcək bu yağış
Əsrlər təşnəsinə?!

Heç gözlə də görünmür
Selin-suyun axışı.
Nəhəng aşsüzən kimi
Səhra süzür yağışı…

**03.01.2016**
**Dubay**

## ÜZÜ SƏHRAYA SARI

Maşınımız şütüyür
Üzü səhraya sarı.
Çalır dəvə rənginə –
Dağlar, təpələr sarı…

Günəş bathabatdadı,
Səhra necə gözəldi!
Külək kürən qumlardan
Dərə-təpə düzəldib…

Narın qumlar üst-üstə
Qalaqlanıb, tığlanıb…
Elə bil bu səhrada
Milyon dəvə xıxlanıb…

Qum dağları üstündə
Günəş bənzəyir közə.
Səhra uzanıb gedir,
Karvansa dəymir gözə.

İndi zaman dəyişib,
Bitib dəvə dövranı.
Donqar belli səhrada
Şütüyür cip karvanı.

Səhra görmək istəmir
Maşınların üzünü.
Külək qalxıb, itirir
Maşınların izini…

**03.01.2016**
**Dubay**

## DÜNYANIN
## ƏN UCA YOLKASI

Buludlar arasında
Sanki ay qurub çadır.
Bu nə uca yolkadır, –
Başı göylərə çatır.

Onun dörd tərəfində
Oy, nə qədər adam var!
Yeni ili gözləyir
Dövrəsində adamlar…

O elə ucadır ki,
Görmək olmur yaxından.
İşıqlar ulduz kimi
Asılıb budağından.

Hava yaman istidi,
Qar qız harda qaldı bəs?
Şaxta baba qorxudan
Bu yerlərə üzükməz…

Onu ucaldan – insan
zəkasının gücüdü.
Bu boyda yolka olar? –
Bu, Xəlifə bürcüdü…

**04.01.2016**
**Dubay**

**XOŞBƏXTİ, BƏXTƏVƏRDİ,**
**DÜNYA DEYİL ÖZÜNDƏ.**
**O, AYRI BİR ALƏMDİR**
**UŞAQLARIN GÖZÜNDƏ…**

## ÇƏRPƏLƏNG VƏ QARIŞQA

Çərpələngin üstündə
Göyə qalxdı qarışqa.
Ucadan dörd tərəfə
Baxdı, baxdı qarışqa…

Ürəyinin başında
Neçə arzu közərmiş.
– Oy, dünya nə böyükmüş,
Oy, dünya nə gözəlmiş!!!

Yarpaq kimi əsirəm
Göydə həyəcanımdan.
Fotoaparat olaydı
Kaş ki, mənim yanımda.

Kameraya salaydım
Uca göylərdən yeri.
Gözəl-gözəl şəkillər
Çəkib, dönəydim geri…

**08.12.2013**

## AYININ QORXUSU

– Nəyə görə ovçuya
Əsə-əsə baxırsan?
Sən hamıdan güclüsən,
Ayı, nədən qorxursan?

Kim dözər bir zərbənə,
Kim dözər təkanına?
– Qorxuram yolum düşə
Xəz-dəri dükanına…

**2013**

## AYAQYALIN AĞAC

Sıldırımda zoğları
Görünən ağaca bax!
Sən demə onlar üçün
Ayaqqabıymış torpaq…

**17.11.2013**

## İNƏK, BUZOV, SAĞICI

Kövşəni dolanıb gəlib,
Mələyib sirrini açır…
İnək buzovu çağırır,
Yanına sağıcı qaçır…

**17.11.2013**

## DOVŞAN, KƏLƏM VƏ KÖK

Günəş yerə nur saçır,
Sanki yaydı, istidi.
Dovşan bostana girib
Bir az gəzmək istədi.

Kələmə bax, forslanır,
Açıbdır yaxasını.
Az qalır ki, çıxartsın
Bəmbəyaz çuxasını.

Kök saralıb hirsindən,
Heç bilmir ki, nə desin.
Kələmə acıqlanır:
– Ay səni dovşan yesin!

**31.12.2014**

## SAVADLI XORUZ

Xoruza dedilər ki,
Get məktəbə, təhsil al.
"Əlifba"nı öyrənib,
Kitab oxu, ləzzət al!

Xoruz eşdi torpağı,
Nə söyləsin bəs indi?
–Neynirəm "Əlifba"nı,
Üç səs bildim, bəsimdi…

Mənə lazım olan hərf
Bir "Q", bir "L", bir "U"du,
Oxuyacağım sözlər
Təkcə "quq-qulu-qu"du…

**22.06.2014**

## XIRNIK

Gizli yemək istədim
Mən qardaşım Kazımdan –
Xırnik acığa düşüb,
Keçmədi boğazımdan…

**27.12.2015**

## DİLİM ÇOX BALACADI

Xoşu gəlir babanın
Xədicə danışanda.
Ona hey sual verir,
Yol getdikcə maşında:

– Ay Xədicə, Xədicə,
Niyə belə qəşəngsən?
Sən babanın bağında
Balaca bir çiçəksən!

Ay Xədicə, şəhərdə
Nə qədər qalasısan?
Ay Xədicə, de görüm
Sən kimin balasısan?

Nənə sığallayanda,
Xədicənin telini.
Xədicə babasına
Göstərərək dilini

Belə deyir: –  Sən mənə
Az sual ver maşında!
Dilim çox balacadı,
Yorulur danışanda…

**26.01.2016**

## MƏTBƏXÇİ

Nağıl dinləyən zaman,
Sıxılıb sinəsinə
Belə dedi Xədicə
Bir gün öz nənəsinə:

–  Bütün günü evdəsən,
Heç bilmirəm nəçisən?
Bişirib-düşürürsən,
Nənə, sən mətbəxçisən?!

**26.01.2016**

## GECƏLƏR VƏ KÜÇƏLƏR

Tapdalanır bu küçə
Səhərdən axşamacan.
Öz-özünə düşünür
Gələcək axşam haçan?

Sanki gecəliyini
İtiribdir gecələr.
İşıqlar yandığından
Yata bilmir küçələr.

Onlar səhərə qədər
Qalır başlı-başına.
Dirəklərdə işıqlar
Yanır boşlu-boşuna…

**22.03.2016**

## YUXUM QAÇDI

Gözümü açan kimi
Yuxum qaçdı gözümdən.
Ha yalvardım gəlmədi,
Çıxdı mənim sözümdən.

Yamanca küsəyəndi,
Xoşu gəlmir səs-küydən.
O mənim gözlərimə
Çətin ki, enə  göydən?!

Yuxum gözümdən qaçdı,
Hara getdi, bilmədim,
Quş kimi qanad açdı,
Ha çağırdım gəlmədi.

Düz eləyib incidi,
Dönüm onun gözünə!
Çıxıb getdi ki, dolsun
Özgələrin gözünə…

Axtarıram yuxumu,
Bülbül kimi ötürəm.
Yerini də bilmirəm
Gedib tutub gətirəm…

**17.06.2016**

## BABAMIN OVCU

Babam sağ olsun, dünən
Təzə kreslo alıb.
Elə qəribədi ki,
Gözlərim onda qalıb.

Kreslonun görkəmi
Yaman xoşuma gəldi.
Elə bil ki, üstündə
Beş barmaq olan əldi.

Daha oturmayacam
Mən heç kəsin qucunda.
Rahatca əyləşəcəm
Mən babamın ovcunda…

**23.06.2016**

## BABAYA DEMƏ

Gurselə belə deyib
Mənim nəvəm Fatimə:
– Ata, sənin balanam,
Ancaq babaya demə…

**12.06.2016**

## ALMA VƏ ARMUD

Fateh alma gəmirir,
Gözləri armuddadı. –
Almanın alma dadı,
Armudun armud dadı!

**05.07.2016**

## ƏKİZ BACILAR, ƏKİZ GEYİMLƏR

Bir cüt qız gəlir yaxın,
Uşaqlar, ora baxın.
Seçilmir bir-birindən,
Üz, çənə, boyun-buxun.

Gözlər eyni, qaş eyni,
Bədən eyni baş eyni!
Gülüşləri eynidi,
Yerişləri eynidi.

Seyr edirəm onları,
Qırmızıdı donları.
Bantları xallı, qəşəng,
Üstündə ağ kəpənək…

Hər şeyləri eynidi,
Tək adları ayrıdı.
Bunun hansı hansıdı?
Oğulsansa ayır di!

Birinin adı Lalə,
O birinin Nərgizdi.
Elə bil bacıların
Geyimi də əkizdi…

**15.06.2016**

## GÜLLƏRİ RƏNGLƏYƏN QIZ

Nəvəmə dəftər aldım
Dedim ki, özün rənglə.
Ağ kağızı boyadı
Bu şeytan neçə rənglə!

Bəyaz kağız üstündə
Güllər-çiçəklər açdı.
Yoruldu işləməkdən
Nəvəm həyətə qaçdı…

Oy, həmərsin kolunda
Nə qədər ağ çiçək var!
Bir mənzərə yaradıb
Elə bil  rəssam Bahar.

İndi saxlamaq olar
Bizim kiçik Gülləri?
Deyir ki, fırça verin
Rəngləyim  ağ gülləri!

**15.06.2016**

## AYDAN

Nənəm dedi ki, nəvəm
Sanki gəlibdir aydan.
Gülümsəyib söylədi:
– Adını qoydum Aydan!

Gözəlliyimi görüb,
Aylığını Ay dandı.
Anam sevindi: – Qızım,
Aydandı ki, Aydandı…

**2016**

## NƏ GEYİM

– Ana, mənə paltar ver!
– Hamamdasan,
nə geyim?
– Burda qalmayacam ki,
Bəs çıxanda
nə geyim?

## OĞLAQ

Ot yemir, biçənəkdə
Oğlaq mələyir: – Mə-mə!
O hələ otuxmayıb
Yəqin istəyir məmə!

**28.04.2016**

## MƏN, QARA AT VƏ QARAĞAT

– Ay qara at, qara at,
Bu yol gedir hara, at?

– Min belimə aparım,
Qarşıda var qarağat…

Ancaq dayan farağat,
Hələ kaldı qarağat…

Görmürsənmi, dəyməyib,
Heç quşlar da dəyməyib…

Yetişəndə dərərsən,
Ləzzətini görərsən!

**2016**

## BİL

Mütləq söyüləcəksən
Yerə atdınsa zibil. –
Ananın qədrini bil,
Bacının qədrini bil!

**2016**

## BULAQ

Dağın döşündən çıxan
Bol sulu bir bulağam.
Hamı gəlir yanıma,
Nə olsun ki, uzağam...

Adamları maqnit tək
Mənim saflığım çəkir…
Su içənin qəlbinə
Mənim saflığım çökür.

Duruluq gəlir deyə
İnsanların xoşuna,
Bir el pənah gətirir
Bir bulağın başına…

**04.12. 2016**

## CİNASLI MİSRALAR

Bu mal övladı dana,
Zatını çətin dana!
***
Nə xox gəlirsən bizə? –
Yumruq vurmazlar bizə!
***
Tökdüyüm tərə əvəz,
Bitdi xeyli tərəvəz…
***
Gülay bala, Gülay bala,
Güllər açıb, gül, ay bala!

***
Yanır içim,
Su ver içim!
***
Dağdakı gözəlliyə
Baxanda
adam çaşır.

Mən göbələk yığıram,
Yamacdan,
atam çaşır!
***
Rayon bizə göndərir,
Qatıq, süd, ət, gön, dəri…

## BAPBALACA SƏTİRLƏR

Gün yağışı qurudur,
Özüsə qupqurudur…
***
Kuklam olub yupyumşaq,
Axı onu yumuşam!
***
Bu nə sözdü:
Vəssalam!
Harda qaldı
bəs salam?!
***
Yaz yağışı, yu bizi,
Təmizləsin su bizi!
***
Hazırdı yataq,
Di durun yataq!
***
Danışsan yava-yava,
Çörəyin qalar yavan!
***
Danişsan harfa-harfa,
Daşla yarılar qafan!

# "Nağıl qapısı" kitabından

## UŞAQ DÜNYASI – İŞIQ DÜNYASI

### BƏRƏKƏT BAYRAĞI

Hamı fərəhlə baxır
Yurdumun bayrağına…
Göyqurşağı enibdir
Lələtəpə dağına?

Bu təpədən baxanda
Adamın gülür üzü…
Elə bil ki, sevinir
Yurdumun dağı, düzü…

Torpaqdan ayrı düşüb,
Nə qədər zillət çəkdik.
Minaların yerində
Axır ki, zəmi əkdik…

Sevindi torpaq ana,
Taxıl çıxdı qurşağa,
Sarı-sarı sünbüllər
Döndü nura, işığa…

Yel əsdikcə arabir
Qəlbdə arzu dillənir.
Bayrağıma qoşulub
Zəmilər də yellənir…

Gördüyüm bu mənzərə
Kədərimi dağıdır.
Dalğalanan zəmilər
Bərəkət bayrağıdır…

**08.04.2017**

***

Dünyamız
çox gözəldi,
Yaradana
Həmd olsun!
Meyvəli
bağlarımız
Həm boşalsın,
həm dolsun!

**2017**

## MACAL

Neçə ki, var macal,
Yaşamağı bacar!
Bu torpaqdan güc al,
Zirvələrə ucal!
Çeşmələrdən saflıq,
Ulduzlardan bac al!
Ləyaqətlə yaşa,
Ləyaqətlə qocal!

**08.02.2018**

## ZƏMİ

Elə ki zəmidə
Sünbül dən tutur,
Sərçə dimdiyiylə
Sünbüldən tutur…

Külək hey tələsir
Zəmiyə sarı!
Sünbülün hər teli
Sim kimi  sarı!

Muştuluq! Muştuluq!
Tutub zəmi dən! –
Hansı quş əl çəkər
Belə zəmidən?!

**03.05.2017**

## GÜL ƏTRİ QONAQLIĞI

Babamgildə bir gül var,
Bir cüt göz gərək baxa!
Nənəm ürəyi yuxa,
Babam ürəyi yuxa…

Sadə ömür sürürlər,
Onların gözü toxdu.
Nə istəsəm verirlər,
Mənə "yox" sözü yoxdu…

Körpə kimi qoruyur
Nənəm o gözəl gülü.
O çiçək  açan zaman
Babamın üzü gülür…

Bir gün hiss etdilər ki,
Bu gülü tutub gözüm.
Dedilər götür apar,
Razı olmadım özüm…

Üstündən bapbalaca
Bir  yarpağı qopardım.
Nəm bir əskiyə büküb
Evimizə apardım…

Qoydum onu su dolu
Stəkanın içinə…
Zoğ atdı yavaş-yavaş,
Bir bax suyun gücünə…

Elə bil ki, körpədi,
Süd yerinə su əmir…
Bitkilərə can verir
İşıq, torpaq, su, Əmir!

Zoğları çoxalanda
Əkəcəyəm dibçəyə…
Baxacağam üstündə
Gülümsəyən çiçəyə…

Mən hər şeyə hazıram,
Dostlarımın xətrinə…
Səni qonaq edəcəm
Tezliklə gül ətrinə…

**03.05.2017**

## ANA ŞƏKLİ

Mən asfaltın üstündə
Bir qadın şəkli çəkdim.
Eynən mənim anamdı,
Görün necə qəşəngdi?!

Sevinirəm, gözümdə
Sanki ulduz sayrışır.
Tabaşirin ağ rəngi
Saçlarına yaraşır…

Bir medalyon da asdım
Bu qadının boynuna.
Şəkil bitdi, sığındım
Mən anamın qoynuna!

Xoşbəxtəm, hamı mənə
Durub qibtəylə baxır…
Cızdığım ağ sərhədi
Kim poza bilər axı?!

Şirin layla səslənir
Elə bil dodağında…
Ta mənə zaval yoxdu
Anamın qucağında…

**30.04.2017**

## ANANIN SÖZÜ

Nə var anaya
Övladdan əziz?
Körpə balama
Sevgim bir dəniz…

Mənim gül balam,
Gözümün nuru!
Məni sevirsən,
Özünü qoru!

Pis şeylər haqda
Qoy düşünməyim.
Qalın geyin ki,
Mən üşüməyim…

**19.06.2017**

## MƏNİM OYUNCAQLARIM

Bir vaxt canlı idilər,
İndi  şam tək sönüblər…
Mənim oyuncaqlarım
Oyuncağa dönüblər.

Hiss eləmirlər qəti
Sığal çəkən əlimi…
Böyümüşəm, ta onlar
Anlamırlar dilimi.

Niyə adiləşibdir
Oyuncaqlarım, ana?!
Ötən günlər qayıtsa,
Onlar gələrdi cana!

Geriyə dönəcəkmi
Əvvəlki həvəs görən?
Mənim uşaqlığımmış
Onlara nəfəs verən!

**04.02.2017**

## TAR, KAMAN, SAZ, BALABAN

Nəvəm sevir muğamı,
Dinir tar, dinir kaman.
Xanəndə coşub yaman:
– Aman, aman, ay aman!

Aşıq girib meydana,
Cəh-cəh vurur telli saz…
Oxşayır ruhumuzu
Könül açan xoş avaz…

Saz dindikcə insanın
Nur çilənir üzünə.
Həzin balaban səsi
Dad qatır saz səsinə…

Gör mənə nə söyləyir,
Quzu qurban balama:
–Tarın dostu kamandı,
Sazın dostu balaban…

**25.07.2017**

## DƏNİZ DARIXACAQ

Babam sahildə gəzir
Göz yaşı damla-damla.
Elə bil söhbət edir
Dənizlə yox, adamla…

– Mən sakit Okeana
Səndən salam deyəcəm.
Xəzər dostumdu deyib,
Hey özümü öyəcəm…

Hara getsəm də səni
Axtaracaq gözlərim.
Darıxma qayıdacam,
Salamat qal, Xəzərim…

Bulud kimi dolubdur,
Yaşaran gözünə bax…
Təkcə biz yox, dəniz də
Babasız darıxacaq…

**29.07.2017**
**Sumqayıt**

## SUAL-CAVAB

– Sakit okean nə üçün
Bu qədər sakitdi, bacı?
– Bu boyda nəhəng olanın
Kürlüyə nə ehtiyacı?

**05.08.2016**
**Malibu**

## QAYALAR

Okean sahilində
Oy, nə qədər qaya var!
Elə bil ki, dağların
Qalxanıdı qayalar…

Okean kükrəməkdən
Nə yorulur, nə doyur.
Bu qayalar dağları
Yuyulmaqdan qoruyur…

Onlara çırpılan tək
İti dalğa qılıncı,
Səpilir dörd tərəfə
Ovulub xıncım-xıncım…

**06.08.2016**
**Los Anceles**

## ARI VƏ MƏN

Gül dərəndə arıya
Söylədim:
– Gəl dost olaq!
Mənim paltarımdakı
Gül-çiçək rəsminə bax!

Arı qondu üstümə,
Qorxsam da, çox sevindim!
– Təzə çəmən tapmısan,
Arı bacı, kefindi…

Arısa vızıldadı,
Hirsli səsindən qorxdum.
Dedi: – Paltarındakı
Güllərdə şirə yoxdu…

Qanadıma toxunma,
Dinc dayansın əllərin…
Dost olmaq isdəyirsən,
Onda dərmə gülləri…

Çəmənlərin üstündən
Sovuşsun xata-bala.
Qoy güllərdən bal çəkim,
Sən də qonaq ol bala…

– İndi ki, biz dost olduq,
Xatircəm ol, xatircəm.
İndən belə səninçün
Gül əkib becərəcəm.

Ancaq ki, bir şərtim var…
– Başa düşmədim, nə şərt?
– Güllərdən bal çəkməyi,
Dostum, mənə də öyrət!

Arı güldü:
– Əbəsdir,
Dostum, bu haray-həşir.
Səndən bal çəkən olmaz,
Get  mürəbbəni bişir…

**06.08.2016**
**Los Anceles**

## GƏMİYƏ QONAN DURNA

Qəribə mənzərədi,
Hamı heyrətdən donub.
Sahildə lövbər salan
Gəmiyə durna qonub…

Nə düşünür görəsən?
Nədir onun istəyi?
Yəqin uçmaqdan bezib,
İndi üzmək istəyir…

**11.08.2017**
**Los Anceles, Marina Del Rey**

## DAĞDA BULAQ GƏZİRİK

Okean sahilindən
Maşınla dönüb sağa,
Dolama yollar ilə
Dırmanırıq biz dağa…

Göz önündə canlanır
Qəribə mənzərələr…
Daşlı, qayalı dağlar,
Suya həsrət dərələr…

Çətinlikdən qorxmuruq,
Hər şeyə müntəzirik.
Okeandan ayrılıb,
Dağda bulaq gəzirik…

**12.08.2017**
**Malibu**

## SUYU QURUYAN ÇAY

Yatağından görünür
Bu yerdən çay axırmış…
Susuz qalan dərənin
Dərdi yaman ağırmış…

Bu qayalar bənzəyir
Lap qoyun sürüsünə…
İri çaylaq daşları
Həsrətdi su üzünə…

Sanki nəhəng dağların
Matı-qutu quruyub…
Belə dərin çaylaqda
Nə əcəb su quruyub?

Quraqlıqdan inciyən,
Çay burdan küsüb gedib…
Qupquru yamaclara
O, dodaq büzüb gedib…

Nəhəng-nəhəng qayalar
Elə bil dağ kəlidi.
Altından çay axmayan
Körpü lap gülməlidi…

Bu iri çay yatağı
Göz dağıdır baxana.
Çayın geri dönməsi
Qaldı yağış yağana…

**13.08.2017**
**Malibu Greek state park**

# QAYA KÖLGƏSİNDƏ GÖL

Ayaq qoysan yandırır,
Hər qaya sanki közdü…
Gözəllik görmək üçün
Hər çətinliyə dözdüm…

Quruyan çaylaq boyu
Getdim, gözlərim güldü…
Qayalar arasında
Oy, bu nə gözəl göldü?!

Cilvələnir, nazlanır,
Baxanın gülür gözü…
Ona baxıb sevinir
Ana təbiət özü…

Elə bil daş üstündə
Bitən nəhəng çiçəkdi.
Ondan göz çəkmək olmur,
Bu göl necə qəşəngdi…

Bu necə möcüzədi,
Adam heyrətdən donur.
Qayalar quraqlıqdan
Qoruya bilib onu…

Qulaq ver pıçıldayan
Ləpələrin səsinə.
Yayda bu göl sığınır
Qayanın kölgəsinə…

**13.08.2017**
**Malibu Greek state park**

## GƏMİNİN YOLU

Okean boyu
Gəmimiz üzdü…
Gəminin yolu
Həmişə düzdü…

Enişi yoxdu,
Yoxuşu yoxdu…
Şütüyüb gedir,
Elə bil oxdu…

Hərdən olmasa
İri dalğalar,
Gəminin yolu
Haphamar olar…

Bu mənzərələr
Mənə tanışdı.
Sakit okean
Sanki danışdı:

– Dalğa olsa da,
Qorxma, üz dedi…
Gəminin yolu
Hər an üzdədi…

Nə deyim axı
Mən doğru sözə.
Sahilə döndük
Biz üzə-üzə…

**26.08.2017**
**Avalon**

## ŞƏBNƏM

Gecə şehdən islanan
Otdu, çiçəkdi, daşdı.
Şəbnəm gecə şehidi,
"Şəb" gecə, "nəm"sə yaşdı…

Yaraşıqlı bir qızsan,
Sənin adın Şəbnəmdi,
Sanki şeh düşüb gülə,
Sənin də gözün nəmdi…

Adın qəşəngdir deyə
Çox razısan özündən!
Şəbnəm gözəl olmur ha
Hər çiçəyin gözündə!

**20.01.2017**

## OVCUMDA QAR ÜŞÜYÜR

Çapıb gəlir uzaqdan,
Olubdur ağ atlı qış…
Bir gecənin içində
Hər yeri ağartdı qış…

Bir bax, qarlı həyətə
Düşən ilk iz mənimdi…
Şaxtanın öpüşündən
Qızaran üz mənimdi…

Qar ələnib saçıma
Üstüm-başım bəmbəyaz…
Üşüyürəm yamanca,
Qılınc tək kəsir ayaz…

Ay baba, sənin nəvən
Elə bil qar qız olub…
Lap qardan da soyuqdu,
Əllərim bumbuz olub…

Qarlı qış at oynadır,
Çöldə nə var, üşüyür…
Əlim elə soyuqdu,
Ovcümda qar üşüyür…

**28.01.2017**

## ÇƏMƏNDƏ QONAQLIQ

Səhər təzə açılıb,
Yəqin böcəklər acıb.
Qonaqlıq hazırladım,
Yarpaqdan süfrə açıb.

Üstünə düzdüm moruq,
Tut qurusu, çiyələk.
İndi bütün böcəklər
Qonaqlığa gələcək…

Buludların göz yaşı
Yerə düşüb, şeh olub.
Ətirli şərbət ilə
Ləçək fincanlar dolub.

Duman qalxır, elə bil
Tüstülənir samovar…
İçi şərbətlə dolu,
Oy, nə qədər qədəh var!

Nəyi yeyib-içməyi
Özləri seçəcəklər.
Qonaqlar doyan kimi
Çay, şərbət  içəcəklər…

**17.03.2018**

## GÜZGÜ QANADLAR

Qanadlara baxanda
Çiçəyin üzü güldü.
Kəpənəyin qanadı
Elə bildi güzgüdü…

Nazlanıb zərif çiçək,
Dedi: – Oy, nə gözələm!
Belə yaraşıqlı gül
Görməyibdir göz hələ…

Elə bil ki, bal damır
Ləçəyimdən, üzümdən.
Olmayıbmış xəbərim
İndiyəcən özümdən…

Ay kəpənək, boş durma,
Uç bu güldən o gülə.
Bizim doğma çəməndə
Hamını xoşbəxt elə!

**06.02.2018**

## KƏPƏNƏK

Yamyaşıl çəməni
Al-əlvan çiçəklər
bəzəyir…
O qədər güllərə
qonub ki,
Kəpənək özü də
güllərə bənzəyir…

**13.09.2017**

## BUXARLANAN QIŞ

Bahar günəşi
Əridir qarı…
Qış buxarlanıb,
Qalxır yuxarı…

Onun könlündən
Görən nə keçir? –
Qışlamaq üçün
Şimala köçür…

**31.03.2018**
**Qusar**

## QƏRİB KÜLƏK

Hey uçur eldən-elə,
O, çox yerlər görübdü…
Küləyin yurdu yoxdu,
O, hər yerdə qəribdi…

**23.03.2018**

## YASAMAL

– Yasamal nə deməkdi? –
Baba, başa sal bizə!
– Yasamal söyləyirlər
Dağ üstə olan düzə…

**2017**

## YUXU

Əgər yorğun olmasam
O heç məni tapardı?
Gözlərimi bağlayıb,
Yuxu məni apardı…

**13.09.2017**

## KÜÇÜK

Ağlayırdım bir küçük
Gəldi mənim yanıma.
Quyruğunu buladı,
Sığal çəkdim mən ona…

Bir parça çörək atdım,
İştaha ilə yedi.
Mənə elə gəldi ki,
Küçük dil açıb dedi:

– Kim dəyibdir xətrinə,
Ağlama, ay balaca.
Ömrümün sonunacan
Səninlə dost olacam.

Bir tapşırıq ver mənə
Sənin üçün işləyim.
Kim dəyibsə xətrinə
Gedib onu dişləyim…

**11.04.2017**

## GƏL SUYUN "QAZINI AL"

Silkələnir borular
Kükrəyir, su fışqırır…
Sara yaman hirslənib,
Haray çəkir, qışqırır.

Nənə, nənə, hardasan,
İtirmişəm başımı.
Bu su nə günə qoyub
Gör mənim üst-başımı!

Tez ol, tez ol kranın
Əlindən qızını al!
Fontan vurur səhərdən,
Gəl suyun qazını al!...

**10.05.2017**

## KOLA

Buynuzsuz keçilərə
Kənddə deyirlər kola.
Buynuzsuz keçilərin
Başı ilişməz kola…

**10.05.2017**

## CANAVARIN CAVABI

Qara qurdlar qaynaşır
Bu boz qurdun içində…
Acıqlandırsan onu,
Olar pələng gücündə…

– Ay Canavar, de görək
Günün xoş keçir harda?
– Mənimki el illədi,
El harda, mən də orda…

**10.05.2017**

## QUZUM DÖNÜB QOÇ OLUB

Bir balaca quzunu
Mən otardım, bəslədim.
Hər gün yuxudan durub,
Onu çölə səslədim!

Mənim quzum yoncanı
Dəyirman tək üyüdür…
Səhər-axşam yamacda
Hey otladı, böyüdü…

Buynuzarı da çıxıb,
Hərdən cumur adama.
Əlimdəki şiv çubuq,
Çatır mənim dadıma…

Yoxsa heç fərq də qoymur
O, böyüyə, uşağa…
Quzum dönüb qoç olub,
Mən hələ də uşağam…

**12.05.2017**

## TOP NİYƏ QAÇDI

Bir kimsənin xətrinə
Gərək dəyməyim daha…
Topu təpiklə vurdum,
Küsüb qaçdı uzağa…

## EHTİYAT

Kuklasının üzünü
Tənziflə örtüb Gülxar.
Deyir ki, mən qripəm,
Birdən o da yoluxar…

**15.03.2018**

## ŞARIMI NİYƏ DEŞDİM

Mən püləyib havayla
Öz şarımı doldurdum.
Ağzına sap bağlayıb,
Onu göyə qaldırdım…

Hey əyləndim, oynadım,
Birdən itdi həvəsim…
Şar içində dustaqdı
Axı mənim nəfəsim…

Sanki qəlbim sıxıldı,
Əməllicə darıxdım…
Şarı deşib, havanı
Azadlığa buraxdım…

**09.05.2017**

## AZADLIĞA ÇIXAN NƏFƏS

(İkinci variant)

Atam alan şarları
Mən üfürüb doldurdum,
Ağzına sap bağlayıb,
Onu göyə qaldırdım…

Şar uçdu, sevincimdən
Az qaldı mən də uçum.
Şar uçdu, uçdu, uçdu
Baxıb sevindi bacım.

Birdən dəyib tikana
Şar oldu parça-parça.
Onu xilas etməyə
Tapa bilmədik macal…

Birdən qəribə fikir
Gəldi mənim ağlıma!
Gülə-gülə bacıma
Söylədim ki, ağlama!

Şarın deşilməyini
Dərd eləmə özünə!
Elə belə yaxşıdı,
Bircə damcı üzülmə!

Yəqin havasız yerdə
Nəfəsimiz darıxdı.
Tikan da şarı deşib,
Bizim nəfəsimizi
Azadlığa buraxdı…

**10.03.2018**

## DAĞLARA GÜVƏNƏNLƏR

Min il torpaqda qalsa,
Xalis qızıl  çürüməz.
Qar yağar dağ başına
İl uzunu əriməz.

Dəyəri olmayanı
Heç kəs, heç kəs qorumaz.
Qarlı dağ yamacından
Çıxan bulaq qurumaz.

Uca dağın  başından
Bəyaz qar əskik olmaz,
Onun yamaclarına
Sığınan çiçək solmaz.

Əriyib damla-damla
Təmiz qar yerə hopar.
Dağlara güvənənlər
Həmişə xeyir tapar…

**24.04.2018**

# GÜNƏŞƏ SARI

Günəşə sarı
Bir gül boylanır.
Ləçəklərindən
Nisgil boylanır.

Onu öpsə  də
Kiçik arılar,
Könlü günəşdən
Çətin ayrılar!

Yapışıb günün
Şəfəq əlindən,
Göylərə qalxmaq
Keçir könlündən.

Günəş  heç zaman
Dəyməz xətirə.
Hər təbəssümü
Dönər ətirə…

İşıq yaraşır
Bizim ellərə!
Günün gülüşü
Dönər güllərə…

Şəfəqləriylə
Bəzəyər yeri…
Qəlbimizdədir
Günəşin yeri…

Əl çatmasa da,
Heç vaxt günəşə.
Bizə dayaqdır
Nuru həmişə…

**25.04.2018**

# YOLLAR

Adətən səfərə gedəndə, yola çıxanda üzümüzü göylərə tutub deyirik: – Ya Allah, yolumuzu uğurlu elə! Biz də bu "Yollar" kitabını yazanda həmin sözü təkrarladıq, tanrıdan dilədik ki, bağlı qalan yolları üzümüzə açsın, doğma torpaqlarımıza, həsrətlə yolumuzu gözləyən yurd-yuvamıza qayıda bilək…

İnsan həyatını yolsuz təsəvvür etmək qeyri-mümkündür. Yol həyatın, yaşayışın sehrli qan damarını xatırladır. Yol mədəniyyətin ən əsas göstəricilərindən biridir.

Yola vermək. Yol vermək. Yola salmaq (ötürmək), Yol salmaq. Yoluna qoymaq, yoldan çıxarmaq, yola gətirmək… Yol haqqında olan bu sözlərin, ifadələrin hərəsinin öz mənası var… Yolsuz yaşamaq mümkün deyil. Yol insanların lazım olan yerlərə getmək ehtiyacından doğulub.

Çeşmələrin üstünə, bağlara, dağlara, meşələrə, çəmənlərə ilk insan izləri – cığırlar düşüb.

Meşədə varsa cığır,
Mütləq harasa çıxır.

Zaman keçdikcə bu cığırların bəzisi yola çevrilib.

Adamlar əvvlcə piyada yol gediblər. Sonra heyvanlardan – atdan, dəvədən, ulaqdan, fildən istifadə ediblər. Daha çox yük daşımaq, daha rahat mənzil başına yetmək istəyi insanları daim düşünməyə vadar edib. Beləliklə, təkərli yük daşıyanlar – arabalar yaranıb. Bu adamların işini xeyli asanlaşdırıb.

İş rahat olsun deyə
İnsan hər an düçünüb.
Təkər xeyli azaldıb,
Heyvanların işini.

Arabalarla yükü
Daşımaq asan olub.
Rahat faytonları da
Yaradan insan olub.

Əvvəl arabalar, faytonlar, sonra maşınlar yaranıb. Zaman keçdikcə avtomobillər nəsli bir-birini əvəz eləyib. Bu yüksək sürətli maşınların getməsi üçün hamar yollar salmaq zərurəti ortaya çıxıb… Bu da öz növbəsində buldozerlərin, ekskavatorların yaranmasına səbəb olub.

## YOL

Nəhəng buldozerlər nərildəyə-nərildəyə gəldilər. İri ekskavatorların səsi onların səsinə qarışdı. Torpaq diksindi, səksəndi. Polad-polad tiyələr yerə sancıldı. İri-iri çalovlar torpağı-daşı ovuc-ovuc maşınlara doldurdu.

Hündür yerdən qazılanı çökəklərə tökdülər. Hər yeri bərabərləşdirməyə başladılar. Buldozerlər şırım aça-aça dağlara dırmandı. Açılan şırımlar gedib ucqar-ucqar kəndlərə dirəndi.

Torpağın xəstə damarlarını oyurdular, qulunсunu sındırırdılar. Elə bil cərrahiyyə əməliyyatı aparırdı buldozerçilər, ekskavatorçular, sürücülər.

Nəhayət, əməliyyatın bir hissəsi başa çatdı. İndi yaranı "dərmanlamaq" və "sarımaq" lazım idi.

Qara, isti asfaltı tənzif kimi oyulan yerə çəkdilər, hamarladılar. Elə bil sınığı gibsə salırdılar.

Xəstə torpaq ağrılara dözdü, hər şeyi unutdu.

Kəndlər arasında gözəl bir yol salındı. Asfaltın üstüylə keçən maşınlar mahnı oxuyurdular. Zəhmətkeş əllərə minnətdarlıq, ehtiram mahnısı...

Torpaq da, yol boyu sıralanan ağaclar da, kollar da bu mahnını dinləyə-dinləyə xəyala dalmışdılar.

## YOLÇƏKƏN

Söyləmə ki, hürküdürəm quşları,
Sındırıram, partladıram daşları.

Yol çəkirəm zirvələrə, dağlara,
Yol çəkirəm çeşmələrə, bağlara.

Kəndimizin hey uzanan yolları
Yurdumuzun qollarıdır, qolları.

## BALACA SÜRÜCÜ

Yaşıl işıqlar yandı,
Qarşımda yol açıqdı.
Motoru işə saldım,
Maşınım yola çıxdı.

Harayladı ki, dostum
Qabaqda var sərt döngə.
Yollara nabələdsən,
Uzağa getmə, dön gəl!

Deyir dön gəl, dönərəm,
O mənə dostdoğmadı.
Həyatda insan üçün
Ən yaxın dost doğmadı.

***

– Gözəl bala, dur gedək,
Maşınını sür gedək.
– Gəl sən də min, ay ata,
Yorularsan piyada.
– Maşının balacadı,
Bəs ona necə minim?
Sür gedək…
– Yox, sürmürəm,
Qurtarıbdır benzinim…

**AVTOBUS SÜRÜCÜSÜ**

O, ömrünün çoxunu
Bu yollarda yaşayır.
Bütün günü hamını
Ora-bura daşıyır.

Sürür, öz maşınında
Hər gün gəzdirir bizi.
Evə piyada dönür
Qarajdan onun özü…

İndi müasir həyatımızı maşınsız təsəvvür etmək mümkün deyil. İllər keçdikcə yeni-yeni nəqliyyat növləri yaradılır, maşınlar isə sürətlə çoxalır. Bu isə hərəkəti tənzimləmək zəruriyyətini meydana çıxarıb. Beləliklə, yol hərəkəti qaydaları yaranıb. Bu qaydaları öyrənmək və ona əməl etmək çox vacibdir.

## DANIŞAN İŞARƏLƏR

### Xəbərdaredici

Sən məni görən kimi
Xəbərdar ol, xəbərdar.
Öndə şlaqbaumlu
Dəmir yol keçidi var. **(1. 1.)**

***

Əgər saya salmasan
Məni, –
Cəzan çoxdu ha!
Dəmir yol keçidində
Şlaqbaum yoxdu ha! **(1. 2.)**

***

Məni gördünsə əgər,
Götür-qoy et, hazır ol!
Yolunun qarşısında
Var bir xətli dəmir yol. **(1. 3. 1.)**

***

Dost sayıq ol, qabaqda
Dəmir yol xətdi çoxdu.
Diqqətsiz sürücüyə
Aramızda yer yoxdu. **(1. 3. 2.)**

***

Kəsişəcəkdir yolun
Tramvay xətdi ilə.
Bir az sürəti azalt,
Dönmək istəmə yelə! **(1. 5.)**

***

Mən də sənin qarşında
Dayanmamışam hədər.
Yollar kəsişəcək ha,
Diqqətli ol bir qədər. **(1. 6.)**

***

Bu qədər sürət olmaz,
Zülm eləmə maşina.
Dairəvi hərəkət
Çıxacaqdır qarşına. **(1. 7.)**

***

Qırmızıya, sarıya,
Yaşıl rəngə yaxşı bax.
Unutma ki, yolunu
İşıq nizamlayacaq. **(1. 8.)**

***

Məni saya salmasan,
Sən bəlaya düşərsən.
Birdən körpü ayrılar,
Gedib çaya düşərsən. **(1. 9.)**

***

Ya dənizə, ya gölə,
Ya çaya baxacaqsan.
Diqqətli ol, bir azdan
Sahilə çıxacaqsan. **(1. 10.)**

***

Mənə laqeyd baxma,
Gözümə dik gözünü.
Təhlükəli döngə var,
Yığışdır ha, özünü! **(1. 11.)**

***

Yavaş sür ha, maşını,
Qanadı yoxdur uça!
Təhlükəli döngələr
Calanıbdır uc-uca. **(1. 12.)**

***

Qarşıda sərt eniş var,
Çox güvənmə özünə.
Bir yoxla gör əyləcin
Baxacaqmı sözünə? **(1. 13.)**

***

Önündə sərt yoxuş var,
Bu yol dırmanır dikə.
Sürət yığ maşınına,
Özünü cəmlə, dikəl! **(1. 14.)**

***

Öndə yol sürüşkəndi, –
Nə olsun ki, deyirsən.
Burda zarafat olmaz,
Xizək sürən deyilsən! **(1. 15.)**

***

Yol yaman nahamardı,
Heyfin gəlsin maşina.
Yoxsa, o səndən küsüb,
Oyun açar başına. **(1. 16.)**

***

Bir azdan çınqıllı yol
Çıxacaqdır qarşına.
Sayıq olmasan əgər,
Daş yağacaq başına. **(1. 17.)**

***

Qabaqda yol daralır,
Ürəyin daralmasın.
Ehtiyatlı ol bir az,
Qanın heç qaralmasın. **(1. 18.)**

***

Bəlkə elə qarşına
Dostun, qardaşın gəlir.
Yolda tək deyilsən ha,
Öndən də maşın gəlir. **(1. 19.)**

***

Əgər mənim sözümü
Vursan qulaq ardına,
Peşiman olacaqsan.
Piyada keçidinə
Məhəl qoymasan əgər,
Piyada qalacaqsan! **(1. 20.)**

***

Gözlərinin önündə
İldırım çaxa bilər.
Yavaş sür ha, yoluna
Uşaqlar çıxa bilər. **(1. 21.)**

***

Buludların içində
Həm yağış, həm dolu var.
Ehtiyatlı ol, öndə
Velosiped yolu var. **(1. 22.)**

***

Yolunu düzəldəni
Öz işindən eləmə.
Yoxsa, yolsuz qalarsan,
Qəlbin batar ələmə. **(1. 23.)**

***

Ayıq ol, yoxsa səni
Köçürərlər mahaldan.
Mal-qaranı vuranın
Axı nə fərqi maldan? **(1. 24.)**

***

Maşını yavaşca sür,
Bax yola heyran-heyran.
Birdən çıxar qarşına
Ya maral, ya da ceyran. **(1. 25.)**

***

Burda sayıq olmasan,
Dağ sənə gülə bilər.
Maşınının üstünə
Daş qopub gələ bilər. **(1. 26.)**

***

Yandan külək əsəcək,
Qəlbin hirslə dolmasın.
Möhkəm tut ki, sükanı
Yel əlindən almasın. **(1. 27.)**

***

Birdən yolu düz görüb,
Yerli-yersiz coşarsan, –
Maşınını uçurma,
Uçaqla toqquşarsan! **(1. 28.)**

***

Bu sürət kifayətdi,
İşin olmasın qazla.
Qarşıda dar tunel var,
İşıqlarını sazla! **(1. 29.)**

***

Gəl özünü yığışdır,
Yol üstündə nida var!
Mənə məhəl qoymasan,
Bil ki, qan var, qada var! **(1. 30.)**

Biz döngənin önündə
Yolunu gözləyirik.
Bizi tanıyanlara
Hər şeyi düz deyirik…

## Üstünlük

Dördkünc sarı nişanam,
Mən baş yolam, baş yolam.
Görməməzlik etsələr,
Haqqım çatır baş yolam! **(2. 1.)**

***

Bir azca lovğalandım,
Görün nə günə qaldım?
Üstümdən xət çəkdilər,
Baş yolun sonu oldum. **(2. 2.)**

***

İkinci dərəcəli
Yol çıxsa da qarşıma,
Hər şey gözləmək olar,
Çox qaz vermə maşina! **(2. 3.)**

***

Ya sağdan, ya da soldan
Mənə birləşən yol var.
Üstünlük bizimkidir,
Dostum, sənə uğurlar… **(2. 4.)**

***

Sözümdən çıxsan əgər,
Bəla gələr başına.
Yol ver qarşıdan keçən
Tramvaya, maşina. **(2. 5.)**

Önümdə dayanmasan
Bizi peşman edərsən.
Dost, qaçhaqaç deyil ki,
Dayan, sonra gedərsən… **(2. 5.)**

***

Lazım gələrsə, yol ver,
Höcət etmə bir daha.
Hərəkət üstünlüyü
Öndən gələnindir ha! **(2. 6.)**

Üstünlük səninkidir,
Ayağı əyləcdən çək!
Qarşıdan gələn maşın
Sənə yol versin gərək! **(2. 7.)**

**Qadağanedici**

***

Qırmızı dairəyəm
İçimdə enli ağ xət.
Əgər girsən bu yola
Çəkəcəksən xəcalət.

Bu tərəfə girişi
Qadağan eləyirəm.
Kim sözümə baxmasa
Qada, qan eləyərəm. **(3. 1.)**

***

Qırmızı dairəyəm,
Sıfıra bənzəyirəm.
Bura hərəkət olmaz,
Dayanıb gözləyirəm.
Bir ağıllı sürücü
Məni görüb dayandı.
Sanki başa düşdü ki,
Hərəkət qadağandı. **(3. 2.)**

***

Qırmızı dairəli
Nişan hara vurulsa,
Dairənin içində
Nəyin şəkili olsa,
Qadağandır gedişi
Bax, həmin nəqliyyatın:
Maşının, motosklin,
Araba çəkən atın…

***

Bu nişanın önündə
Dayanmadan, durmadan
Getmək qadağan olur.
Bir də ki, geri dönmək,
Həm də ki, nəqliyyatı
Ötmək qadağan olur…

## Əmredici

***

Göy dairə içində
Ağ libaslı oxam mən.
Əmrimdən çıxanlarla
Yoxam, yoxam,
yoxam mən… **(4. 1. 1.)**

***

Sağa əyilmişəmsə
Sağa hərəkət elə! **(4. 1. 2.)**

***

Sola əyilmişəmsə,
Sola hərəkət elə. **(4. 1. 3.)**

***

Məni saya salmayan
Bağışlanmayıb hələ.
Əmrimdən çıxanların
Yaxası keçər ələ!

***

Bax, mən də tərsəm, qağa,
Sözümü qoyma lağa!
Cəza istəmirsənsə,
Ya düz get, ya dön sağa! **(4. 1. 4.)**

***

Əgər məni gördünsə,
Ya sola dön, ya düz get.
Sürücü vəsiqəndən
Ya da əlini üz get! **(4. 1. 5.)**

***

Düz getmə, ilişərsən,
Çıxarma nağıl, həkət.
Sənə əmr olunubdur
Dairəvi hərəkət. **(4. 3.)**

***

Iki yol var, özün seç,
Ya soldan, ya sağdan keç! **(4. 1. 6.)**

***

Sözümdən çıxarlar heç?
Maneəni sağdan keç! **(4. 2. 1.)**

***

Göstərilən yoldan öt,
Maneəni soldan öt! **(4. 2. 2.)**

***

Məni görsən uzaqdan,
Çəkin qoruq-yasaqdan.
Yoldakı maneəni
Ya soldan öt, ya sağdan. **(4. 2. 3).**

## İŞIQFOR

Mənim iki gözüm var,
Səninki niyə üçdü?
Yaşıl gözün parladı,
Maşınlar gəldi keçdi.

Açdın sarı gözünü
Söylədin ki, “hazır ol!”
Qırmızı gözün yandı,
Demək bağlanıbdı yol.

Maşınların hamısı
Dayanıblar naəlac.
Gözünün üçünü də
Oğulsansa, birdən aç.

– Ay oğlan, aldanmaram,
Tutma məni kələyə.
Elə etsəm, maşınlar
Gələr kəllə-kəlləyə.

## İŞIQFORUN ÜÇ İŞIĞI

Yuxarıda dayanan
Ağsaqqaldı:
– Dur! – dedi.
Aşağıda dayanan
Tez yerindən dur, – dedi.
Özünü alovlara,
Atəşlərə vur, – dedi.

Ortada qalan işıq
Şübhələr içindədi.
Nə dayanın söylədi,
Nə də ki, keçin dedi.

## YOL VƏ POST

Cığır böyüyüb yol olur,
Gah geniş, gah dardı yollar.
Keçib gedən adamlardan
Qalan yadigardı yollar.

Şütüyüb gedir maşınlar,
Bu daralan yollara bax.
Baxıb, baxıb düşünürəm:
Yol örkəndi, post – doğanaq…

## DƏMİR YOLU

Zamanın tələbi ilə dəmir yolları yarandı. Qoşa relslərin üstündə hərəkət edən qatarlar dünyanın bu başından o başına yük, sərnişin daşımağa başladılar.

## QATAR YOLA DÜŞƏNDƏ

Qatar çıxdı vağzaldan,
Dedim: – Uğurlar ola!
Elə bildim şəhərdən
Bir küçə düşdü yola…

***

Evimizin yanından
Şütüyüb qatar keçir.
Yamyaşıl tarlaları
Doğrayır, qatar biçir…

## QATAR

Bir gör necə uzunam,
Mən qataram, qataram.
Şəhərləri, kəndləri
Bir-birinə qataram.
Gedəni aparıram,
Qayıdanı qaytaram.

## GECƏ QATARI

Gecə qatar keçəndə
Evimizin yanından
Bilmir ki, nə eləsin
Adam həyəcanından.
Bina sanki vaqondu,
Kupedi mənzilimiz.
Qatarlara qoşulub,
Sanki yol gedirik biz.

## FUNİKULYOR

Mindiyimiz tramvay
Dağa qaldırdı bizi.
Çıxıb Dağüstü parkdan
Seyr elədim dənizi.

Qağayılar baş vurub
Ayna sularda çimir.
Xəzərin yaxasında
Hər qayıq düymə kimi…

## METRO

Axın-axın girirlər
Yer altına adamlar.
Axın-axın çıxırlar
Yet altından adamlar.
